UNITED NATIONS GEORGIA

World Vision GEORGIA



# PANDEMİYA DÖVRÜNDƏ MƏKTƏBLƏR

## ÜMUMTƏHSİL MÜƏSSİSƏLƏRİ ÜÇÜN TÖVSİYƏLƏR

2021

World Vision
GEORGIA

UNITED NATIONS
GEORGIA

# PANDEMİYA DÖVRÜNDƏ MƏKTƏBLƏR

## ÜMUMTƏHSİL MÜƏSSİSƏLƏRİ ÜÇÜN TÖVSİYƏLƏR

***(PİLOT VERSİYASI)***

GÜRCÜSTAN TƏHSİL, ELM, MƏDƏNİYYƏT VƏ İDMAN NAZİRLİYİ

**2021**

**Məlumat kitabçası üzrə işlədilər:**

**Natia Mjavanadze** – tədqiqatçı, beynəlxalq və müqayisəvi təhsil üzrə doktorant, “WV Gürcüstan” Tbilisi Urban proqramının meneceri

**Tsira Barkaia** – MPhil SNE, psixoloq, inklüziv və erkən təhsil üzrə mütəxəssis; „WV Gürcüstanın” erkən yaşında uşağın inkişafı proqramının koordinatoru

**Revaz Apxazava** – siyasi advokatlaşdırma ofiseri, WV Gürcüstanın konsultantı: ümumi təhsil eksperti

**Qiorqi Çanturia** – Təhsil koalisiyasının direktoru, Vətəndaş Təhsili müəllimi, WV Gürcüstanın konsultantı: təhsilin idarəetməsi eksperti

**Zurab Alxanişvili** – sağlamlığın dəstəkləndirilməsi üzrə magistr, „WV Gürcüstanın” konsultantı: məlumat kitabçasının səhiyyə eksperti

**Mariam Xvadaqiani** – neyro-psixoloq, „WV Gürcüstanın” konsultantı: məlumat kitabçasının psixoloqu

**Nana Qoçiaşvili** – sosial işçi, hüquqşünas, „WV Gürcüstanın” konsultantı – məlumat kitabçasının uşaqların müdafiəsi üzrə eksperti

**Maia Baqrationi-Qruzinski** – inklüziv təhsil üzrə konsultant, neyro-psixologiya magistri, „WV Gürcüstanın” konsultantı: məhdud imkanlıların məsələləri üzrə ekspert

Redaktor: **Çabuki Kiria**
Cildləyən dizayner: **Nikoloz Lomidze**
Dizayn: **Qvantsa Maxatadze**
Tərcümə edəni: **Əhmədova Qızxanım**

World Vision Gürcüstan
Tbilisi, 2021

gürcücə mətninin Azərbaycan dilinə tərcüməsi World Vision Gürcüstan (WVG )tərəfindən BMT-nin Gürcüstanda Daimi Koordinator Ofisinin (RCO) dəstəyi ilə hazırlanmışdır.

**„World Vision Gürcüstan”** artıq 20 ildir ki, uşaqların müdafiə sistemlərinin gücləndirilməsinə və cəmiyyətin rolunun aktivləşdirilməsinə qayğı göstərir ki, uşaqların firavanlığı üçün inklüziv, tolerant, ədalətli və bərabər mühit yaransın.

Təşkilat bu məqsədin əldə edilməsi üçün kompleksli yanaşmadan istifadə edir ki, bu da ailənin gücləndirilməsini, təhsil müəssisələrinin dəstəkləndirilməsini və icmanın cəlb olunmasını nəzərdə tutur. COVID-19 pandemiyası qlobal şəkildə təhsil sistemini çağırış qarşısına qoydu. Gürcüstanda mövcud məktəbəqədər və ümumtəhsil müəssisələri də istisna halı təqdim etmirlər. Həm müəssisələrin ardıcıl fəaliyyəti və təhsil prosesinin distant aparılması, eləcə də təhsilin əlçatması təhlükə ilə qarşılaşdı.

2020-ci ilin yeni akademik ilindən dövlət tərəfindən işlənib hazırlanmış tənzimləmələrin və tövsiyələrin nəzərə alınması üçün məktəbəqədər təhsil müəssisələrinə əlavə dəstək lazım olacaqdır.

Məhz bu məqsədlə, **„World Vision Gürcüstan”**-ın təşəbbüsü ilə həm məktəb, eləcə də məktəbəqədər təhsil istiqamətində müxtəlif ixtisaslar üzrə ekspertlər dəstəsi yaradıldı.

Fənlərarası dəstənin məqsədini Gürcüstan Təhsil, Elm, Mədəniyyət və İdman Nazirliyinin və Xəstəliklərə Nəzarət və Milli İctimai Səhiyyə Mərkəzi ilə əməkdaşlıq əsasında məktəblər və məktəbəqədər müəssisələr üçün praktiki məlumat kitabçasının işlənib-hazırlanması təqdim edirdi ki, bu da səhiyyə tənzimləmələrinə əsasən təhsil prosesinin aparılmasını yüngülləşdirəcəkdir.

Qeyd etmək lazımdır ki, həm fəaliyyətdə olan rəhbərlər, eləcə də sahə mütəxəssisləri məlumat kitabçasının hazırlanması və təkmilləşdirilməsi prosesinə cəlb olunmuşdular.

Pandemiya şərtlərində təhsil müəssisələrinin fəaliyyəti çox mürəkkəb və dəyişkən bir prosesdir. Gürcüstanda fəaliyyət göstərən məktəblər və məktəbəqədər müəssisələr müxtəlif çağırışlarla üzləşdilər.

Qarşıdakı sənəd – „Pandemiya dövründə bağçalar: məktəbəqədər müəssisələr üçün praktiki məlumat kitabçası” pilot versiyanı təqdim edir; onun təkmilləşdirilməsi üçün cari semestr ərzində məlumatlar və təcrübəçilərin çağırışları toplanıldı və bunlar da imkan daxilində kitabçada öz əkslərini tapdılar və bundan sonra yekun şəkil verildi.

Elə buradaca Gürcüstan Təhsil, Elm, Mədəniyyət və İdman Nazirliyinə və Xəstəliklərə Nəzarət və Milli İctimai Səhiyyə Mərkəzinə əməkdaşlıq və konkret tövsiyələr üçün təşəkkürümüzü bildirmək istəyirik.

Konsultasiya qrup üzvlərinin məlumat kitabçasının işlənib hazırlanmasının müxtəlif mərhələlərində bizə təqdim etdikləri bu çağırışlar və praktiki məsləhətlər xüsusilə vacib idi və onlara dərin təşəkkürümüzü bildiririk.

World Vision Gürcüstan qarşıdakı kitabçanın tərcüməsinə dəstək verdiyinə görə, BMT-nin Gürcüstanda Daimi Koordinator Ofisinə təşəkkürünü bildirir.

Ümidvarıq ki, pandemiya şərtlərində dərs prosesinin yeniləndirilməsində və aparılmasında məlumat kitabçası təhsil müəssisələrinə önəmli dəstək olacaqdır.

Məlumat kitabçasının təkmilləşdirilməsi məqsədilə təkliflərinizi, çağırışlarınızı, suallarınızı elektron poçt ünvanımıza göndərə: tsira_barkaia@wvi.org və ya facebook səhifəmizdə yaza bilərsiniz: World Vision Georgia

# MÜNDƏRICAT


ÖN SÖZ . . . . . 6
GİRİŞ . . . . . 7
VƏZİYYƏTİN İCMALI . . . . . 8
HAZIRLIQ MƏRHƏLƏSI . . . . . 9
ÜMUMTƏHSİL MÜƏSSİSƏLƏRİ ÜÇÜN SAĞLAMLIĞIN MÜDAFİƏSİ TÖVSİYƏLƏRİ . . . . . 10
ÜMUMTƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ ŞAGİRDİN HÜQUQLARININ MÜDAFİƏSİ . . . . . 16
MƏKTƏBLƏRDƏ TƏDRİS PROSESİNİN TƏŞKİLİ . . . . . 24
MƏKTƏBİN DƏRS PLANI . . . . . 26
DƏRS RESURSLARI . . . . . 29
MƏKTƏB PERSONALI VƏ MÜƏLLİMLƏRİN DƏSTƏKLƏNDİRİLMƏSİ . . . . . 30
KEYFİYYƏTİN İDARƏ EDİLMƏSİ, MONİTORİNQ VƏ QİYMƏTLƏNDİRİLMƏSİ . . . . . 33
COVID 19-UN SƏBƏB OLDUĞU PANDEMİYA ŞƏRTLƏRİNDƏ FIRAVANLIQ . . . . . 37
XÜSUSİ TƏLİMƏ EHTİYACI OLAN ŞAGİRDLƏRİN TƏDRİS PROSESİNİN TƏŞKİLİ ÜÇÜN TÖVSİYƏLƏR . . . . . 44
ƏLAVƏLƏR . . . . . 60
İSTIFADƏ EDILƏN ƏDƏBIYYAT . . . . . 68

# ÖN SÖZ

Qarşıdakı məlumat kitabçası pandemiya dövründə dərs prosesinin effektiv aparılmasında məktəblərin dəstəkləndirilməsi və mövcud tənzimləmələrin nəzərə alınması məqsədilə hazırlanmışdır.

Sənəd növbəti əsas prinsiplərə əsaslanır:

- tənzimləmələrin hamısı və təhsil sistemində təşəbbüs edilmiş dəyişikliklər şagirdlərin ən yaxşı maraqlarına əsaslanır;
- təhsil hüququnun gerçəkləşdirilməsi ən əsas prioriteti təqdim edir və onun hər hansı bir məhdudiyyəti yalnız şagirdlərin həyat və sağlamlıq təhlükəsindən irəli gələn zərurətlə mümkündür;
- Gürcüstanda fəaliyyət göstərən ümumtəhsil müəssisəsi bənzərsizdir və başqa müəssisələrdən demoqrafik, sosial, mədəni və başqa parametrlərlə fərqlənir. Müvafiq olaraq, dövlət tərəfindən və məktəblərin özləri tərəfindən həyata keçirilən dəyişikliklər və qəbul edilən qərarlar maksimal şəkildə differensiasiya ediilməli və konkret müəssisənin xüsusiyyətlərinə və ehtiyaclarına uyğunlaşdırılmalıdır;
- Şagirdlərin təhsil hüququnun gerçəkləşdirilməsində məktəbin və məktəb icmasının rolu çox önəmlidir. Müvafiq olaraq, məktəb və məktəb icması yüksək məsuliyyətlə, avtonom rejimdə dərs prosesinin effektiv aparılmasına qayğı göstərməlidirlər. Dövlət də öz tərəfindən müstəqil qəbul edilmiş təşəbbüsləri həvəsləndirməli və dəstəkləməlidir.

2019-2020-ci dərs ilinin ikinci semestrində tədris prosesinin fors-major vəziyyətdə davam etdiyini nəzərə alsaq, 2020-2021 dərs ilinin əsas oriyentirini ötən il mövcud nöqsanların qarşısının alınması, risklərin azaldılması və problemlərə effektiv reaksiyanın göstərilməsi təqdim etməlidir.

Qarşıdakı sənəd yalnız təlimin başlanılması üçün dəstəkverici tövsiyələrin birliyini təqdim etmir. Məsləhətlərin əksəriyyətinin istifadəsi tam dərs ili ərzində mümkündür.

# GİRİŞ

Məlumat kitabçası Gürcüstanın ümumtəhsil müəssisələrinin direksiyası, müdiriyyət nümayəndələri, müəllimlər, valideynlər və məktəb cəmiyyətinin başqa nümayəndələri üçün nəzərdə tutulmuş və şagirdlərin təlim-tədrisinin effektiv sisteminin yaradılmasının dəstəkləndirilməsinə yönəlmişdir.

Məlumat kitabçası Təhsil, Elm, Mədəniyyət və İdman Nazirliyi və Gürcüstanın İşğal Edilmiş Ərazilərindən Qaçqınların, Əmək, Səhiyyə və Sosial Müdafiə Nazirliyi tərəfindən işlənib hazırlanmış yeni koronavirusun (SARS-CoV-2) səbəb olduğu infeksiya ilə bağlı (COVID-19) bütün tövsiyələrin nəzərə alınması ilə işlənib hazırlanmışdır.

Sənədin işlənib hazırlanmasında Təhsil, Elm, Mədəniyyət və İdman Nazirliyi ilə əməkdaşlıq əsasında məktəblərin,vətəndaş cəmiyyətinin, beynəlxalq təşkilatların nümayəndələri və müstəqil ekspertlər iştirak edirdilər. Kitab 2020-2021-ci dərs ili üçün mövcud yerli və beynəlxalq tədqiqatların, qiymətləndirmələrin və ən yaxşı təcrübənin analizinə əsaslanır.

Məlumat kitabçasında verilən məsələlər tövsiyə xarakterini daşıyır və məktəblər üçün onların qismən və ya bütöv nəzərə alınması könüllüdür. Məktəblər koronavirus pandemiyası dövründə tədrisin effektiv aparılmasının müstəqil strategiyalarını işləyib hazırlaya və həyata keçirə bilərlər.

Ümidvarıq ki, sözügedən məlumat kitabçası məktəblərə idarəetmə və dərs prosesinin effektiv koordinasiyasında yardım edəcəkdir.

# VƏZİYYƏTİN İCMALI

Yeni koronavirusun (SARS-CoV-2) səbəb olduğu infeksiyaya (COVID-19) reaksiyanın çərçivəsində 2020-ci ilin martından akademik ilin sonuna qədər hökumətin sərəncamı ilə təhsil müəssisələri bağlandı. Bütün bunlar statistik cəhətdən növbəti şəkildə görünürlər: 1,621 məktəbəqədər müəssisə və 2,312 məktəb bağlandı və bunun nəticəsində 164,605 məktəbəqədər uşağın və 590, 034 məktəb yaşlı şagirdlərin təlimləri yarımçıq kəsildi.

Dövlət tərəfindən atılan pozitiv addımlara baxmayaraq (məsələn: teleməktəb layihəsinin həyata keçirilməsi, müxtəlif resursların yaradılmasına dəstəyin verilməsi, onlayn aplikasiyalara əlçatmanın artırılması və s.), təhsil sistemi mühüm problemlər qarşısında qaldı. Problemlər həm internetin əlçatması tərəfindən, eləcə də müvafiq cihazlar tərəfindən mövcud idi; həmçinin rəqəmsal bilgilər tərəfindən müəllimlərdə, eləcə də şagirdlər və valideynlər arasında. Bundan başqa, distant tədris istiqamətində də problemlər aydın görünürdü. Bu cəhətdən, pandemiya nəticəsində şagirdlərin aldıqları ağır psixoloji təsir, sosial-emosional və akademik geridə qalma mühüm məsələdir.

Yeni dərs ili üçün yuxarıdakı problemlərin və məktəblərin fərdi ehtiyaclarının nəzərə alınması və onlara müvafiq reaksiyanın göstərilməsi vacibdir.

UNESCO tərəfindən işlənilmiş tövsiyə sənədlərinə əsasən vacibdir ki, məktəblər və qərar qəbul edən qurumlar növbəti əsas məsələləri nəzərə alsınlar:
1. təhlükəsiz iş şərtləri və səhiyyə tənzimləmələri;
2. müəllimlərin hazırlığı, psixoloji və sosial-emosional vəziyyət;
3. müəllimlərin və məktəb müdiriyyətinin əmək hüquqlarının nəzərə alınması;
4. keyfiyyətin idarəetməsi və effektiv monitorinq sisteminin olması.

Əsas odur ki, qeyd edilən istiqamətlərin təhlili və məktəblərin effektiv fəaliyyəti üçün dövlət tərəfindən maliyyə resursları və əlavə investisiyalar nəzərə alınsın.

Bu məsələlərdən hər birinin üzərində işlədikdə ictimai dialoqun və kommunikasiyanın olması çox vacibdir. Müvafiq olaraq, qərar qəbul edənlər və məktəblər üçün ən əsas tövsiyə məhz budur. Daha konkret olaraq, planlaşdırma prosesində hər bir tərəfin (müəllimin, valideynlərin, təhsil mütəxəssislərinin, ictimai, icma və donor təşkilatlarının, zəif və marginallaşdırılmış qrupların) cəlb olunması nəzərə alınmalıdır.

Qeyd edilən tövsiyələri, beynəlxalq təcrübəni və yerli konteksti nəzərə almaqla işlənib hazırlanmış sənəddə növbəti məsələlər təhlil ediləcəkdir:
- dərs prosesi başlanılana qədər məktəblərin hazırlıq mərhələsi;
- dərs prosesinin təşkili;
- məktəb personalının və müəllimlərin dəstəkləndirilmə strategiyaları;
- valideynlərin cəlb olunması;
- xarici kommunikasiya.

Məlumat kitabçasında inklüziv təhsilin ümumi məsələləri və dərs prosesində xüsusi təlimə ehtiyacı olan şagirdlərin inteqrativliyi ilə bağlı mövzular təqdim edilmişdir.

# HAZIRLIQ MƏRHƏLƏSI

2020-ci ilin avqustun 14-də Gürcüstanın İşğal Edilmiş Ərazilərindən Qaçqınların, Əmək, Səhiyyə və Sosial Müdafiə Nazirliyi tərəfindən „Ümumtəhsil müəssisələri üçün yeni koronavirusun SARS-CoV-2) səbəb olduğu infeksiya ilə (COVID-19) bağlı ümumi tövsiyələr" dərc edildi. Müvafiq olaraq, hazırlıq mərhələsində xüsusi diqqət sözügedən sənədin nəzərə alınmasına yönəldilməlidir. Sənəddə verilən məsləhətlər və tənzimləmələr birbaşa təlim-tədris məsələləri ilə bağlıdır. Konkret olaraq, sənəd növbəti istiqamətləri nəzərdən keçirir:

- məktəblərdə dərs prosesinin başlanılması-yeniləndirilməsi;
- məktəb binası və həyətinin təmizlənməsi-gigiyenası;
- məktəb məkanında yerdəyişmə;
- dərs prosesinin təşkili;
- şagirdlər arasında dərs prosesi zamanı bağlı və açıq məkanlarda icbari məsafə;
- məktəbin ümumi məkanlarında yerdəyişmə qaydası;
- xüsusi təlimə ehtiyacı olan şagirdlərlə bağlı tövsiyələr;
- qida prosesi ilə bağlı tövsiyələr;
- şagirdlərin nəqliyyatı ilə bağlı tövsiyələr;
- tədris müəssisəsinin kitabxanası;
- məktəb-pansionların fəaliyyəti ilə bağlı tövsiyələr (24 saatlıq xidmət);
- sanitar qovşağın təmizlənməsi ilə bağlı əlavə təlimat;
- məktəbin tibbi personalının müxtəlif tədbirlərdə iştirakı.

Bundan başqa sənəddə şagirdlərin, müəllimlərin və valideynlərin öhdəlikləri yazılmışdır.

Qeyd edilən tövsiyələrin nəzərə alınması, dərs prosesinin effektiv aparılması və dərs proseslərində məktəb cəmiyyətinin cəlb olunması üçün məktəb hazırlıq işlərini planlaşdırmalı və həyata keçirməlidir.

# ÜMUMTƏHSİL MÜƏSSİSƏLƏRİ ÜÇÜN SAĞLAMLIĞIN MÜDAFİƏSİ TÖVSİYƏLƏRİ

Covid-19-un qarşısının alınması üçün hər bir ümumtəhsil müəssisəsi bir sıra tədbirlər həyata keçirməlidir ki, bunlar da ictimai sağlamlıq məsələlərinin tənzimləyici beynəlxalq və yerli tövsiyələrə istinad edirlər. Ümumtəhsil müəssisələrində preventiv tədbirlərə, öyrənmənin effektiv mexanizminin yaradılmasına və əlaqələrin azalmasına üstünlük verilməlidir.

Ümumtəhsil müəssisəsi şagirdlərin və əməkdaşların qarşısında üzərinə götürdüyü məsuliyyəti mənimsəməlidir. Hər bir əməkdaşa COVID-19 pandemiya şərtlərində mövcud problemlərin, arzu edilən və arzu edilməyən hərəkətlərin, daxili protokolların, preventiv vasitələr haqqında ətraflı məlumat çatdırılmalıdır. Məhz ümumtəhsil müəssisəsinin məsuliyyəti konkret qrupun və ya ümumtəhsil müəssisəsinin tədris prosesinin həyata keçirilməsi və idarəetmə rutininin qorunub saxlanılma məsələsini müəyyən edir, çünki personalın və ya şagirdin COVID 19-a yoluxduğu halda, tədris prosesinin davam etdirilməsi, dayandırılması və şəklinin dəyişdirilməsi məsələsi üzrə qərar epidemioloji araşdırma əsasında qəbul edilir. Ümumtəhsil məkanında mövcud əlaqələr, əlaqələrin intensivliyi, müdafiə vasitələrinin və mövcud tövsiyələrin nəzərə alınması keyfiyyəti və başqa məsələlər öyrəniləcək və nəzərə alınacaqdır. Müvafiq olaraq, bir sıra tədbirləri nəzərə almalı və təcrübədə keçirməliyik ki, hər bir qrupla yalnız eyni bir dəstənin çalışması təmin edilsin. Müəllimlərin müxtəlif qruplara mobilliyi az baş versin.

Ümumtəhsil müəssisəsi növbəti məsələlərə koordinasiya edəcək cavabdeh şəxsi təyin etməlidir:

- qonaqların (qonaq binaya daxil olan hər hansı bir şəxs ola bilər) termoskrininqi və pandemiya şəraitində qanunla müəyyən edilmiş sənədlərin aparılması (yeni koronavirusun (SARS-CoV-2) səbəb olduğu infeksiya (COVID-19) ilə bağlı ümumtəhsil müəssisələri üçün ümumi tövsiyələr. Əlavə 37)
- fərdi müdafiə vasitələrinin təchizatı, qonaqlar tərəfindən bunların düzgün və uyğun istifadəsi;
- əməkdaşlar tərəfindən fərdi müdafiə vasitələrinin istifadəsi;
- əməkdaşlar arasında fiziki/sosial məsafənin təmin edilməsi;
- səthlərin dezinfeksiya protokoluna əməl edilməsi və monitorinq;
- şagirdlərin qarşılanması/yola salınması proseslərinin planlaşdırılması, idarə edilməsi və monitorinqi;
- təbii və ya süni ventilyasiya sisteminin effektiv fəaliyyəti;
- tənzimləyici orqanlar tərəfindən təqdim edilən tövsiyələrin nəzərə alınması və tənzimləmələrin tətbiqi məqsədilə əməkdaşların hazırlanması;
- tənzimləyici orqanlar tərəfindən təqdim edilən tövsiyələrə və tənzimləmələrə əməl edilməsinin və nəzarətinin təmin edilməsi (yeni koronavirusun (SARS-CoV-2) səbəb olduğu infeksiya (COVID-19) ilə bağlı ümumtəhsil müəssisələri üçün ümumi tövsiyələr. Əlavə 37), özəlliklə də:
  - yığışdırılmanın, təmizləmənin, dezinfeksiyanın, qida və su istifadəsinin protokollarına əməl və nəzarət edilməsinin təmin edilməsi;
  - bufetin sanitar-gigiyena vəziyyəti və qida məsələlərinin idarə edilməsi.
  - COVID19 pandemiya şəraitində fəaliyyət göstərən məktəbəqədər müəssisələrlə bağlı başqa tövsiyələrin və tələblərin implementasiyası və monitorinqi;
- COVID 19 pandemiyası ilə bağlı çağırışların və məktəbəqədər müəssisədə həyata keçirilmiş və ya planlaşdırılmış əməli dəyişikliklər barəsində valideynlərin məlumatlandırılması.

Sözügedən məsuliyyətlər müxtəlif mövqelərdə işlə təmin olan işçilər arasında bölünə bilər.

# Tövsiyələrə əməl edilməsi zərurəti və əhəmiyyəti haqqında məlumatlandırma

Xəstəliklərə Nəzarət Mərkəzi və məktəb tərəfindən işlənib hazırlanmış tövsiyələrə daha yaxşı əməl edilməsi üçün məktəb cəmiyyəti yaxşı dərk etməlidir ki, bunlara laqeyd yanaşılma hansı təhlükələri əhatə edir və nə üçün onlara əməl etmək lazımdır. Bunun üçün yaxşı olardı ki, məktəb məlumatı yayımlandırdığında növbəti istiqamətlərə diqqət versin:

- Şagirdlər COVID 19-a yoluxma nəticəsində yaranmış çətinliklərin aşağı risk-qrupuna daxildirlər, amma onlar infeksiyanı ötürə bilərlər. Müvafiq olaraq, tövsiyələrə əməl edilməməsi məktəb müdiriyyətinin nümayəndələri, müəllimlər, onların ailə üzvləri və şagirdlərin bilavasitə əlaqədə olduqları şəxslər üçün təhlükə yarada bilər.
- Pandemiya şəraitində tövsiyələrə əməl edilməsinə laqeyd yanaşma həm ölkənin, eləcə də qlobal miqyasda virusun yayılması və epidemioloji vəziyyətin ağırlaşması səbəbi ola bilər.
- Tövsiyələrə əməl edilməməsi əlavə karantin zonalarını yarada bilər. Şagirdin və ya məktəb icmasının başqa nümayəndəsinin xəstələndiyi halda, konkret məktəbdə və ya ölkə miqyasında dərs prosesi dayandırıla bilər və bu da uzunmüddətli perspektivdə həm şagirdlərə, müəllimlərə və məktəb müdiriyyətinə və eləcə də onların ailələrinə əlavə problemlər yarada bilər.
- Qızdırma və ya infeksiya simptomlarının olduğu halda, şagirdi məktəbə buraxmaq ailə üçün daha çox narahatçılıq yaradacaq, nəinki onu evdə saxlamaq. Xəstəliklərə Nəzarət Mərkəzi tərəfindən işlənib hazırlanmış tövsiyələrə əsasən, şagirdin qızdırması və ya COVID infeksiya simptomlarının müşahidə olunduğu halda, valideyn şagirdi ağlabatan müddətdə məktəbdən aparmalıdır. Əls halda, 112 çağırılacaq və şagird Qızdırma Mərkəzinə və ya müvafiq tibbi müəssisəyə keçiriləcəkdir. Qızdırma və ya infeksiya simptomlarının məktəbdə qeydə alındığından sonra şagirdi məktəbə qaytarmaq üçün valideynlər övladlarına məcburi PCR test keçirməli və məktəbə təqdim etməlidirlər.

# Ümumtəhsil müəssisəsinə səfər

Ümumtəhsil müəssisəsinin ərazisinə maksimal şəkildə kənar şəxslərin girişi məhdudlaşmalıdır. Şagirdlərin qəbulu və yola salınması ümumtəhsil müəssisəsinin girişində həyata keçirilir. Prosesə ümumtəhsil müəssisəsinin nümayəndəsi cəlb olunur. O, valideynlə/qanuni nümayəndə ilə əlaqədə olur və şagirdin qəbul edilməsi/yola salınması öhdəliyini üzərinə götürür.

Lazım gəldiyi halda, distribusiya şirkətlərinin nümayəndələri binaya yalnız maskadan istifadə etməklə daxil ola bilərlər. Ümumtəhsil müəssisəsinin dezobaryerinin olmadığı halda, baxillərin geyinilməsi məcburi tələbdir.

Qonaqlardan hər biri distant termometrin istifadəsi ilə termoskrininqdən keçir. Qonaqda hərarət müşahidə olunursa ($37^0$C və ya çox), ümumtəhsil müəssisəsinin binasına daxil olmur. Nəzərə almaq lazımdır ki, müxtəlif səbəbdən temperaturun artması müvəqqəti olaraq da qeyd oluna bilər, buna görə də 15-30 dəqiqədən sonra onun yenidən yoxlanılması tövsiyə olunur. Qonağa istirahət etməyə imkan verilməli və binanın girişində uyğun yer təmin edilməlidir.

Hər kəs binaya dezobaryerdən keçməklə, termoskrininq və əl gigiyenasına əməl etdikdən sonra daxil olur. Şagirdlərdən başqa, binaya hər kəs maska ilə daxil olur.

Qonağın yüksək temperaturu qeyd olunduğu və ümumtəhsil müəssisəsinə buraxılmadığı halda, ona tövsiyə verilməlidir ki, ictimai nəqliyyatdan istifadə etməsin və ailə həkiminə və ya qızdırma mərkəzinə müraciət etsin.

Xüsusi mühitlərə görə, kənar şəxsin binaya girişinin zəruri olduğu halda, həmin şəxs maska, dəbilqə və ya başqa mühafizə vasitələri ilə təchiz edilməlidir, gəlişinin məqsədi və spesifikası nəzərə alınmaqla.

# İnfeksiyalara nəzarət tədbirləri

Tövsiyə edilir ki, müdiriyyət əməkdaşlar üçün infeksiyaların prevensiyası məsələləri üzrə (məsələn, əl gigiyenası, öskürmə və asqırma etiketi, maskadan istifadə qaydaları, infeksiyanın ötürülmə yolları) görüşlər keçirsin, preventiv metodları və mövcud tənzimləmələri tanış etsin. Qeyd edilən informasiya görüşlərinin ardıcıllığının təmin edilməsi vacibdir.

Yaxşı olardı ki, valideynlərlə, şagirdlərlə və başqa maraqlı şəxslərlə/cəlb olunmuş tərəflərlə görüşlər keçirilsin.

Qonaqların hamısı (şagirdlər də daxil olmaqla) ümumtəhsil müəssisəsinə (binaya) yalnız termoskrininq və əl gigiyenası prosedurlarını keçdikdən sonra daxil olurlar. Əl dezinfeksiyası üçün ayrılmış antiseptik vasitələr 70%-lik alkoqoldan ibarət olmalı və bunların dispenserləri ümumtəhsil müəssisəsinin binasının girişində yerləşdirilməlidirlər, ümumi istifadə məkanları yaxınlığında (izolyasiya otağı, bufet və s.), hər kəs üçün əlçatan olmalı və əllərin təmizlənməsi təlimatı müşayiət etməlidir.

Qəbul otağında və əməkdaşların toplaşdıqları yerlərdə COVID 19-la bağlı preventiv tədbirlər haqqında informasiya posterləri yerləşdirilməlidir, sanitar qovşaqlarında – əllərin yuyulması və antimikrob vasitələrin istifadəsi təlimatı. Binanın girişində mövcud dezobaryer yaxınlığında onun istifadəsi təlimatı da yerləşdirilməlidir. Posterlər hər kəs üçün, o cümlədən şagirdlər üçün maksimal olaraq anlaşılan və əlçatan olmalıdır.

Qeyd etmək lazımdır ki, əllərin antiseptik məhlulla təmizlənməsi əllərin sabunla yuyulmasının alternativi deyil. Əllər üçün antimikrob vasitələrdən əllərin müəyyən səbəbdən yuyulması mümkün olmadığı halda, istifadə olunur. Müvafiq olaraq əl-üz yuyulan çanaqlar/sanitar qovşaqları və antimikrob vasitələrin dispenserləri binadakı otaqlarda müvafiq şəkildə bölünməlidir.

Əllərin yuyulması üçün əlüzyuyan çanaq, axar suyun ardıcıl çatdırılması, duru sabun və birdəfəlik salfetlər təmin edilməlidir. Elektron quruducunun istifadəsi arzu edilmir və dəsmaldan istifadə etmək olmaz. Əlüzyuyanın yanına yapışdırılmalıdır: "əllərin yuyulması pillələri" (əyani vəsait).

Su/sanitar qovşaqların sulu təmizlənməsi üçün ümumtəhsil müəssisəsi protokol işləyib hazırlamalıdır və bunda da təmizliyin müddəti, istifadə olunan sanitar-gigiyena vasitələri, çanaqların, unitazların və sairələrin səthlərinin təmizlənmə qaydaları yazılmalıdır. Nəzərə çarpan çirklənmə hallarında, dərhal səthlər təmizlənməli, gündəlik təmizlənmə isə qrupların dəyişdiyi və ya tənəffüs vaxtında tövsiyə olunur. Nümunə şəklində Əlavə №1-ə baxın.

Xadimə iş prosesində fərdi mühafizənin növbəti vasitələrindən istifadə edir:
- dəfələrlə istifadə olunan əlcəklərdən;
- üz üçün dəbilqədən;
- sukeçirməyən birdəfəlik xalatdan;
- tibbi maskadan;
- bağlı ayaqqabılardan.

# Şagirdlərin və personalın izolyasiya ehtiyacı

Şagirdlərdə və personalda iş günü ərzində temperaturun yüksəlməsi müşahidə oluna bilər (37⁰ C və yuxarı), bu zaman onların xüsusi ayrılmış otaqda izolyasiyası gərəkdir. Şagirdlərin izolyasiyası zamanı psixi-sosial ehtiyacları nəzərə alınmalıdır.

İzolyasiya otağının mütləq təbii və ya süni ventilyasiya sistemi olmalıdır. Otaqda birdən çox sayda uşağın olduğu halda, onların arasında 1 metrlik fiziki məsafə saxlanılmalıdır, öskürmə və asqırma kimi simptomların müşahidə olunduğu halda, ayırıcı sədlərdən istifadə oluna bilər.

İzolyasiya otağında olmalıdır: kətil/kreslo/divan, əlüzyuyan, birdəfəlik salfetka, duru sabun və antimikrob əl vasitələri.

Temperaturu ölçmək üçün distant termometrlərdən istifadə olunur. Lazım gəldiyi halda, civə termometrindən istifadə oluna bilər, amma sonra onu mütləq dezinfeksiya vasitəsilə təmizləmək lazımdır.

Yüksək temperatur qeydə alınana qədər müəssisənin nümayəndəsi valideynlə əlaqə saxlamalı, şagirdin sağlamlıq vəziyyəti ilə bağlı məlumat verməli, şagirdi ümumtəhsil müəssisəsindən aparmağını xahiş etməli və növbəti addımlar haqqında məsləhət verməlidir, o cümlədən:
- Valideyn ailə həkiminə/qızdırma mərkəzinə müraciət etməlidir;
- Valideyn şagirdi apardığında ictimai nəqliyyatdan istifadə etməməlidir.

Müəssisə izolyasiya otağından şagirdi çıxardıqdan sonra ümumi tənzimləmələr əsasında hərəkət etməli və yaxşı olardı ki, valideyn və ya qanuni nümayəndə müəssisə binasına girmədən, şagirdi təhvil götürsün.

Təcili tibbi yardım briqadası yalnız şagirdin tibbi ehtiyaclarına (tibbi göstəricilərinə) görə çağırıla bilər. Onların binaya daxil olduğunda sədlər yaradılmamalıdır. Təcili yardımın çağırılması haqqında valideynin və ya qanuni nümayəndənin xəbərdar edilməsi vacibdir.

Şagirdi/şagirdləri izolyasiya otağında təkbaşına qoymaq olmaz. Şagird cavabdeh şəxsin nəzarəti altında olmalı və bunu da ümumtəhsil müəssisəsi təmin etməlidir. Cavabdeh şəxs (şagirdin həmin vəziyyətdə özünü rahat hiss edə biləcəyi şəxsin olması arzu olunur) növbəti fərdi müdafiə vasitələri ilə təchiz olunmalıdır:
- maska;
- müdafiə dəbilqəsi;
- birdəfəlik mayekeçirməyən xalat.

Unutmayın ki, şagirdlər arasında temperaturun artması fiziki fəallıq və emosional fona görə də müşahidə oluna bilər, buna görə də 15-30 dəqiqə ərzində onlara dincəlmək imkanını verin və sonra yenidən temperaturunu ölçün. Təkrar hərarəti ölçüldüyü halda, şagirddə 37⁰C və ya yüksək temperaturun müşahidə olunmadığı halda, onu tədris mühitinə qaytarmaq olar. Ümumtəhsil müəssisəsinin işçisində də oxşar hal baş verdikdə də analoji davranırıq.

Şagirdin izolyasiya otağına aparıldığı halda, nəzərə almaq lazımdır ki, sinif böyüyün nəzarəti xaricində qalmasın. Şagirdin sinifdən çıxarılması sakit vəziyyətdə baş verməlidir ki, heç bir şagirddə stres yaratmasın və təhsil prosesi davam etsin.

Ümumtəhsil müəssisəsi yüksək temperaturu ((37⁰ C və yuxarı) olan şagirdin və personalın kimliyini və onun sağlamlıq vəziyyəti haqqında informasiyanın məxfiliyini qoruyub saxlamalıdır. Ümumtəhsil müəssisəsi başqa uşaqların valideynlərinə/qanuni nümayəndələrinə qrupda mövcud ehtimal hal haqqında məlumat

verməli deyil. Ümumtəhsil müəssisəsi əvvəlcədən məxfiliyə əməl etməli və protokolların başqa bəndləri haqqında uşağın valideynlərinin və ya qanuni nümayəndəsinin məlumatlandırılmasını təmin etməlidir.

Gündəlik iştirakla dərs prosesi respirator xəstəlik simptomlarına malik şagirdin və ya personalın COVID 19 diaqnozu laboratoriya tərəfindən təsdiq edilməyənə qədər davam edir, bundan sonra isə dərs prosesinin davam etməsi haqqında qərar epidemioloji qrupun nəticə və tövsiyələri əsasında qəbul edilir.

İzolyasiya otağında şagirdə yönəlmiş, mühafizə olunan və təhlükəsiz, stres yaratmayan fiziki və sosial mühit yaradılmalıdır (Baxın: „COVID 19-un səbəb olduğu pandemiya şərtlərində firavanlıq" fəslində verilən tövsiyələrlə tanış ola bilərsiniz).

İzolyasiya otağı sulu qayda ilə təmizlənməli və boşalan kimi dezinfeksiya edilməlidir (Baxın, Əlavə 1. Təmizlik protokolunun nümunəsi. Əlavələrin hamısı sənədin sonunda müvafiq nömrələr və göstərişlərlə təqdim olunur).

## Ümumi tövsiyələr:

- Ümumtəhsil müəssisəsində əməkdaşlar 1 metrlik məsafəyə əməl etməlidirlər, o cümlədən, ümumi istifadənin bufet və ya istirahət otağı kimi yerlərində;
- Ümumi istifadə məkanlarında (həyət, zal, bufet və s.) fəallıqlar əvvəlcədən müəyyən edilmiş cədvələ uyğun olaraq həyata keçirilməlidir ki, bir məkanda şagirdlərin və işçilərin sayı maksimal şəkildə az olsun. Elə olmalıdır ki, yetkinlər arasında bir metrlik fiziki məsafə prinsiplərinə əməl edilsin. Sözügedən məsələlər tənzimləyici tərəfindən çatdırılan tövsiyələrə uyğun olaraq həyata keçirilməlidir (yeni koronavirusun (SARS-CoV-2) səbəb olduğu infeksiya (COVID-19) ilə bağlı ümumtəhsil müəssisələri üçün ümumi tövsiyələr. Əlavə №37).

Səhiyyə Nazirliyi tərəfindən işlənib hazırlanmış tənzimləmələri nəzərə aldıqda, məktəb icmasının cəlb olunması və yeni tənzimləmələr və dəyişikliklər haqqında məlumatlandırılması çox vacibdir. Bundan irəli gələrək:

- Məktəb yeni tənzimləmələr və dəyişikliklər haqqında şagirdlərin, müəllimlərin, valideynlərin və məktəblə bağlı başqa şəxslərin məlumatlandırılmasını təmin etməlidir. Prosesin effektiv aparılması üçün məktəbdə hədəf qrupları müəyyənləşdirilməlidir və bunlar da həm ümumi, eləcə də konkret bu qruplar üçün nəzərdə tutulmuş məlumatı çatdırmalıdırlar (məsələn, ibtidai sinif şagirdlərinin valideynləri, orta pillənin şagirdləri və s.);
- Hədəf qrupları üçün onlara məlumatın çatdırılması üzrə cavabdeh şəxslər və onların koordinatorları təyin edilməlidir və bu da prosesin planlaşdırılmasında, nəzarətdə və dəstəkdə məsuliyyət daşıyacaqdır. Kiçik kontingentli məktəblərdə informasiyanın yayılması prosesində koordinator direktor və ya direktorun müavini ola bilər. Böyük məktəblərdə bir neçə koordinator ola bilər və bunlar da direktor qarşısında hesabat verməlidirlər;
- Hədəf qrupları üçün informasiyanın çatdırılması prosesinə eyni qrupun aktiv nümayəndələrinin cəlb olunması effektiv olacaqdır (məsələn, şagirdlərin özünüidarəetmələrinin, valideynlərin və s.);
- Məktəb informasiyanın effektiv yayımlandırılması üçün şəxsi spesifikasından irəli gələrək, informasiyanın çatdırılmasının bir və ya bir neçə mənbəyini müəyyən etməlidir (elektron poçt, distant görüş üçün əlverişli platforma və s.);
- İnformasiyanın yayımlandırıldığı zaman onun yayımlanmasına cavabdeh şəxs əmin olmalıdır ki, onun hədəf qrupunun hər bir üzvü çatdırılan məlumatla tanış olsun (informasiyanın qəbulu və tanışlığı elektron poçtla təsdiqlənir, görüşlər qeydə alınır və s.);
- İnformasiyanın yayımlandırıldığından sonra dəyişikliklərin tətbiqi fəallıqları planlaşdırılmalıdır. Yeni tənzimləmələrin tətbiqi üçün müvafiq həvəsləndirmələrin və intizam məsələlərinin birliyi işlənib hazırlana

bilər ki, bunların barəsində də məktəb icması əvvəlcədən məlumatlandırılmalıdır. Vacibdir ki, üstünlük cəzalandırma təcrübəsinə deyil, daha çox həvəsləndirilmə və motivləşdirmə strategiyalarına verilsin (məsələn, mövcud tənzimləmələrə daha yaxşı riayət edən siniflər ayırd edildilər və mükafatlandırıldılar və s.);

- Əlavə suallara cavab almaq üçün məktəb icmasının hər bir üzvü məlumatın verilməsi üzrə cavabdeh şəxsin əlaqə məlumatını bilməlidir.

# ÜMUMTƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ ŞAGİRDİN HÜQUQLARININ MÜDAFİƏSİ

## Məktəblərdə şagirdin hüquqlarının müdafiəsinə yönəlmiş yanaşma

Qarşıdakı fəsildə şagirdlərlə işləyən hər kəs üçün nəzərə alınması vacib olan şagirdin hüquqları, gündəlik təcrübədə tətbiqi zəruri olan əsas prinsipləri nəzərdən keçirilir. Buradaca COVID-19 pandemiyası dövründə şagird hüquqlarının qorunması istiqamətində ümumtəhsil müəssisəsinin rolu təhlil edilir.

COVID-19 pandemiyası şərtlərində şagirdin hüquqlarının müdafiəsi yeni çağırışlarla qarşılaşır – bu, şagirdin sağlamlığı və şəxsi məlumatlarının mühafizəsi, kibertəhlükəsizliyin təmin edilməsi və təhsil hüququnun gerçəkləşdirilməsi istiqamətində əlavə tədbirlərin görülməsini zəruri etmişdir. Məhz bu səbəbdən COVID 19 pandemiyası şərtlərində ümumi təhsilin verilməsi şagirdin hüquqlarının qorunması perspektivinə əsaslanmalıdır.

Şagirdin hüquqları dörd əsas kateqoriyaya bölünürlər: həyat, inkişaf, müdafiə və iştirak. Yaşamaq hüququ şagirdin lazımi səviyyəli tibbi xidmət, su və gigiyena müdafiə vasitələri ilə təmin edilməsi deməkdir. Müdafiə hər bir şagirdin hər hansı növ ayrı-seçkilikdən və istismardan qorunmasını nəzərdə tutur, o cümlədən hər hansı bir mühitdə, məsələn, məktəblərdə şagirdlərin təhlükəsizliyinin qorunması nəzərdə tutulur. Məktəbin müdiriyyəti COVID 19 pandemiya şərtlərində şagirdlərin təhlükəsizliyini qorumaq üçün öz resurslarından maksimal şəkildə istifadə etməlidir. Şagirdlərin onlara təsir göstərən və ya onlara aid olan hadisələr haqqında məlumat almaq hüquqları var. Bununla yanaşı, öz fikirlərini bildirə bilərlər ki, qərar qəbul edildiyi zaman böyüklər tərəfindən bu fikir qəbul edilsin. Məsələn, şagirdlərin niyə yeni qaydalara riayət etməli olduqları, COVID-19-un nə olduğu suallarını verdikləri halda, bu suallara onların yaşına uyğun bir şəkildə cavab verilməlidir. Dördüncü kateqoriyaya gəldikdə, (şagirdin inkişaf hüququ) demək olar ki, bütün digər hüquqlara aiddir və şagird üçün keyfiyyətli ümumi təhsilin çatdırılmasını və öz imkanlarını tam aşkar etmək üçün uyğun şərtlərin yaradılmasını əhatə edir.

**Şagirdin hüquqlarının müdafiəsi istiqamətində məktəbin rolu**

Şagirdin hüquqlarını qorumaq şagirdin bütün hadisələrin mərkəzində durduğunu nəzərdə tutur. Məktəblərin qeyd edilən öhdəlikləri COVID 19 pandemiya şərtlərində daha da aktuallaşdı, çünki bu zaman şagirdlər üçün ümumi təhsilin çatdırılması və bu prosesdə onların sağlamlıq hüququnun müdafiəsi istiqamətində əlavə problemlər yarandı.

> Məktəblər ictimai səhiyyə böhranı şərtlərində təhlükəsiz mühit yaratmalıdırlar ki, imkan daxilində COVID 19-un yayılmasının qarşısı alınsın. Məsələn, ictimai səhiyyə məsələlərini tənzimləyən bütün tövsiyələri nəzərə almalı və şagirdlər üçün təhlükəsiz fiziki və sosial mühit yaratmalıdırlar.
>
> Əgər pandemiya üzündən distant xidmət zərurəti yaranarsa, məktəb bu xidmətin keyfiyyətini təmin etməli və çalışmalıdırlar ki, distant xidmətə maksimal sayda şagirdlərin əli çatsın.

İctimai böhran şərtlərində başqa hüquqlarla yanaşı keyfiyyətli fərdi ehtiyaclara uyğunlaşdırılmış ümumi təhsilin alınmasını nəzərdə tutan şagirdin inkişafı hüququ yeni çətinliklərin qarşısında durdu. Təhsil prosesinin distant forması şagirdlər üçün ev şərtlərində müvafiq mühitin yaradılması zərurətini tələb edir. Distant təh-

silin alınması üçün şagirdə yönəlmiş mühit yaradılmalı, gündəlik işlər təmin edilməli, yatmaq, qidalanmaq, məşğələlər və həyət fəallıqları üçün ardıcıl cədvələ əməl edilməlidir.

> Müntəzəm və ardıcıl cədvəl şagirdlərə yardım edir ki, yuxularını yaxşılaşdırsınlar. Lazımi strukturlaşdırma sabitliyi təmin edir, şagirdlərin davranışı və sonda onların sağlamlıqları yaxşılaşır.
>
> Əvvəlcədən müəyyən edilmiş və sabit mühit şagirdin distant ümumi təhsil alması prosesinə effektiv cəlb olunması üçün önəmli ilkin şərtlərdən biridir. Tövsiyə edilir ki, onlayn qoşulmalar bir konkret, əvvəlcədən müəyyən edilmiş yerdən həyata keçirilsin, hansında şagirdə sakitcə, əlavə kənar müdaxilələr xaricində onlayn fəallıqlarda iştirak etmək imkanı veriləcəkdir.

Şagirdə yönəlmiş mühitin yaradılması xüsusilə də izolyasiya otağına şagirdin keçirildiyi halda önəmlidir. Bu zaman tam proses şagird üçün stresin maksimal azaldılmasına əsaslanmalıdır. Bunun üçün həm izolyasiya otağının fiziki mühiti, eləcə də şagirdlə kommunikasiya, onun üçün təhlükəsiz mühitin yaradılması vacibdir.

Ümumi təhsilin çatdırıldığı zaman mütləq şagirdlərin fərdi ehtiyaclarını və mühitin maksimal inklüziv olmasını nəzərə almaq lazımdır. Bu tələbat həm əyani, eləcə də distant formalı təhsil prosesinə aiddir. Məsələn, mədud imkanlı şagirdlərin halında əlavə insan və maliyyə resursu ayrılmalıdır ki, onlar üçün başqa uşaqlar kimi məktəbəqədər təhsil almaq mümkün olsun.

> Unutmamalıyıq ki, məhdud imkanlı uşaq üçün diskriminasiya yalnız təhsil almağa imtina etmək deyil, eləcə də ona təhsil almaq üçün lazımi şərtləri yaratmamaqdır.

## Sağlamlıq hüququnun müdafiəsi

Şagirdə aid olan istənilən hərəkəti həyata keçirdikdə, əsas diqqət şagirdin ən yaxşı marağının müdafiəsinə verilir. Baxmayaraq ki, şagirdlərin əsasən ümumi universal ehtiyacları var, qeyd edilən ehtiyacların ifadə edilməsi personal, fiziki, sosial və mədəni aspektlərdən, o cümlədən onların inkişafı imkanlarından asılıdır.

Buna görə də şagirdlərin hər biri onun fıravanlığı üçün lazım olan müdafiə və qayğı ilə təmin olunmalıdırlar.

Şagirdin ən yaxşı marağı haqqında söhbət zamanı həm şagirdin, eləcə də şagirdlərin, qrupun fərdi ən yaxşı maraqları nəzərə alınmalıdır. Konkret şagirdin ən yaxşı marağı onu nəzərdə tutur ki, şagirdə qayğı, onun sağlamlığı və təhsil hüququnun müdafiəsi ilə bağlı hər hansı bir qərar onun ən yaxşı marağına, o cümlədən, valideynin və başqa peşəkarların qərarlarına istinad etməlidir. Bu halda ümumi təhsili çatdıran müəssisə hər hansı bir qərarı elə qəbul etməlidir ki, şagirdin həm fərdi, eləcə də ən yaxşı marağı nəzərə alınsın, qiymətləndirilsin ki, bu qərarlar həm bir şagirdə, eləcə də bütövlükdə ümumtəhsil müəssisəsində olan şagirdlərə necə təsir göstərəcəkdir.

Şagirdin sağlamlıq hüququnun müdafiəsi şagirdin ən yaxşı marağının qiymətləndirilməsinin ən mərkəzi məsələsini təqdim edir. Sağlamlıq hüququnda həm şagirdin fiziki, eləcə də psixiki sağlamlığı nəzərdə tutulur. Sağlamlıq hüququnun müdafiəsi zamanı həmin risklər və yan hallar nəzərə alınmalıdır və bu da həm bir konkret şagirdin sağlamlığına, eləcə də şagirdlər qrupuna ziyan vura bilər.

COVID-19 pandemiya şərtlərində ümumtəhsil müəssisəsinin hər hansı bir qərarı məhz şagirdin ən yaxşı marağının müdafiəsinə, onun sağlamlığının müdafiə ehtiyaclarının nəzərə alınmasına və virusun yayılmasının qarşısının alınmasına istinad etməlidir.

İctimai səhiyyə böhranı şərtlərində, təhsil prosesinin distant forma ilə çatdırılması ehtiyacı ilə birlikdə, şagirdlərin sağlamlıq hüququnun müdafiəsi istiqamətində yeni çağırışlar baş qaldırdı. Özəlliklə də, şagirdlərin və yeniyetmələrin inkişafı və təhsil hüququnun müdafiəsi istiqamətində kompüter və tele-təhsil proqramlarının istifadəsi daha aktual oldu. Doğrudur, informasiya mübadiləsinin qeyd edilən vasitələri şagirdə müxtəlif vərdiş-bacarıqların formalaşmasında yardım edir, amma kompüter və televizor ekranı arxasında çoxlu vaxtın keçirilməsinin şagirdin emosional inkişafı, fiziki və psixiki sağlamlığı cəhətindən (məsələn, görmə problemləri, davranış pozuntuları,yuxusuzluq, çəkidə artım və s.) öz mənfi təsiri var. Məhz bunun üçün də şagirdlər tərəfindən kompüterin istifadəsinə və televizor ekranı arxasında vaxtın keçirilməsinin tənzimlənməsinə xüsusi diqqət verilməlidir. Sözügedən məsələ COVID-19 pandemiya şərtlərində daha çox əhəmiyyət kəsb etməyə başlayır, çünki şagirdlər distant tədris forması ilə ümumi təhsil alır və müəllimlərlə əlaqə saxlayırlar.

Vacibdir ki, elektron sinxron forma ilə distant tədris zamanı ibtidai siniflərdə dərslərin müddəti 15-20 dəqiqədən çox olmasın, baza pilləsində – 25-30 dəqiqə, orta pillədə isə – 35-40 dəqiqə. Dərslərin arasında 10-15 dəqiqəlik tənəffüs olmalıdır və bu zaman şagirdlər ekran arxasında oturmamalıdırlar. Tövsiyə edilir ki, dərslər müxtəlif interaktiv metodun istifadəsini əhatə etsinlər. Ara-sıra gözləri idman etdirmək olar, məsələn, ekrandan gözünü uzaq məsafədə yerləşən əşyaya yönəltmək, 5-6 dəfə gözləri qırpmaq.

Yaxşı olardı ki, 11 yaşına qədər şagirdlərin valideynləri distant dərslər zamanı passiv iştirakçı şəxslər rolunda olsunlar. Bu, şagirdlərə yardım edəcəkdir ki, diqqətlərini dərsin məzmununa daha çox yönəltsinlər. Ekran arxasında iş prosesində otaq yaxşı işıqlandırılmalı və şagird masa arxasında oturmalıdır.

## Şagirdin fərdi məlumatlarının müdafiəsi və təhlükəsizlik

Hər kəsin şəxsi həyatına toxunulmazlıq hüququ var, o cümlədən şagirdlərin də. Məktəb uşağın burada gününün çox hissəsini keçirdiyi və onun haqqında çoxlu məlumatların saxlanıldığı bir yerdir. Məktəb şagirdin fərdi məlumatlarını qoruyub saxlamalı və şagirdin ən yaxşı maraqlarından irəli gələrək hərəkət etməlidir. Bu da hər bir halda başqa şəxslərin/təşkilatların maraqlarından öncə şagirdin maraqlarının qoyulmasıdır. Eyni zamanda, şagirdin ən yaxşı marağının qiymətləndirilməsi hər bir konkret halda fərdi baş verməli və növbəti mühitlər nəzərə alınmalıdır: şagirdin nəzərləri və canatmaları, yaşı, şəxsi tarixçəsi, təhlükəsizlik marağı, ailə vəziyyəti, firavanlıq, həmyaşıdlarla və böyüklərlə ünsiyyət və s.

COVID19 pandemiya şərtlərində şagirdlər üçün məktəbəqədər təhsilin çatdırılması məqsədilə gündəliyə onlayn platformaların tətbiqi ehtiyacı düşdü və bu da şagirdlərin fərdi məlumatları və təhlükəsizliyin müdafiəsi ilə bağlı əlavə problemlər yaratdı.

Məlumatlar subyekti kimi şagirdin hüququ var ki, onun fərdi məlumatları üzərində qanuni şəkildə, ədalətlə və dəyəri alçaldılmadan işlənilsin. Onun haqqı var ki, onun barəsində kimin və hansı məqsədlər və əsaslarla hansı növdə məlumatları işləməsini bilsin.

### *Fərdi məlumatlar nədir?*

Fərdi məlumatlar hər hansı bir növdə məlumatdır və bununla da şagirdin eyniləşdirilməsi mümkün olur (Məsələn, adı, soyadı, şəxsi nömrəsi, foto- və video yazısı, sosial şəbəkə hesabı, şəxsi yazışma, hansı məktəbdə və sinifdə oxuduğu, onun maraqları, sağlamlıq vəziyyəti və s. haqqında məlumat).

## Xüsusi kateqoriyanın fərdi məlumatları nədir?

Xüsusi kateqoriyalı məlumatlar da vardır. Bu onu bildirir ki, onların mühafizəsi üçün xüsusi yüksək standart təsis edilir, çünki belə bir məlumatların sızdığı halda, şagird üçün vurulan ziyanın həcmi daha çoxdur. Bu kateqoriyaya şagirdin irqi və ya etnik mənsubiyyəti, sağlamlıq vəziyyəti, inzibati məhbusluqla, həbsetmə tədbirinin şamil edilməsi, prosesual anlaşmanın bağlanılması, kənarlaşdırma, cinayət qurbanı kimi tanınma, zərərçəkmiş kimi və s. ilə bağlı məlumat aiddir.

## Şagirdin sağlamlıq vəziyyəti haqqında məlumatı necə qorumalıyıq?

Sağlamlıq bizlərdən hər birimiz üçün xüsusi dəyərdir, onun haqqında məlumat isə xüsusi kateqoriyalı məlumatlara aid edilir. Buna səbəb odur ki, səhhət haqqında məlumatlar (o cümlədən, diaqnoz, xəstəlik tarixi, resept və ya müalicə planı) çox həcmli və şəxsi həyatları haqqında həssas məlumatdan ibarət ola bilər, onların sızması isə ciddi ziyana səbəb ola bilər. Yalnız lazımi razılıq əsasında bu məlumatın üçüncü şəxsə ötürülməsi mümkündür, amma bu, yazılı şəkildə ifadə edilməlidir.

İctimai səhiyyə böhranı zamanı fərdi məlumatların üzərində iş daha çox problem yaradır. Hər kəsin virusun yayılması təhlükələri və başqa preventiv tədbirlər haqqında məlumat almağa hüququ var. Amma hər bir insanın hüquqlarının, o cümlədən fərdi məlumatların mühafizəsi daha önəmlidir. Məhz bunun üçün də məktəbdə şagirdin yüksək temperaturu ($37^0$ C və yüksək) müşahidə olunarsa, məxfiliyi qoruyub saxlamalı və bu məlumatı büruzə verməməliyik.

Unutmamalıyıq ki, şagirdin adını və soyadını adlandırmaq vacib deyil, kifayət edir ki, şəxsin eyniləşdirmə imkanını verən məlumat verilsin.

## Distant tədris zamanı şagirdin fərdi məlumatlarını necə mühafizə edək?

COVID19 pandemiya dövründə məktəblər distant tədrisə keçdilər. Onlayn tədris proseslərinə paralel olaraq sosial şəbəkələrdə onlayn görüşləri əks etdirən foto- və videomaterial yayımlandırılır.

Onlayn tədrisi əks etdirən material (foto, video təsvir) şagirdin fərdi göstəricilərini təqdim edir və onları ictimailəşdirdikdə, bunu nəzərə almaq lazımdır, çünki şagirdin məlumatlarının internetdə hər kəs üçün əlçatan forma ilə ictimailəşdirilməsi ona xoşagəlməz təsir göstərə bilər (bullinq və ya başqa xoşagəlməz yanaşma obyekti ola bilər).

Müvafiq olaraq, məktəblər, bu müəssisələrdə işlə təmin olunan şəxslər, eləcə də valideynlər və ailə üzvləri şagirdlərin məlumatlarının ictimailəşdirilməsinə daha məsuliyyətlə yanaşmalı və uşağın ən yaxşı maraqlarını nəzərə almaqla davranmalıdırlar.

## Şagirdin fərdi məlumatlarının mühafizəsi istiqamətində məktəbin hansı öhdəlikləri var?

- şagirdin fərdi məlumatları barədə informasiyanı digər şəxslərə açıqlamamalıdır;
- yanlış məlumatlar üzərində düzəliş aparmalı və əsassız toplanan məlumatları məhv etməlidir. Məsələn, sosial şəbəkədəki foto və video materialı;

- valideynin tələbi ilə şagirdin şəxsi məlumatlarını əhatə edən informasiyanı silməlidir. Məsələn, bir valideyn məktəbin internet saytında / sosial şəbəkədə övladının şəklinin yerləşdirilməsinə icazə verdiyində və sonra fikrini dəyişdiyində, sözügedən fotoşəklin heç bir izahat verilmədən silinməsini tələb etmək hüququna malikdir;
- şagirdin şəxsi məlumatlarının təhlükəsizliyini qorumalıdır;
- Binaya gələnlərin giriş-çıxışına nəzarət etməli, eləcə də onların adlarını və soyadlarını qeydə almalı, şəxsiyyəti təsdiq edən sənədin nömrəsini və növünü, ünvanı, giriş və çıxış tarixlərini və vaxtını, həmçinin binaya giriş və çıxış səbəblərini qeyd etməlidir.

### *İnternetdən istifadə edərkən şagirdin təhlükəsizliyini necə təmin etməliyik?*

İnternet məkanın istifadəsinin öz müsbət tərəflərinin olmasına baxmayaraq, şagirdlər üçün bir çox təhlükələrdən də ibarətdir (məsələn, virusun köçürülməsi, mənasız məzmunlu materiala baxış, fərdi informasiyanın ötürülməsi, cinsi zorakılıq/sıxışdırma, kiberbullinq və s.). İnternet məkanda məlumatsızlıq və düşünülməmiş əməl şagirdin şəxsi həyatının toxunulmazlığı üçün təhlükə yarada bilər. Onlayn tədris zamanı şagirdlər onlayn məkanda daha çox vaxt keçirirlər və müvafiq olaraq, kibertəhlükəsizliyin əhəmiyyəti də artır. Bunun üçün də internetdən təhlükəsiz istifadə haqqında şagirdlərin məlumatlandırılması çox vacibdir.

- Şagirdlərə fərdi məlumatların nə olduğunu başa salın və deyin ki, evin ünvanı, telefon nömrəsi, parol və s. kimi məlumatları internetə yerləşdirməməlidirlər;
- onlara izah edin ki, şəbəkədə yad insanlarla ünsiyyət təhlükəlidir (yad insan yalan danışa və real yaşını, kimliyini gizlədə bilər);
- şagirdə izah edin ki, sizin razılığınız və nəzarətiniz olmadan internet məkandan kənarda yad insanlarla görüşmək olmaz;
- şagirdləri inandırın ki, kənar şəxslərdən aldıqları elektron məktubları və linkləri açmasınlar, çünki bunlar virusdan ibarət ola bilərlər;
- şagirdləri xəbərdar edin ki, başqasının elektron avadanlığından istifadə etdikdə, istifadəçinin/parolun yadda saxlama sətrini işarə etməsinlər (remember me/remember password) və istifadə etdikdən sonra proqramdan şəbəkədən dərhal çıxsınlar (log out).

COVID 19 pandemiya dövründə şagirdlər onlayn məkanda daha çox vaxt keçirirlər və bu da kiberbullinqin yayılması riskini daha da artıra bilər. Bullinq bir şagirdin və ya şagirdlər qrupunun başqa şagirdə yürütdüyü xoşagəlməz, aqressiv davranış formasıdır. O, fiziki, psixoloji və sosial cəhətdən ziyanverici təkrar davranışları əhatə edir. Kiberbullinqi sosial bullinq formasında da nəzərdən keçirə bilərik ki, bu da internetdən istifadə etməklə ziyanverici mətnlərin və ya fotoşəkillərin yerləşdirilməsini əhatə edir. Müvafiq olaraq, şagirdlərin sosial şəbəkədə davranışlarına daha çox diqqət verilməlidir ki, şagirdlərin bir-birinə qarşı xoşagəlməz, aqressiv davranışı nəzərdən qaçmasın.

## Şagirdin məlumatlandırılması və qərarın qəbulu prosesinə cəlb olunması

Şagirdlərin fikrini dinləmək və onlara aid qərarın qəbulu prosesinə cəlb olunmaları şagird hüquqlarının başlıca prinsiplərindən biridir. Bu prinsip hər hansı bir hüquqla faydalandıqda, xüsusilə də sağlamlıq və təhsil hüququnu müdafiə edən zaman nəzərə alınmalıdır. Eləcə də şagirdin fikrinin dinlənilməsi informasiyanın ona aydın forma ilə çatdırılmasını nəzərdə tutur.

## Şagirdə öz fikrini bildirmək üçün dəstəyi necə vermək olar?

- Hər zaman göstərməliyik ki, onun fikri bizi maraqlandırır və diqqətlə dinləməliyik;
- Özünü rahat hiss etdiyi və ya olmaq istədiyi bir mühit yaratmalıyıq;
- Şagirddən öz fikrini qeyd etməyi xahiş edənə qədər, ona izah etməliyik ki, bu məlumatı nə üçün soruşuruq və bizə nə üçün lazımdır
- Söhbət zamanı hər zaman hiss etdirməliyik ki, ona hörmət edirik.

Unutmamalıyıq ki, uşaqlardan bəzilərinin (məsələn, xüsusi ehtiyacı olan uşağın) verbal kommunikasiya zamanı, yəni sözlərlə, öz nəzərlərini ifadə etmək tərəfindən çətinlikləri ola bilər və üstünlüyü başqa, alternativ formalara verə bilər. (Məsələn, oyuna, bədənin hərəkətinə, rəssamlığa və yonmağa).

Şagirdlərin məlumatlandırılması və onun fikrinin dinlənilməsi hüququ COVID 19 pandemiya şərtlərində əlavə əhəmiyyət kəsb etdi. Onlar sağlamlıqları və firavanlıqları ilə bağlı məsələlərin həllinə cəlb olunmalıdırlar (Məsələn, onlarda məlumat olmalıdır ki, hansı növ müalicə keçiriləcək, onun hansı effektləri və nəticələri olacaqdır).

Məktəb yaşlı şagirdlərin daha çox sualları var. Sizin açıqlamanız sadə və faktlara əsaslanmış olmalıdır.
- sakit, rahat tondan istifadə edin, onların qorxularını dinləyin, suallara uydurulmuş əhvalatlarla deyil, faktlarla cavab verin;
- onların hislərini və həyəcanlarını başa düşdüyünüzü göstərin;
- qeyd edin ki, onlara qayğı göstərən insanlar, onların təhlükəsizliyinə də qayğı göstərəcəklər;
- onların ideyaları və bacarıqları ilə maraqlanın;
- onları həssas mövzularla tanış etməyə başlayın, məsələn, acıqlanma, zorakılıq, məhdud imkanlar; pandemiya mövzularına xüsusi diqqət yetirin;
- yaxşılıq və qayğı kimi prososial fəallıqları modelləşdirin;
- şagirdə yönəlmiş hekayələri və qəhrəmanları təklif edin.

I-VI sinfin halında, şagirdlərin suallarına cavab sadə olmalı və faktlara istinad etməlidir. Aşağıda verilən cavablardan istifadə edə bilərsiniz ki, onlara (yaş: 6-11 yaş) COVID-19 pandemiyası ilə bağlı mövzular üzrə məlumatı sadə və aydın formada çatdırasınız:

## Koronavirus nədir?

Koronavirus yeni tipdə bir mikrobdur və bütün dünyada yayılmışdır. Virusun keçdiyi halda, insanda soyuqdəymə simptomları əmələ gəlir. Virusa yoluxan insanlarda öskürək, asqırma müşahidə olunur, yüksək hərarət və təngnəfəslik də ola bilər. Asqıran və öskürən zaman virus havada yayılır və başqa insanları yoluxdurur.

## Mən xəstələnə bilərəmmi?

İnsanların hamısı bəzən xəstələnirlər, amma şagirdlərin əksəriyyəti koronavirus xəstəliyinə çox yoluxmurlar. Xəstələndiyin halda, elə bir hissin yaranacaqdır ki, sanki soyuqlamısan. Bu zaman çox ehtiyatlı olmalısan ki, başqa insanları qoruya biləsən. Sağlam qida və maye, çoxlu yatmaq tez sağalmaqda kömək edəcəkdir.

### *Nə üçün babamı və nənəmi görə bilmirəm?*

Yaşlı insanlarda başqa xəstəliklər də olur və buna görə də onlar daha çox xəstələnə bilərlər. Buna görə də hər şey etməliyik ki, onların sağlamlığı üçün heç bir təhlükə yaranmasın.

### *İnsanlar nə üçün maska taxırlar?*

Maska virusun yayılmasını dayandırır. Ona hava daxil olur və çıxır, amma mikroblar daxil ola bilmirlər. Maska taxmaq asan deyil, amma vurusun yayılmasını dayandırmaq üçün bir vasitədir.

12-18 yaşında şagirdlərin (VII-XII sinif) halında aşağıda təqdim edilən cavablardan istifadə edə bilərsiniz ki, onlara COVID-19 pandemiyası ilə bağlı mövzular üzrə məlumatı sadə və aydın formada çatdırasınız:

### *Koronavirus nədir?*

2019-cu ilin sonunda yeni növdə koronavirus yarandı və bu da qripin simptomları ilə xarakterizə edilir. Xəstəlik koronavirus-19 adlanır. Xəstəlik koronaviruslar ailəsindəndir və onun taca bənzər forması var. Koronavirus öskürəyə, tənəffüsün çətinləşməsinə, asqırığa səbəb ola bilər. Simptomlar elədir k, sanki insan soyuqlamışdır və ya qripi var. Xəstəlik insanın ümumiyyətlə sağlamlığı ilə bağlı problemlərinin olduğu halda, çətin keçir. Amma bir çox insanlar, xüsusilə də şagirdlər, ola bilsin ki, ümumiyyətlə xəstəliyi hiss etməsinlər və ya çox yüngül simptomları ola bilər.

### *İnsanlar koronavirusa necə yoluxurlar?*

Koronavirus insandan insana keçir. Sənə virus başqa insanın öskürdüyü, danışdığı və ya asqırdığı zaman, havadan düşə bilər. Eləcə də virus olan səthə toxunmaqla və sonra ağzına, burnuna və ya gözlərinə toxunmaqla virusa yoluxmaq olar.

### *Yoluxmadan necə qorunaq?*

Biz başqa insanlarla məsafə saxlasaq, əllərimizi tez-tez yusaq, ağzımıza, burnumuza və gözlərimizə əlimizlə toxunmasaq, özümüzü və başqalarını müdafiə edə bilərik. Bəzi insanlar xəstəliyə yoluxa bilərlər, amma simptomları olmaya da bilər. Buna baxmayaraq, onlar başqalarına da virus ötürə bilərlər.

## Şagirdin zorakılıqdan qorunması

Şagirdin inkişafı, fiziki və psixiki firavanlığı üçün təhlükə yaradan hər hansı bir əməl, tərbiyənin zorakılıq forması şagird üzərində zorakılıq kimi başa düşülür. Zorakılıq şagirdin hüquqlarının pozulmasını nəzərdə tutur. Bu zaman fərq etməz ki, bu hərəkət qəsdən və və ya qəsdsiz həyata keçirilir. Nəticədə şagirdə zorakılıqla zərərverici təsir göstərilir.

İctimai sağlamlığın böhranı zamanı başqa problemlərlə yanaşı şagird üzərində zorakılıq riski də artır və bu da oxşar böhranların nəticəsində yaranmış sosial, iqtisadi və emosional problemlərlə birbaşa əlaqədədir.

Müvafiq olaraq, şagirdə himayədarlıq göstərən şəxslər tərəfindən zorakılıq əlamətlərinin aşkar edildiyinə və lazımi məsul orqanlar üçün oxşar halların xəbərdar edilməsinə xüsusi diqqət verilir.

Zorakılıq əlamətlərinin müşahidəsi və tanınması həm məktəbdə iştirak, eləcə distant tədris zamanı həyata keçirilməlidir. Distant ümumi təhsilin həyata keçirildiyi halda, müəllimlər diqqəti zorakılığın elə bir əlamətlərinə yönəltməlidirlər ki, bunları vizual görmək və dinləməklə başa düşmək mümkündür. Məsələn, müəllimin iştirakı ilə valideyn şagirdin üzərində psixiki zorakılıq göstərir, ona qışqırır, silkələyir, çimdikləyir, fiziki cəzalandırma ilə təhqir edir, vurur və s.

# MƏKTƏBLƏRDƏ TƏDRİS PROSESİNİN TƏŞKİLİ

Dünya miqyası ilə distant tədrisin hibrid modelinə keçid pandemiyadan da öncə mərhələlərlə başlanılmışdı. Müvafiq olaraq, qeyd edilən model yeniliyi təqdim etmirdi. Bu halda məktəb sisteminin uyğunlaşması üçün zaman amili çətinlik yaratdı. Bunun əvəzinə distant təhsil sistemli hazırlığı və buna mərhələlərlə keçidi tələb edir.

Məlumdur ki, 2019-2020-ci dərs ilinin ikinci semestri Gürcüstanda şagirdlərin cəlb olunması və distant tədrisin aşağı keyfiyyəti kimi mühüm nöqsanlarla keçdi. Bu mühitlər şagirdlərə müxtəlif növdə problemlər yaratdı, həm təlim-tədris, eləcə də psixoloji və sosial-emosional nöqteyi-nəzərdən. Şagirdlərin adi dərs rejiminə tamdəyərli cəlb oluna bilmələri üçün dərs prosesini effektiv şəkildə planlaşdırmaq lazımdır (tədrisin təşkilinin müxtəlif variantları ilə Əlavə №2-də tanış ola bilərsiniz).

Bundan irəli gələrək, hazırlıq mərhələsində məktəblər həm texniki məsələləri (dərs prosesinin təşkili məsələləri kimi), eləcə də məzmun tematikasını – məktəbin dərs planını, tədris yanaşmalarını, qiymətləndirməni və s. nəzərə almalıdırlar.

İlk növbədə, məktəb dərs ilinin başlanmasına qədər tədrisin keçirilmə formasını müəyyən etməlidir. Bu halda əsas sual ondan ibarətdir ki, məktəb distant tədris imkanından istifadə edəcəkdirmi. Hər hansı bir halda, standart məsələlərlə yanaşı, təhlükəsizlik normalarına əməl edilməsi üçün mövcud tənzimləmələr nəzərə alınmalıdır; məsələn: dərslərin cədvəlini tərtib etdikdə, müxtəlif sinfin şagirdləri üçün tənəffüsləri fərqli vaxtda planlaşdırmaq; eləcə də lazım gəldiyi halda, hər bir sinif və ya şagirdlərin qrupları üçün tənəffüs zamanı konkret sərbəst məkanların ayrılması; hərəkət qaydası və ya izdihamların müəyyən edilməsi və nəzarəti və s.

2020-2021 akademik dərs ilinin tədris prosesinin təşkili baxımından, iki əsas məsələni ayırmaq olar:
a) 2019-2020 ilinin ikinci semestrində şagirdlərin nailiyyətlərində geriliyin qarşısının alınması;
b) 2020-2021 dərs ilinin kurrikulumunun inkişafı, təlim-tədrisin hər bir ssenarisinin nəzərə alınması ilə,

## *a) 2019-2020 ilin ikinci semestrində şagirdlərin nailiyyətlərində geriliyin qarşısının alınması*

- Məktəb işçi qrup yaratmalıdır ki, bu da ötən semestrdə böhran vəziyyətində keçilən dərs prosesinə görə təlim-tədris və ya psixoloji və sosial-emosional istiqamətdə problemləri yaranan şagirdləri eyniləşdirəcəkdir;
- Lazım gəldiyi halda, fənn kafedraları tərəfindən eyniləşdirmənin maksimal çevik və məlumatlı (məs., ötən semestrin yekunlaşdırıcı tapşırığı, fərdi müsahibə və s.) vasitələri işlənib hazırlanmalıdır;
- Ötən semestrin dərs mövzularının üzərində işləyə bilən şagirdlər üçün əlavə fəallıqların işlənib hazırlanması və həyata keçirilməsi mümkündür (baxın, hədəf proqramlarına) ki, onların dərs prosesindən təcrid edilməsi baş verməsin;
- ötən semestrin dərs mövzularının əsaslı işlənilməsi və möhkəmlənməsi məqsədilə, sözügedən mövzular cari dərs prosesində inteqrativləşdirilməlidir (yeni mövzularla birlikdə);
- 2019-2020-ci ilin ikinci semestrində fövqəladə vəziyyətdə tədris nəticəsində baş qaldıran təlim-tədris prosesinin nöqsanlarının qarşısının alınması üçün məktəb təzminat planını işləyib hazırlamalıdır;

- Təlim-tədris prosesində mövcud nöqsanların təzminatı planı şagirdlərin və ya siniflərin siyahısını, dərs mövzularını, kompensasiya fəallıqlarının formalarını (məs., dərs, fərdi iş, əlavə dərs, klub işi, layihə və s.), fəallıqların cədvəlini, cavadeh şəxsləri və s. əhatə edə bilər;
- • Yaxşı olardı ki, kompensasiya planı fənn kafedralarında işlənilsin, pedaqoji şurada müzakirə edilsin və məktəbin dərs planının bir hissəsi olsun. Plan haqqında məlumat benefisiar şagirdlərin valideynlərinə çatdırılmalıdır.

## b) Məktəb kurrikulumunun inkişafı və təlim-tədris prosesinin təşkili

Hamıya məlumdur ki, məktəblər açıq sistemlərdir və daxili tənzimləmələrdən başqa, onlara başqa kənar amillər də təsir göstərirlər, məsələn, ailə və sosial təbəqə. Bununla yanaşı, məktəbin rolu daha böyükdür, nəinki şagirdlər üçün konkret informasiyanın ötürülməsi və müəyyən biliyin verilməsi. Məktəbi ictimai inkişaf yeri kimi nəzərdən keçirsək, sözügedən məsələlərin nəzərə alınması çox önəmli olacaqdır.

Konkret olaraq, pandemiya şərtlərində ölkədə mövcud ağır sosial fon daha da ağırlaşdı və cəmiyyət daha böyük problemlər qarşısında durdu. Müvafiq olaraq, sözügedən vəziyyəti müşayiət edən ağır psixoloji effekt nəzərə alınmalıdır.

Bu və başqa amilləri nəzərə almaqla, dərs prosesinin başlanğıc mərhələsi şagirdlərin sosial-emosional inkişafına və mühitlə adaptasiya məsələlərinə və strategiyalarına yönəlməlidir. Bu halda, həm şagirdlər, eləcə də şagird-müəllimlər arasında əlaqələrin inkişafına diqqət yönəldilməlidir.

# MƏKTƏBİN DƏRS PLANI

Vətəndaşın tərbiyəsi və gələcək həyata hazırlığından başqa, məktəb təhsilinin məqsədi cəmiyyətin formalaşması və şagirdlərin sosiallaşdırılmasına dəstəyin verilməsidir. Konkret olaraq, şagirdlərin əlaqələrinin, onlar üçün sosial vərdiş-bacarıqların inkişafına dəstəyin verilməsi və s.

Bu və yuxarıda qeyd edilən amilləri nəzərə almaqla, birinci semestrin başlanğıc mərhələsində məktəbin dərs planının adaptasiyası və kontekstdən irəli gələrək, müvafiq prioritetlərin qarşıya qoyulması vacib olacaqdır.

## 1. Dərs planının modifikasiyası və sosial-emosional vərdiş-bacarıqların inkişafı

Birinci mərhələdə yaxşı olardı ki, sosial-emosional vərdiş-bacarıqların və şəxsi bacarıqların inkişafına daha çox diqqət yetirilsin. Sözügedən dərs proqramlarının yüngülləşdirilməsi ilə mümkündür, bu da fənn kafedralarında müzakirə edilməli və razılaşdırılmalıdır. Bundan başqa, sosial-emosional və şəxsi vərdiş-bacarıqların inkişafının ən yaxşı vasitələrindən biri hədəf proqramlarıdır (bu mövzu ilə bağlı növbəti yarımfəsli izləyin “Hədəf proqramlarının işlənilib hazırlanması”).

Dərs prosesinin təşkilinin hər bir mərhələsində şagirdlərin iştirakına dəstəyin verilməsi çox vacibdir. Bu, həm şagirdlərin özünüidarəetməsi vasitəsilə, eləcə də başqa vasitələrlə mümkündür; məs., şagirdlərin sorğusu, fərdi və ya qrup görüşləri və s. Qeyd edilən dövr şagirdlərin özünüidarəetməsi və ümumiyyətlə, idarəetmə proseslərində şagirdlərin cəlb olunmasının aktivləşdirilməsi üçün çox münasibdir. Bu cəhətdən şagirdlərin dəyişikliklər üçün real mexanizmlərinin olması və qərarın qəbul edilməsi prosesində yalnız formal rol yerinə yetirməyəcəkləri ən önəmlidir. Bununla yanaşı, vacibdir ki, bu cür fəaliyyətdə məktəb tərəfindən b.a. favoritizm olmasın və yalnız aktiv və yüksək akademik davamiyyəti olan şagirdlər onda iştirak etməsinlər. Bu halda, məktəb bütün şagirdlərin maraqlarını nəzərə almağa çalışmalı, eləcə də onların ehtiyaclarını ayırd etməli, təşəbbüslərini həvəsləndirməli və maraqlarını nəzərə almalıdır.

Bilavasitə tədris istiqamətilə tövsiyələrə gəldikdə isə, yaxşı olardı ki, məktəb müəllimləri razılıqla hərəkət etsinlər və ilkin mərhələni (məs., birinci ayı) şagirdlərin maraqlarına, onların psixi-emosional hazırlıq məsələlərinə ayırsınlar. Bu cəhətdən daha az rəsmiyyət və nəzarət mexanizmləri, daha çox əməli və qeyri-rəsmi fəallıqlar arzu edilir, qiymətləndirmə halında isə müəyyənləşdirici deyil, inkişafetdirici qiymətləndirmələr. Ümumiyyətlə, bu və ya digər məsələlərin nəzərə alınması üçün ən yaxşı strategiya diskussiyaların həvəsləndirilməsi və şagirdlər arasında aktiv kommunikasiyanın dəstəkləndirilməsidir və bu da dinləmə bacarığının inkişafını nəzərdə tutur. Şagirdlərin emosional firavanlığını dəstəkləyən tövsiyələrlə “COVID-19-un səbəb olduğu pandemiya şərtlərində firavanlıq” fəsli ilə tanış ola bilərsiniz.

Tədris strategiyalarına gəldikdə isə, bu halda da mühüm dəyişiklikləri həyata keçirmək olar. Bütün dünyanın aktiv istifadə etdiyi metodlardan biri çevrilmiş sinif otağı modelidir və müəllim də bundan həm distant, eləcə də qarşı-qarşıya tədris zamanı istifadə edə bilər.

**Çevrilmiş sinif otağı modeli.** Bu, qarışıq tədrisin (blended learning) ən çox yayılmış formalarından biridir və bu ideya 2000-ci illərin əvvəlində əmələ gəlmişdi. Onun baniləri Con Berqman və Aaron Sems hesab olunurlar. Çevrilmiş sinif otağının əsas təyinatı interaktiv tədrisdir və bu da şagirdlə qarşı-qarşıya görüşün optimal istifadəsi məqsədini daşıyır. Əsas sənəddə çevrilmiş sinif otağı növbəti şəkildə izah edilir: ənənəvi sinif otağında baş verən hər şey evə keçir; evə verilən tapşırıq isə dərs prosesində edilir. Daha konkret

desək, hər yeni mövzu şagirdlərə video vasitəsilə verilir, müstəqil baxış üçün, ev tapşırığı isə sinifdə praktiki işlərin, qrup və ya fərdi fəallıqların vasitəsilə yerinə yetirilir.

Ənənəvi olaraq, sinif otağında ən çox vaxt dərslərin, yəni ev tapşırıqlarının soruşulmasına və ya yoxlanılmasına sərf olunur. Bu halda şagirdlər daha passiv rolda olurlar, nəinki aktiv, dərs prosesi isə az interaktiv olur. Çevrilmiş sinif otağında isə müəllim şagirdlərin fərdi inkişafına, hər bir şagird üçün əks əlaqəyə, qrup işlərinə və müxtəlif praktiki işlərin yerinə yetirilməsinə daha çox vaxt ayırır.

*Bu modeli necə həyata keçirək, yəni "sinif otağını necə çevirək"?*

İlk növbədə, şagirdlərə bu modeli izah etmək, açıqlamaq lazımdır. Eləcə də valideynlərlə ünsiyyət saxlayıb onları məlumatlandırmaq lazımdır. Müəllim bu modeldən nə üçün istifadə etdiyini dərk etməlidir. Con Berqmanın sözlərinə görə, model müəllimlərin həyatını həqiqətən də asanlaşdırmır, amma tədris prosesini həqiqətən də çox keyfiyyətli edir.

Bilavasitə prosesə gəldikdə isə, konkret dərs planını işləyib hazırlamaq lazımdır ki, bu da konkret mövzulardan və ya hədəf anlayışlarından ibarət olacaqdır, məsələn, Mülki təhsildə belə bir mövzular aktiv vətəndaşlıq və ya özünüidarəetmə məsələləri ola bilər. Müəllim qeyd edilən mövzu üzrə video hazırlayır və ya artıq hazır olan videolardan istifadə edir və şagirdlər də buna evdə baxırlar. Bu prosesdə mənfi olan odur ki, şagirdlərin videonu izlədikdə sual vermək imkanları olmur. Müvafiq olaraq, bu prosesin əhəmiyyətini vurğulamaq və şagirdlərə praktiki tövsiyələr vermək lazımdır (məs., qeydləri necə və hansı prinsiplə etsinlər, sualları necə yazsınlar və s.).

Videoların şagirdlər tərəfindən izlənilməsi və darıxdırıcı olmaması üçün onların müddəti 10-15 dəqiqə olmalıdır. Yaxşı olardı ki, video yeknəsaq olmasın. İlkin mərhələdə, hazırlıq prosesində, sözügedən bacarıqları inkişaf etmiş və texnologiyaları daha yaxşı bilən şagirdlərin köməyindən istifadə etmək olar. Eləcə də videoçarxların başqa müəllimlərlə birlikdə lentə alınması çox yaxşı bir yanaşmadır. Mövzunu izah etdikdə maksimal şəkildə təbii olun, yumordan istifadə edə bilərsiniz, məsələni maksimal qısa şəkildə və aydın izah edin, vaxta riayət edin.

Bilavasitə dərs prosesinə gəldikdə isə, bu halda müəllim keçmiş və ya yeni mövzunun açıqlanmasına vaxt sərf etmir. Müvafiq olaraq, vaxt bütövlükdə şagirdlərin suallarına, praktiki və ya fərdi işlərə ayrıla bilər. Yaxşı olardı ki, müəllim strukturlaşdırılmış planı hazırlasın və bu da şagirdlər üçün əvvəlcədən məlum olacaqdır. Məs., birinci 10-15 dəqiqə sual-cavab, növbəti 15-20 dəqiqə – qrup işləri; son 10 dəqiqə – qiymətləndirmə/yekunlaşdırma və növbəti dərsin məsələləri.

Qeyd edilən modelin istifadəsi **teleməktəbin** olduğu halda xüsusilə sadədir. Müəllimlər hazır videolardan istifadə edə bilərlər, dərs prosesini və ya planları əvvəlcədən planlaşdıra və hazırlaya bilərlər. Bu cəhətdən, **teleməktəb müəllimlər üçün ən yaxşı köməkçi vasitədir.**

Və sonda, sözügedən modelin üstünlükləri haqqında qısaca:

- şagirdlər arasında məsuliyyət hissini inkişaf etdirir, çünki dərs prosesi üzrə onlara da müəyyən öhdəliklər qoyur;
- dərs prosesi bütövlükdə şagirdə yönəlmişdir və onlar daha aktiv mövqedədirlər;
- proses çevikdir və şagirdə yönəlmişdir – şagirdlər onlar üçün əlverişli vaxtda və yerdə dərsin mövzusu ilə tanış ola bilərlər, istədikləri tezliklə izləyə bilərlər. Bir çox hallarda elə olur ki, şagird izah prosesindən yayınır (məs., həmin məqamda müəllimi dinləmir), sonra isə prosesə qayıdışda çətinlik çəkir. Bundan başqa, dərs işində iştirak etməyən şagird, faktiki olaraq, prosesdən də yayınır və qeyri-bərabər vəziyyətdə olur. Çevrilmiş dərs otağı zamanı qeyd edilən materiallar hər bir şagird üçün əlçatandır.

- Model şagirdlər arasında, eləcə də şagird-müəllimlər arasında münasibətlərin inkişafına dəstək verir. Bunun səbəbi sadədir: müəllimin praktiki və şagirdə yönəlmiş işləri yerinə yetirmək üçün daha çox vaxtı qalır.
- Dərs prosesi daha şəffafdır və bu da məktəb həyatında şagirdlərin məlumatlandırılmasına və cəlb olunmasına dəstək verir.
- Model müəllimlərin mütəşəkkil və effektiv işinə dəstək verir. Bu halda müxtəlif siniflərdə eyni mövzunun izahatına vaxt sərf etmir. Əksinə, konkret sinfə uyğunlaşdırılmış işlərin planlaşdırılması üçün daha çox vaxtları olur.

## 2. Hədəf (uzadılmış) proqramların işlənib hazırlanması

Məktəb qarşısında mövcud problemlərdən irəli gələrək, məktəb hədəf proqramlarını işləyib hazırlaya bilər. Hədəf proqramı fəallıqlar birliyidir və qısa- və ya uzunmüddətli dövrdə konkret problemin aradan qaldırılmasına və ya hər hansı bir istiqamətin (məs., əldə edilmiş biliyin, sosial bacarıqların, emosional intellektin) inkişafına yönəlmişdir. Belə bir proqramlar layihə şəklində hazırlanırlar və bir və ya bir neçə komponent şəklində təqdim oluna bilərlər: problemin təsviri, aydın formalaşdırılmış məqsəd, məsələlər, fəallıqların siyahısı, müddətlər, həyata keçirilməsi üçün lazımi resurslar, cavadeh şəxs(lər), gözlənilən nəticələr, monitorinq və qiymətləndirmə vasitələri.

Məktəbin hədəf proqramlarının hamısının çətin, kompleksli sənəd olması vacib deyil. Məktəbdə belə bir proqramların planlaşdırıldığı və həyata keçirildiyi zaman vacibdir ki, eyniləşdirilmiş problem aydın olsun, onun həlli yolları birgə planlaşdırılsın və ona cəlb olunan insanların funksiyaları və dəstək ehtiyacları aydın şəkildə müəyyənləşdirilsin.

Pandemiya şərtlərində məktəbdə tədrisin bərpasından sonra belə bir hədəf proqramları şagirdlərin dərs nəticələrinin yaxşılaşdırılması üçün, şagirdlər və ya müəllimlər arasında psixi-emosional fonun gümrahlaşdırılması üçün, müəllimlərin rəqəmsal səriştələrinin inkişafı üçün, məktəb cəmiyyətində pandemiya ilə bağlı məlumat səviyyəsinin artırılması üçün və məktəbin digər konkret ehtiyaclarından irəli gələrək həyata keçirilə bilər.

Hədəf proqramları ilə planlaşdırılmış fəallıqlar həm formal (dərs fəallıqları), eləcə də qeyri-formal (klub, dərnək, fərdi iş) təhsil məkanlarında həyata keçirilə bilər.

Layihə şəklində formalaşdırılmış hədəf proqramları donorlarla və başqa maraqlı tərəflərlə münasibəti asanlaşdırır və əlavə maddi, intellektual, insani resursların cəlb olunması üçün əlverişlidir, çünki bu forma ilə formalaşdırılmış təkliflər donorlarla və başqa maraqlı tərəflərlə ünsiyyəti sadələşdirir (Baxın: Xarici kommunikasiya fəsli).

# DƏRS RESURSLARI

Təlim prosesinin effektiv aparılması üçün müvafiq tədris resurslarından istifadə etmək lazımdır. Ənənəvi olaraq, məktəblər və müəllimlər bu prosesdə həqiqətən də mühüm rol oynayan dərsliklərdən istifadə edirlər. Amma deməliyik ki, bunlar da, başqa tədris resursu kimi, köməkçi funksiyanı yerinə yetirirlər və bunların istifadəsi qarşıya qoyulan məqsəd olmamalıdır.

Müasir dövrdə, xüsusilə də postpandemiya şərtlərində, rəqəmsal materiallar və onlayn resurslar həddən çoxdur və bunların istifadəsi müəllimə dərs prosesini təşkil etməkdə yardım edəcəkdir.

Aşağıda bunlardan bəziləri verilir:
**1. Teleməktəb.** Məktəblər bağlanıldıqdan sonra dövlət tərəfindən başlanılan önəmli layihələrdən biri teleməktəb idi. Teleməktəbdə demək olar ki, bütün fənn və istiqamətin teledərsləri cəmləşdirilmişdir. Layihənin davamı növbəti semestrdə də planlaşdırılmışdır. Müəllimlər teleməktəb resurslarından istifadə edərək bunlara uyğunlaşdırılmış proqramı işləyib hazırlaya bilərlər.
**İnternet səhifə:** https://1tv.ge/tv-radio/arkhebi/pirveli-arkhi-ganatleba/
**Sosial şəbəkənin səhifəsi:** https://www.facebook.com/1tv.ge.teleskola

**2. Xan akademiyası.** Bu, pulsuz təhsil platformasıdır. Onda məktəb şagirdləri üçün dəqiq və təbiətşünaslıq fənləri istiqamətində videoçarxlar, eləcə də məqalələr və çalışmalar əlçatandır. Bundan əlavə müəllimlər və valideynlər üçün köməkçi resurslar yerləşdirilmişdir. Müəllimlərin imkanı var ki, burada virtual sinif otağını yaratsınlar və öz şagirdlərini dəvət etsinlər. Analoji olaraq, valideynlərin də imkanı var ki, övladlarının irəliləyişlərini müşahidə etsinlər.
**internet səhifə:** https://ka.khanacademy.org
**Facebook səhifəsi:** https://www.facebook.com/KhanAcademyGeorgia

**3. İnternet portal el.ge**. portalda müxtəlif təhsil və elmi resurslar yerləşdirilmişdir: dərsliklər, məqalələr, videolar, vebinarlar. Yeni təhsil layihəsinin çərçivəsində yaradılmış kompleksli tapşırıqlar paketlərini növbəti istiqamətlərdə qeyd etmək lazımdır: riyaziyyat, mütaliə (ana dili və ədəbiyyatı), ictimai (tarix, coğrafiya, vətəndaşlıq/mülki müdafiə) və təbiətşünaslıq (təbiət, kimya, fiziki, biologiya) fənləri.
**İnternet səhifə:** https://el.ge/projects/iskola
**Facebook səhifəsi:** https://www.facebook.com/El.Library.Georgia/

**4. TV məktəb – tvschool.ge.** ev tapşırıqlarının asanlıqla hazırlamaq üçün müəllimlər üçün platforma.
**İnternet səhifə:** https://www.tvschool.ge/
**Facebook səhifəsi:** https://www.facebook.com/TVskola/

5. **www.civiceducation.ge** Mülki təhsil istiqamətində dərs materialları və videoların strukturlaşdırılmış şəkildə yerləşdirilmiş platforması.

6. **http://millab.ge/ka/** Media və informasiya mütaliəsinin (MilLab) onlayn platforması köməkçi dərs resursudur və bu da tənqidi təfəkkürün inkişafına və dərk edilmiş media istifadəyə dəstəyin verilməsi məqsədini daşıyır. Platforma gənclərə bilik verir ki, media demokratik sistemdə necə fəaliyyət göstərir, saxta informasiyanı necə yoxlayaq və təyin edək ki, konkret media-vasitənin arxasında hansı maraqlar durur.

Platforma növbəti istiqamətdə dərs materiallarını, oyunları, çalışmaları, misalları birləşdirir: media-informasya; təbliğat və verifikasiya; şəffaflıq; nifrət dili; kiber; şəxsi həyatın toxunulmazlığı/fərdi göstəricilər. Qeyd edilən resurs "Məktəblərdə media-mütaliəyə və tənqidi təfəkkürə dəstəyin verilməsi" layihəsi çərçivəsində Gürcüstanda Niderlandlar Səfirliyinin dəstəyi ilə hazırlanmışdı.

# MƏKTƏB PERSONALI VƏ MÜƏLLİMLƏRİN DƏSTƏKLƏNDİRİLMƏSİ

## Administrasiya işçiləri

Yuxarıda qeyd edildiyi kimi, Gürcüstanda məktəblər bir-birindən çox fərqlənirlər və müxtəlif kontekstdə işləməli olurlar. Məktəblərin miqyasları fərqlidir, müvafiq olaraq, müdiriyyət işçilərinin sayı da.

Yeni çağırışların, tənzimləmələrin və dəyişikliklərin effektiv idarəetməsi məqsədilə, orta və böyük ölçülü məktəblərdə işin müxtəlif səviyyədə heyətiləndirilməsi; bundan başqa, tematik istiqamətlərdə dəstəkləyici qrupların yaradılması vacibdir. Əsas odur ki, məktəbin imkanlarından irəli gələrək, administrasiya işçilərinin əmək şərtləri nəzərdən keçirilsin, xüsusilə də, həkim və xadimə mövqeləri.

## Müəllimlərin dəstəkləndirilməsi

Təlim-tədris prosesində ən mühüm rol müəllimlərindir. Müəyyən hissədə məhz onlardan asılıdır ki, dərs prosesi necə davam edəcəkdir. Bundan irəli gələrək, onların dəstəkləndirilməsi hər bir məktəbin əsas məsələsi olmalıdır.

İlk növbədə, müəllimlərin hansı ehtiyaclarının olduğunu təyin etmək lazımdır. Məs., rəqəmsal bilgilərin azlığı, texnologiyalara və internetə əlçatma problemi, emosional dəstəyin ehtiyacı və s. Bu, görüşlər zamanı, birbaşa kommunikasiya zamanı, eləcə də sadə sorğular və ya başqa alətlər vasitəsilə edilə bilər.

Bundan sonra eyniləşdirilmiş istiqamətdə konkret fəallıqlar həyata keçirilməlidir.

### *1. Rəqəmsal bilgilərin və onlayn pedaqogikanın inkişafı*

Distant təhsil və qarışıq/hibrid modellərin istifadəsi mütəmadi hazırlığı və ona mərhələlərlə keçidi tələb edir. Müvafiq olaraq, təəccüblü deyil ki, məktəblərin əksəriyyətində həm rəqəmsal texnologiyaların istifadəsi, eləcə də onlayn pedaqogika istiqamətində müəllimlərə dəstək lazım ola bilər.

Yaranmış vəziyyətdən və məhdud vaxtdan irəli gələrək, beynəlxalq təcrübəyə əsasən, məktəbdaxili treninq-modulların həyata keçirilməsi mümkündür. Bunun üçün müəllimləri dəstəkləyən qrupları yaratmaq olar. Dəstəkçi qruplarda bu məsələləri yaxşı bilən və həmkarlarının inkişafına töhfə verməyə hazır olan müəllimlər birləşməlidirlər.

Belə bir müəllimlərin olmadığı halda, məktəb tərəfdaş məktəblərə, nazirliyə və ya Müəllimlər Evinin nümayəndələrinə, ictimai təşkilatlara, universitetlərə, təhsil mütəxəssislərinə müraciət edə bilər və bunlar qeyd edilən istiqamətdə məktəbə könüllü yardım göstərməyə hazır olacaqlar.

Aşkar edilən ehtiyaca əsasən, treninq-modulların mövzusu əhatə edə bilər: 1. texniki məsələləri, məsələn, Microsoft teams-in və ya təhsil platformalarının (www.ck12.com, www.el.ge/projects.sikola, Xan akademiyası, TV məktəb və s.) istifadəsini; 2. metodoloji məsələləri (şagirdlərin qiymətləndirilmə-

si, kompleksli tapşırıqların işlənib hazırlanması*, şagirdlərin hazırlığının diaqnostik qiymətləndirilməsi və s.).

Vacibdir ki, qeyd edilən treninqlərin formalaşdırılmış və strukturlaşdırılmış şəkli olsun. Yaxşı olardı ki, treninqlər məktəb prosesi başlanılana qədər keçirilsin. Bundan başqa, arzu edilir ki, məktəbdən bir və ya bir neçə insan ayrılsın ki, müəllimlər də ona texnoloji və ya metodoloji dəstək ehtiyacı olduğunda müraciət etsinlər.

Əlavə məlumat üçün müvafiq fəsli izləyə bilərsiniz – "Müəllimlər üçün tövsiyələr".

## 2. Müəllimlərin „yanması" və emosional firavanlıq

Təhsil prosesinin nailiyyətlə aparılması üçün ən önəmli komponenti müəllimin emosional firavanlığı təqdim edir. Stres və onun nəticələri həm uşaqlarda, eləcə də böyüklərdə öz əksini tapır. Yetkinlərə təsir göstərən stres isə, öz növbəsində, bir çox hallarda xoşagəlməz nəticələrə aparıb çıxarır (xüsusilə də şagirdlərlə münasibət zamanı). Ümumiyyətlə, müəllimin rolu və məsuliyyəti təhsil prosesində yalnız akademik cəhətlə müəyyən edilmir, müəllim qayğısına qalır:

- şagirdin akademik bacarıqlarının inkişafına (yazı, oxu, hesabat və s.)
- şagirdin koqnitiv bacarıqlarının inkişafına (problemin analizi, həlli, təfəkkür və s.)
- şagirdin sosial bacarıqlarının inkişafına (qrup işi, birgə fəallıqlar, sıraya əməl etmə və s.)
- şagirdin emosional firavanlığına (əhval-ruhiyyə)

Müvafiq olaraq, bu komponentdən hər birinin nailiyyətlə idarə edilməsi üçün müəllimin özü emosional firavanlığı hiss etməlidir. Sözügedənlə ayaqlaşmaq müəllim üçün gündəlik həyatda çox stresvericidir və bu proses COVID-19 şərtlərində daha çox təsirli ola bilər.

Dəyişdirilmiş gündəlik cədvəl, rutin, fəallıqlar, ciddiləşdirilmiş təhlükəsizlik qaydaları, distant tədris – bu, müəllimlər üçün stresə səbəb olan siyahının bir hissəsi ola bilər. Sözügedən stres şəraitində müəllimlər mütləq müəyyən, onların emosional firavanlığı üçün nəzərdə tutulmuş dəstəyi məktəb müdiriyyətindən almalıdırlar.

Müəllimin emosional firavanlığının qorunub saxlanılması üçün tövsiyələr:

- ilk öncə, müəllimlər bilməlidirlər ki, lazım gəldiyi halda, onları eşidəcəklər. Həm müəllim və valideyn arasında, eləcə də müəllim və məktəb müdiriyyəti arasında konstruktiv dialoq aparılmalıdır. Məsələn, müəllimin imkanı olmalıdır ki, bu və ya digər vəziyyəti müstəqil yoluna qoya bilməyəcəyini bildirsin və yardım istəsin (mütəxəssis məsləhəti, treninq və ya başqa şəkildə).
- Müəllim hiss etməlidir ki, onun fiziki təhlükəsizliyi, psixoloji və emosional firavanlığı məktəb üçün uşaqların təhlükəsizliyi və firavanlığı qədər önəmlidir. Pandemiya şərtlərində iş peşəkar "sıradan çıxmaya" səbəb ola bilər və məktəbdə sağlam psixoloji atmosfer yaratmaq çox vacibdir, lazım gəldiyində isə mütəxəssis (psixoloji sıradan çıxmanın qarşısının alınması haqqında strategiyaları tanış edəcək psixoloq, təlimçi) dəvət olunmalıdır.
- Yüklü gündəliyə baxmayaraq, məktəbin cədvəli elə hazırlanmalıdır ki, müəllim gün ərzində istirahətə vaxtı və imkanı olsun.
- kiçik qruplarda görüşlər mütəmadi həyata keçirilməlidir (2 həftədə və ya 3 həftədə bir dəfə) və bu zaman müəllimlər tədrisin bu və ya digər metodu haqqında yenilikləri, təcrübələrini, emosiyalarını bir-biri ilə

* Ev tapşırığının effektivlik məsələləri Nika Mağlaperidzenin məqaləsində nəzərdən keçirilir -„Ev tapşırığının kompleksliyi: pozitiv və neqativ tərəflər" internet səhifə "Təhsil haqqında".

paylaşa bilərlər. Sözügedən görüşlər yaxşı olardı ki, iş saatlarına sayılsın ki, müəllimlərin sərbəst vaxtları əlavə fəallıq üçün sərf edilməsin.

- Yaxşı olardı ki, psixoloqlarla görüşlər həyata keçirilsin. Psixoloqlar onlara həm sinfin hazırlığında yardım edəcəklər, eləcə də emosional firavanlığın qorunub saxlanılması üçün məsləhətlər verəcəklər. Psixoloqlar Mandatura Evi nəzdində mövcud Psixoloji Mərkəzin və ya intizamlararası dəstənin nümayəndələri ola bilərlər. Eləcə də məktəb müəllimlərin emosional firavanlıqlarının gücləndirilməsi məqsədilə başqa təşkilata və ya konkret psixoloqa müraciət edə bilər.
- Dərs prosesinin dəyişiklikləri ilə bağlı yaxşı olardı ki, müəllimin adaptasiya üçün müəyyən vaxtı olsun.
- Müəllimlərin motivasiyasının artırılması üçün məktəb müdiriyyəti ilə mütəmadi pozitiv əks əlaqənin yaradılması arzu edilir.

# KEYFİYYƏTİN İDARƏ EDİLMƏSİ, MONİTORİNQ VƏ QİYMƏTLƏNDİRİLMƏSİ

Keyfiyyətin təmin edilməsi üçün məktəb Deminq dövryyəsini (PDCA) rəhbər tuta bilər və bundan da bütün dünyada həm təhsil, eləcə də başqa sahələrdə geniş istifadə olunur. Keyfiyyətin təmin edilməsinin bu aləti dövriyyə xarakterlidir və növbəti mərhələləri əhatə edir: Plan – planlaşdırma, Do – həyata keçirmə, Check – yoxlanış, Act – reaksiyanın göstərilməsi, uyğunlaşdırma.

## Plan – planlaşdırma




Planlaşdırma mərhələsində konkret problem, çağırış eyniləşdirilməli və aydın formalaşdırılmalıdır ki, bunun həllinə sözügedən dövriyyə yönləndiriləcəkdir. Bu mərhələdə yuxarıda qeyd edilən vəziyyətin analizi nəticəsində alınan məlumatdan istifadə ediləcək və ya yeni göstəricilər toplanılacaqdır ki, bunların əsasında problemin və onun səbəblərinin dərin təsviri mümkün olacaqdır.

Problem eyniləşdirildikdən sonra onun həlli üçün lazımi fəaliyyətlər planı işlənib hazırlanacaqdır. Bu da cavabdeh şəxslərin, müddətlərin, resursların, prosesin qiymətləndirilməsi indikatorlarının və başqa mümkün ehtiyacların müəyyənləşdirilməsini əhatə edir. Planlaşdırma zamanı məktəb cəmiyyətinin, özəlliklə də birbaşa bu proseslərə bilavasitə cəlb olunan şəxslərin və ya bu fəallıqların benefisiarlarının aktiv cəlb olunması xüsusilə önəmlidir.

## Do – Həyata keçirmə

Verilən mərhələ ötən mərhələdə hazırlanmış iş planı ilə müəyyən edilmiş fəallıqların həyata keçirilməsini nəzərdə tutur. Vacibdir ki, planı həyata keçirdikdə, fəallıqlara cəlb olunan hər bir şəxs tam prosesi yaxşı dərk etmiş olsun. Eləcə də vacibdir ki, həyata keçirilmiş fəallıq təsvir edilsin/sənədləşdirsin.

## Check – yoxlanış, nəzarət

Fəaliyyətin yoxlanışından sonra nəticələrin qiymətləndirilməsi baş verir: nəticələr qiymətləndirildikdə, effektiv planlaşdırma mərhələsində işlənib hazırlanmış indikatorlardan istifadə olunur, həyata keçirmə mərhələsində fəaliyyətin təsvirinin, monitorinq nəticələrinin analizi baş verir. Tam şəklin alınması üçün əlavə məlumatların yığılması da lazım ola bilər. Mövcud nöqsanların qarşısının alınması və prosesin düzgün aparılması üçün problemlərin və çətinliklərin açıq və örtülmədən göstərilməsi vacibdir. Eləcə də bu mərhələdə fəaliyyət və nəticələr ölçülür, onlara reaksiya göstərilir və plana daxil ediləsi müvafiq dəyişikliklər formalaşdırılır.

## Act – Reaksiyanın göstərilməsi, uyğunlaşdırma

Prosesin effektiv aparılması üçün planın həyata keçirilmə prosesində baş qaldıran nöqsanların aradan qaldırılması üçün işlənib hazırlanmış dəyişikliklər tətbiq edilməlidir. Verilən mərhələdə dəyişikliklər mövcud plana uyğunlaşdırıla bilər və ya planlaşdırma mərhələsinin yenidən həyata keçirilməsinə səbəb ola bilər.

Problemlər və nöqsanlar halında, sözügedən dövriyyə bir neçə təkrarlana bilər. Dövriyyə qarşıya qoyulan məqsədin əldə edildiyində və istənilən nəticənin yetişdiyində başa çatdırılmış hesab edilir.

## Vəziyyətin analizi

Məktəbdə dərs prosesinin yeniləşdirilməsi və sonra onun effektiv aparılması üçün vacibdir ki, hər bir məktəb vəziyyəti dərinliyi ilə öyrənsin. Bu tip analiz üçün strateji planlaşdırma zamanı ən çox istifadə edilən SWOT-analiz əlverişli ola bilər. Vəziyyətin analizi məktəbin dərs planının, layihələrin, hədəf proqramlarının işlənib hazırlanması və ya başqa fəallıqlar cəhətindən təməli informasiya və məlumatlar birliyini təqdim edir. Eləcə də məktəbin özünün müstəqil həll edə biləcəyi problemləri və kənar şəxslərin səfərbərliyi lazım olacaq problemləri bir-birindən ayırmaq çox səmərəlidir. Problemlər və çağırışlar haqqında məlumat maksimal ictimai olmalıdır ki, dəstəkləyici kənar təşəbbüslərə dəstək verilsin və həvəsləndirilsin.

## Valideynlərin cəlb olunması

Pandemiya dövründə fövqəladə halda keçirilən dərs prosesi şagirdlərin təhsilində və məktəbin dəstəkləndirilməsində valideynlərin və icmanın iştirakı zərurətini daha aydın göstərdi.

Məktəb valideynlərin və icmanın cəlb olunması istiqamətində ardıcıl tədbirlər keçirməlidir, məsələn: yeni tənzimləmələr haqqında (Baxın, “Yeni tənzimləmələr haqqında məktəb icmasının məlumatlandırılması”) valideynlərin və icmanın məlumatlandırılması; özəl təşəbbüslərin həvəsləndirilməsi və dəstəyin qəbulu məqsədilə məktəb qarşısında mövcud problemlərin və ehtiyacların məktəbin cəmiyyəti üçün təsvir və tanış edilməsi.

Valideynlərin və icmanın cəlb olunma səviyyəsinin artırılması üçün vacibdir ki, məktəbdə konkret insan və ya insanlar qrupu bu istiqamətdə fəaliyyəti yönləndirsinlər. Eləcə də məlumatlandırma və cəlb olunma səviyyəsinin artırılması üçün lider valideynlərin resursunun istifadəsi də nəticəlidir. Buradaca qeyd etmək lazımdır ki, valideynlərin cəlb olunması şagirdlərin psixi-sosial inkişafı üçün çox vacibdir. Qeyd edilən məsələ ilə bağlı tövsiyələri yarımfəsildə izləyə bilərsiniz – “Valideynlərin cəlb olunması və psixi-sosial dəstəyin əhəmiyyəti”.

Bununla belə, effektiv və sistemləşdirilmiş ünsiyyət üçün yaxşı olardı ki, məktəb valideynlərə cari məsələlərlə bağlı məlumatın çatdırılması üçün konkret vaxtı və müddəti aydın şəkildə müəyyənləşdirsin (məs., hər çərşənbə, saat 15:00-də). Bundan başqa, valideynlərin ehtiyaclarının, maraqlarının və məmuniyyətlərinin ara-sıra tədqiqatının aparılması vacibdir. Yaxşı olardı ki, sözügedən tədqiqat hazırlıq mərhələsində həyata keçirilsin. Ümumiyyətlə, bu istiqamətdə müxtəlif alətdən həm ayrı-ayrı, eləcə də vahid sistemin hissəsi kimi istifadə edilə bilər. Məsələn,valideynlərlə mütəmadi görüşlər, onların ehtiyaclarının təyin edilməsi məqsədilə. Bunu həm məktəb nümayəndəsi, eləcə də (etibarlılığın artırılması məqsədilə) məktəbdən asılı olmayan bir şəxs edə bilər. Bu cəhətdən müxtəlif maraqlı tərəflərlə aktiv əməkdaşlıq etmək olar (baxın, müvafiq fəslə – "xarici kommunikasiya").

Bundan başqa, valideynlərlə effektiv kommunikasiya üçün standartlaşdırılmış anketlərdən istifadə edə bilərsiniz. Qarşı-qarşıya tədris cəhətindən valideynlərin anketinin misalını bərkidilmiş faylda izləyə bilərsiniz.

Və sonda, praktiki tövsiyə şəklində, bu məsələlərin həlli üçün məktəb müxtəlif ictimai təşkilatla əməkdaşlıq edə bilər, o cümlədən „Valideynlər təhsil üçün". Sözügedən təşkilat məktəb həyatında valideynlərin cəlb olunmasının artırılması və bu cəhətdən təhsil sisteminin dəstəkləndirilməsi məqsədini daşıyır. Onlar www.parents.ge internet səhifəsində məktəb və valideyn münasibəti haqqında bir neçə materialla tanış ola bilərlər.

## İcma ilə və başqa maraqlı tərəflə əlaqə

İcmanın cəlb olunması səviyyəsinin artırılması üçün əsas şərti onlarda məktəbə aid olma hissinin yaranması təqdim edir. Valideynlərdə və icma nümayəndələrində hiss yaranmalıdır ki, məktəb icmanın bir hissəsini təqdim edir, onların təhsil istiqamətində məqsədlərinin gerçəkləşdirilməsinə xidmət edir və icmanın maraqlarını nəzərə alır. Belə bir yanaşmaların formalaşdırılması üçün məktəb proaktiv şəkildə məktəb cəmiyyətini məlumatlandırmalı və məktəbdə baş verən proseslərin haqqında hesabat aparmalıdır. Məktəb cəmiyyəti ilə kommunikasiyanın inkişafı üçün növbəti taktiki üsulların istifadəsi məqsədəuyğundur:

- kommunikasiya mənbələrinin konkret məktəb cəmiyyətinə uyğunlaşdırılması və onlar üçün daha qəbul edilən və asanlıqla tətbiq edilən vasitələrin seçilməsi;
- məşhur kommunikasiya leksikasının istifadəsi və təhsil sisteminin peşəkar terminologiyasından çəkinmək;
- qərarın qəbul edilməsində iştirak üçün imkanların yaradılması (məs., qeyri-rəsmi təhsil servislərin seçimində iştirak);
- birdəfəlik çatdırılası məlumatın miqdarının azaldılması, ardıcıllıq və çatdırma tezliyinin artırılması;
- məktəbdə davam edən proseslərin, nəticələrin, nailiyyətlərin və problemli məsələlərin haqqında permanent hesabat.

Məktəb və məktəb cəmiyyəti arasında bu növdə əlaqələr qurmaq lazımdır, həm pandemiya dövründə mövcud risklərin azaldılması üçün, eləcə də adi dövrdə məktəb proseslərinin nailiyyətlə aparılması üçün.

O ki qaldı başqa maraqlı tərəflərə, yaxşı olardı ki, məktəb akademik ilin başlanılmasına qədər müvafiq kommunikasiya strategiyasını işləyib hazırlasın və bu da növbətiləri nəzərə almalıdır:

1. maraqlı tərəflərin analizi: maraqlı tərəflər kimlərdir və konkret olaraq məktəbinizlə münasibətdə onların maraqları nədir? Analiz zamanı vacibdir ki, məktəb yerli konteksti maraqlı tərəflərin maraqlarını nəzərə alsın. Maraqlı tərəflər yerli munisipalitet, ali təhsil müəssisəsi, peşəkar kolleclər, özəl təşkilatlar/şirkətlər, başqa məktəblər, ictimai təşkilatlar, fərdi fiziki şəxslər (mütəxəssislər/ekspertlər) və s. ola bilərlər.
2. Kommunikasiya strategiyasının məqsədi: ümumiyyətlə, kommunikasiya strategiyası hansı məqsədə xidmət edir. Eləcə də məktəb hər hədəf qrupu ilə bağlı hansı məqsədləri qarşıya qoyur? Başqa sözlərlə

desək, nə üçün hər bir maraqlı tərəflə əməkdaşlığa başlayır, onun təklifi nədir və bundan hansı faydanı götürəcəkdir?

3. Strategiya və fəaliyyət planı – məktəb maraqlı tərəflərlə kommunikasiyanı, onları maraqlandırmağı necə planlaşdırır? Müxtəlif təşkilat və ya qrupla onlara uyğunlaşdırılmış, müvafiq strategiya lazımdır. Strategiyanın işlənilib hazırlanmasından sonra artıq konkret fəaliyyət planının və hər addım üzrə konkret məsul şəxsin müəyyən edilməsi lazımdır.
4. Və sonda, yaxşı olardı ki, sözügedən planın konkret indikatorları olsun və bunun əsasında da nəticə çıxaracaqsınız ki, məqsəd əldə edilmişdirmi və ya yox.

Maraqlı tərəflərlə əməkdaşlıqdan başqa, yaxşı olardı ki, **məktəb fərdi və ya könüllü təşkilatlarla əməkdaşlığı** inkişaf etdirsin. Bu cəhətdən universitetlərlə əməkdaşlıq mümkündür. Məs., məktəblərdə təcrübə, məktəbdənsonrakı fəallıqlar (hədəf/uzadılmış proqramlar zamanı), tədqiqi fəaliyyət və ya maliyyə resursunun cəlb olunması tərəfindən və s. dəstəkləndirilməsi. Bu cəhətdən vacibdir ki, məktəblər onların imkanlarını və bu növdə təşəbbüslərin potensialını yaxşı dərk etsinlər. Müvafiq olaraq, bu növ təşəbbüslərə qarşı açıq olmalısınız.

Əlavə maliyyələr cəlb etməklə məktəbin fəaliyyət göstərdiyi spesifikası və konteksti nəzərə alınmalıdır. Ümumiyyətlə, müxtəlif kampaniyanın aparılması yaxşı təcrübədir, məs., b.a. “**kraudfandinq”, yəni ictimai ianələr kampaniyası və** bunun da konkret məqsədi olmalıdır və çox konkret müddətlərdə həyata keçirilməlidir. Bu cəhətdən, yaxşı misal ictimai təşəbbüs **“cəlb et”-dir və** bir çox şagirdə internetə və ya texnologiyalara əlçatma cəhətindən yardım edir.

Bu istiqamətdə beynəlxalq təcrübəyə əsasən məktəblər **öz məzunları ilə əməkdaşlıq edə bilər**. Məzunların şəbəkələrini formalaşdırmaq olar ki, bu da hər ay məktəbə müəyyən dəstək göstərəcəkdir. Bu əməkdaşlıq həm maliyyə nöqteyi-nəzərindən yardımı, eləcə də müxtəlif növ fəallıqların həyata keçirilməsində özünü göstərə bilər.

Və sonda, məktəblər beynəlxalq təşkilatlarla, o cümlədən, onların yerli nümayəndələri ilə əməkdaşlıq edə bilərlər. Bu cəhətdən xarici dillər kafedraları ilə məqsədyönlü əməkdaşlıq arzu edilir.

Ümumiyyətlə, məktəbin əlavə dəstək əldə edə biləcəyinə dair konkret bir resept yoxdur. Bunun səbəbi ondan ibarətdir ki, məktəblərin özünəməxsusluğu və konteksti fərqli ola bilər. Bundan başqa məktəbin daxili və mövcud insani resurs imkanları da nəzərə alınmalıdır. Bundan irəli gələrək, hər bir məktəb fərdi ehtiyacı və imkanlarından irəli gələrək qərarlar qəbul etməli və konkret planları qarşısına qoymalıdır. Bizim bu istiqamətdə tövsiyəmiz daha aktiv olmağınızdır, çünki bu, hər zaman məktəb üçün faydalı olur.

# COVID 19-UN SƏBƏB OLDUĞU PANDEMİYA ŞƏRTLƏRİNDƏ FIRAVANLIQ

Tədris prosesinin əvvəli, onunla bağlı dəyişikliklər şagirdlər üçün kifayət qədər böyük stresi təqdim edirlər. Bir çox hallarda sorğu aparılan böyüklərin birinci kəskin xatirələri məhz məktəbin ilk günləri ilə bağlı olur. Dərs ilinin əvvəli uşağın həyatında mühitin dəyişməsi, rutinin dəyişməsi, məsuliyyət və tələblərin artması, azad mühitdən daha strukturlaşdırılmış mühitə keçid, yüksək gözlənti və s. kimi dəyişikliklərə səbəb olur. Bütün yuxarıda adı çəkilənlər şagirdə müəyyən hissədə stres təsirini bağışlayır.

COVID 19-un səbəb olduğu pandemiya şərtlərində qeyd edilən yeniliklərə əlavə stressorlar əlavə olunur, məsələn, müəyyən məsələlərə diqqətin kəskinləşdirilməsi (temperaturun ölçülməsi, dezinfeksiya məhlulunun istifadəsi, məsafəyə əməl edilməsi), valideynin və müəllimin çoxalmış həyəcanı və s. Şagird ibtidai pillədə təhsil aldığı halda, COVID-19 şərtlərində artıq onda mövcud, tanış rutinin pozuntusu və s. baş verir. Nəticədə, şagird üçün təlim prosesi daha çox stres olur, nəinki başqa zaman. Baza və orta pillədə təhsil alan şagirdləri tez-tez qaydalara qarşı inadkarlıq, özünübərqərar üçün mübarizə xarakterizə edir, onlar üçün yoldaşlarına baş çəkmək və onlarla vaxt keçirmək çox vacibdir, çünki bir çox hallarda məhz bu yaşda valideyn deyil, dost nüfuzlu və ən arzu edilən şəxs olur. Eləcə də nəzərə almaq lazımdır ki, bu yaşda şagirdlər üçün sözügedən vəziyyət gələcək planların dəyişməsi ilə bağlı ola bilər: məsələn, şagirdin təhsilini başqa ölkədə davam etdirmək planı ola bilər və bu da hazırkı mərhələdə onun üçün məlum deyil və həyəcana səbəb olur. Eləcə də diqqət vermək lazımdır ki, orta və baza pilləsinin şagirdləri məsələni daha yaxşı başa düşürlər, məlumatı özləri axtarır, oxuyur, müzakirə edirlər. Özlərinin və ailə üzvlərinin sağlamlığı ilə bağlı həyəcanları da çox yüksək ola bilər və bu da məktəbə getmək arzusunun olmadığında özünü göstərə bilər.

Aşağıda verilmiş cədvəldə 6-18 yaşlı uşaqların və yeniyetmələrin stres vəziyyətinə reaksiyalar və onlarla ayaqlaşmanın müxtəlif strategiyaları təsvir edilmişdir. Cədvəldə təqdim edilən məlumat Kolumbiya universitetinin və SAVE THE CHILDREN tərəfindən nəşr edilən sənədə istinad edir: „Şagirdlər (6-18) tərəfindən yaşanılan stresə reaksiyanın göstərilməsinin adi reaksiyaları, stresdən/böhran vəziyyətindən sonra və travma zamanı istifadə olunan ayaqlaşma strategiyaları”.

| Yaş | Stresə reaksiya | Dəstək strategiyaları |
|---|---|---|
| **6-11 yaş** | • **Reqressiv reaksiyalar:** valideynin və ya başqa böyüyün diqqətini çəkmək məqsədilə, bacı-qardaşla və ya başqa uşaqla rəqabət, bərk-bərk yapışmaq, tez-tez ağlamaq və mızıldanmaq; müstəqil yerinə yetirdiyi əməllərdə böyüyün yardımı və cəlb olunmasını tələb edir, məs., onu geyindirmələrini və yedizdirmələrini tələb edir<br>• **Fizioloji reaksiyalar:** baş ağrısı, eşitmə və görmə ilə bağlı şikayət, tez-tez qaşınmaq, ürək bulanması hissi, yuxunun pozulması, gecə dəhşətləri<br>• **emosional/davranış reaksiyaları:** məktəb fobiyası, yoldaşların və kiçik qrupların arasından təcrid edilmə, ailə üzvləri ilə ünsiyyətin azalması, qıcıqlanma, qaydalara əməl edilməməsi, müxtəlif növdə qorxu (məs., hər hansı bir ailə üzvünün xəstələndiyində, özü də xəstələnəcəkdir), aqressiv davranış, onun üçün travmatik hadisə, fakt, təcrübə, itki və ya emosiya barəsində təkrar söhbət | • əlavə diqqət verin və onun fiziki rahatlığını təmin edin<br>• şagird üçün yaşa uyğun davranışı pozitiv bərkidin<br>• məktəbdə davamiyyət və başqa fəallıqlarla bağlı tələbləri müvəqqəti yumşaldın və ya azaldın<br>• şagirdi inandırın ki, kompetensiya və yerinə yetirmə səviyyəsi ona qayıdacaqdır (məs.: narahatçılıq fonunda diqqətini cəmləşdirməkdə çətinlik çəkirsə, bu halda onu tərifləyin və deyin ki, bu konkret fəallıq hər zaman onda yaxşı alınırdı və siz əminsiniz ki, tezliklə yenə də yaxşı bacaracaqdır)<br>• Strukturkaşdırılmış, amma mülayim tələblər rutinini və məsuliyyətləri təmin edin, uşağı fiziki fəallıqlara həvəsləndirin<br>• Şagirdi fiziki fəallığa həvəsləndirin<br>• Qrupda müxtəlif növ emosiyaları və bunlarla ayaqlaşma strategiyalarını təhlil edin (məs., qrupda qorxunu təhlil edin və şagirdləri cəlb etməklə və diskussiya ilə ayaqlaşma strategiyalarını müzakirə edin)<br>• Həmyaşıdlarla və ya böyüklərlə oyun sessiyalarını təmin edin, rollarla oyun zamanı gigiyenaya əməl edilməsi və təhlükəsizlik qaydalarını oynayın<br>• Lazım gəldiyi halda, valideynlə uşağın emosional vəziyyəti ilə bağlı narahatçılığınızla paylaşın və mütəxəssisə müraciət etməsini tövsiyə edin |
| **11-14 yaş** | • **Reqressiv reaksiya:** valideynin və ya başqa böyüyün diqqətini çəkmək məqsədilə, bacı-qardaşla və ya başqa uşaqla artmış rəqabət, rutin və məsuliyyətin yerinə yetirilməsi çətinliyi<br>• **Fizioloji reaksiyalar:** baş ağrısı, şikayət, qeyri-müəyyən ağrılardan şikayətlənmə, həddən çox yemək və ya iştahanın itirilməsi, mədə-bağırsaq sisteminin çətinlikləri, dəri pozuntuları, yuxu pozuntuları<br>• **emosional/davranış reaksiyaları:** həmyaşıdlarla birlikdə fəallıqlara cəlb olunma çətinlikləri, dərs nailiyyəti səviyyəsinin zəifləməsi, destruktiv davranış, hobbi və istirahətə qarşı marağın azalması (qanunlara və qaydalara əməl etmir); həmyaşıdlarla, bacı-qardaşlarla və valideynlərlə ünsiyyət prosesində çətinliklər, | • nəzarətə deyil, pozitiv ünsiyyətə və əhval-ruhiyyəyə əlavə diqqət yetirin<br>• Təlimdə maneələri olduğu halda, şagirdi əmin edin ki, bilgi və yerinə yetirmə səviyyəsi qayıdacaqdır<br>• Evdə və məktəbdə tələbləri müvəqqəti olaraq yumşaldın və ya azaldın, yaxud da dəyişdirin<br>• • Strukturlaşdırılmış, lakin ciddi olmayan rutinləri və məsuliyyətləri təmin edin<br>• Şagirdin fiziki fəallıqlara cəlb olunmasını həvəsləndirin<br>• Şagirdin emosional ifadəetməsini şifahi və yazılı şəkildə həvəsləndirin<br>• Şagirdi onun emosional rifahına kömək edəcək müxtəlif qrup və ya məktəb fəaliyyətlərində iştirak etməyə həvəsləndirin |

| Yaş | Stresə reaksiya | Dəstək strategiyaları |
|---|---|---|
| | məyusluq, depressiya, anti-sosial davranış (məs., oğurluq, yalan və s.) | • Şagirdin sosial interaksiyasını həvəsləndirin<br>• Həmyaşıdlarla və ya böyüklərlə gigiyenaya əməl edilməsi və təhlükəsizlik qaydalarını oynayın (şagirdlərin yaş qrupu üçün müvafiq oyunlarla).<br>• Lazım gəldiyi halda, valideynlə uşağın emosional vəziyyəti ilə bağlı narahatçılığınızla paylaşın və mütəxəssisə müraciət etməsini tövsiyə edin. |
| **14-18 yaş** | • **Reqressiv reaksiya:** məsuliyyətli davranışın azaldılması, yaşa uyğun valideyn nəzarətinə qarşı mübarizənin azaldılması, sosial maraqların və fəallıqların azaldılması<br>• **Fizioloji reaksiyalar:** həzm sisteminin və sidik kisəsinin fəaliyyətindən şikayət, baş ağrısı, dəri səpkisi, yuxu pozuntuları, izah edilməmiş fiziki şikayətlər və ya fiziki problemlərin olmasının şişirdilmiş qorxusu<br>• **emosional/davranış reaksiyası:** fiziki fəallıqda nəzərə çarpan dəyişiklik, məs., çox artırılmış və azaldılmış fəallıq. Natamamlıq və müdafiəsizlik hissi, acizlik hissi, anti-sosial davranış (oğurluq və ya vandalizm), planlaşdırılmış fəallıqlara qarşı zəifləmiş diqqətin cəmləşdirilməsi, depresiya, izolyasiya | • Şagirdi həvəsləndirin ki, öz təcrübəsi barəsində valideyni ilə söhbət etsin<br>• Evdə və məktəbdə nailiyyət gözləntisini müvəqqəti azaldın<br>• Sosial fəallıqlara cəlb olunmanı/qayıdışı həvəsləndirin<br>• Şagirdin həmyaşıdlarla və ya böyüklərlə sosial interaksiyasını həvəsləndirin<br>• Şagirdi həvəsləndirin ki, onun emosional firavanlığına dəstək verən müxtəlif qrup və ya məktəb fəallığında iştirak etsin<br>• Lazım gəldiyi halda, valideynlə uşağın emosional vəziyyəti ilə bağlı narahatçılığınızla paylaşın və mütəxəssisə müraciət etməsini tövsiyə edin. |

Hər bir şagird fərdidir, belə ki, qeyd edilən davranışların arxasında siyahıda göstərilməyən başqa növdə davranış ayırd edilə bilər. Müvafiq olaraq, müəllim hər zaman diqqətli olmalıdır ki, şagirdin cüzi dəyişikliyi də nəzərdən kənara qalmasın.

## Unutmayın!

Yuxarıda qeyd edilən və ya başqa davranışın ayırd edildiyi halda şagirdlə dalaşmayın. Dialoq, söhbət, ünsiyyət qurmaq vasitəsilə onun emosional vəziyyətini ayırd etməyə çalışın və davranışın pozitiv idarəetməsinin və ya emosiyaların tənzimləmə strategiyalarından istifadə etməklə yardım göstərin.

Müəllim kəskin ayırd edilən əlamətləri təsbit edən kimi, mütləq valideynə və məktəbdəki mütəxəssisə (məs., psixoloqa) müraciət etməlidir ki, vaxtlı müdaxilə edilsin və şagirdin firavanlığı üçün təhlükə yaranmasın.

# Şagirdi məktəbə necə hazırlayaq?

## *Ümumi tövsiyələr:*

- Şagirdin birinci sinfə getdiyi halda, müəllim valideynin şagirdlə dialoqunu həvəsləndirir; məktəb haqqında suallar vermək lazımdır ki, şagirdin hansı gözləntisi var; onun mühit, rutin, bir sıra hallarda, dəyişikliklərə qarşı əvvəlcədən əhval-ruhiyyəsi yaranmalıdır.
- Müəllim və ya valideyn əvvəlcədən şagirdi məktəbin istifadə etdiyi tədris modeli ilə tanış edir (əlaqəli, distant, hibrid)
- Müəllim və ya valideyn şagirdi tədris modelinin müvafiq gündəlik rutini ilə tanış edir, müxtəlif önəmli bəndləri nəzərə almaqla, məsələn:

| İştiraklı tədris modeli | Distant tədris modeli | Hibrid tədris modeli |
|---|---|---|
| • Səhər məktəbə gəliş vaxtı<br>• Məktəbə giriş vaxtı həyata keçirilən rutin və prosedurlar (şagirdin ibtidai sinifdə olduğu halda, şagird və valideyn bir-birindən harada ayrılır və s.)<br>• Müəllim kim olacaqdır (valideynlərlə əyani yolla və ya internet vasitəsilə əvvəlcədən görüşün təşkil edilməsi arzu edilir)<br>• sinifdə təxminən neçə şagird olacaqdır<br>• sinfin rutini və fəallıqları nə olacaqdır<br>• məsələn, idman kimi dərslər necə keçiləcəkdir<br>• əllərin yuyulması, hərarətin ölçülməsi ilə bağlı prosedurlar<br>• evə getmək vaxtı və prosedurları | • Hansı növ onlayn görüşlər olacaqdır (fərdi və ya birləşdirilmiş)<br>• Onlayn qoşulmalar haqqında təlimatlar<br>• Offline qəbul edilən resursların və ya teleməktəb dərsləri haqqında təlimatlar<br>• konkret məktəb dərslər üçün hansı platformadan istifadə edir<br>• Şagirdlərə tapşırıqlar necə çatdırılacaqdır (təxminən hansı növ fəallıqların çatdırılması planlaşdırılır və tapşırıqların cavablandırılması necə baş verəcəkdir)<br>• Şagird onlayn fəallıqlara necə cəlb olunmalı və bu prosesdə valideynə hansı rol həvalə edilir<br>• müəllim tərəfindən distant çatdırılan resursları necə qəbul etməlidir<br>• dərslərin cədvəli necə olacaqdır (həm onlayn, eləcə də iştiraklı tədris zamanı) | • İştiraklı və distant tədris bölgüsünün cədvəli (həftənin günlərinin və ya günün hissələrinin)<br>• iştiraklı tədris günləri zamanı iştiraklı dərs cədvəlindən məlumat<br>• Distant tədris günləri zamanı distant dərs cəvəlindən məlumat |

- Müəllim valideynə müxtəlif strategiyanı çatdırır ki, şagirdlə viruslar, bakteriyalar və bununla bağlı prosedurlar haqqında onun yaş qrupu üçün aydın dildə və vasitələrlə söhbəti necə aparmaq olar. Qeyd edilən xüsusilə də ibtidai sinif şagirdlərinə aiddir. Bu halda da, sözügedən strategiyanın istifadəsi mümkündür. Yaxşı olardı ki, müəllim valideynə şagirdin yaşı və inkişafına uyğun qeyd edilən mövzu üzrə ədəbiyyatı çatdırsın və ya oxşar materialın yerləşdiyi internet səhifəni göstərsin (şəkillər, elektron kitab, video və s.)
- Vacibdir ki, müəllim də, valideyn də şagirdə məktəblə və məktəbdə həyata keçirilən dəyişikliklərlə bağlı həqiqətə maksimal yaxın məlumatı çatdırsın; əks halda, şagirdin gözləntisi fərqli olacaq və onun ümidləri boşa çıxacaqdır və bu da öz növbəsində, şagirdin cəlb olunması və davranışında özünü göstərəcəkdir. Müvafiq gözlənti şagirdin cəlb olunmasına, müsbət davranışa, qaydalara və rutinə qarşı açıqlığın olmasına dəstək verir.
- Baza və orta pillənin şagirdləri ilə münasibətdə yaxşı olardı ki, müəllim valideynə nəyə diqqətin yönəldilməsini (məsələn, vətəndaş məsuliyyəti) tövsiyə etsin ki, ailənin yaşlı üzvləri və yaxınlarının sağlamlığı üçün qaydalara əməl edilməsi nə dərəcədə vacibdir.

# Dərs prosesinin başlanğıcı

### *Müəllimlər üçün tövsiyələr:*

- Dərs ilinin ilk dərslərini təlim-tədris formatı ilə bağlı dəyişikliklərin müzakirəsi, fərdi gigiyena, təhlükəsizlik üzrə (qaydalara əməl edilməsi nə üçün vacibdir, özümüzü bakteriyalardan və viruslardan necə qoruyuruq) qrup diskussiyaları kimi fəallıqlara ayırmaq daha yaxşı olardı. Sözügedən üçün ibtidai siniflərdə cizgi filmlərindən, animasiyalardan, hekayələrdən istifadə etmək olar. Yeniyetmələrlə qrup diskussiyaları, fərdi söhbətlər həyata keçirilə bilər, mütəxəssisə yönləndirilə bilər (lazım olduğu halda).
- Baza və orta pillənin şagirdləri arasında vətəndaşlıq məsuluyyəti, alternativlər vurğulanmalıdır ki, şagirdlər qocalara necə dəstək ola bilərlər. Müəyyən layihələr planlaşdırıla bilər ki, bunlar da sözügedən mövzu ilə əlaqəli olacaqlar.
- Müəllim baza və orta pillələrin şagirdləri ilə birlikdə dəstək, başqalarına yardım, müxtəlif vəziyyətə reaksiyanın göstərilməsi kimi mövzuları (məs., dostu xəstələndi, məktəbdə kiminsə temperaturu qalxdı və s.) vurğulamalıdırlar.
- Yuxarıda qeyd edildiyi kimi, baza və orta pillənin şagirdləri qaydalara əməl edilməsinə qarşı çıxa bilərlər, məsələn, “yoluxsam da, mənimlə heç nə olmaz”, “ailəmizdə hamı gəncdir” və s. Onlarla diskussiyalar aparmaq lazımdır ki, bu qədər əminliyə baxmayaraq, bir çox insanın təhlükəsizliyi üçün mövcud qaydalara və rutinə əməl etmək lazımdır.
- Dərs prosesinin başlanğıc mərhələsində tövsiyə edilir ki, sinifdə təcrübə ilə paylaşmaya, “Təhlükəsizliyə əməl edilmə”, “Streslə ayaqlaşma strategiyaları” (şagirdlərin strategiyaları) mövzuları üzrə qrup müzakirələrinə vaxt ayrılsın, amma qeyd etmək lazımdır ki, sinifdə bullinqin azaldılması və müəllim tərəfindən düzgün fasilitasiya üçün yaxşı olardı ki, müvafiq mütəxəssisə müraciət edilsin, məsələn, məktəbin psixoloquna, Mandatura Xidməti nəzdində mövcud psixoloji yardım psixoloqlarına, Gürcüstan Təhsil, Elm, Mədəniyyət və İdman Nazirliyinin intizamlararası dəstənin psixoloqlarına. Məqsədəuyğundur ki, müəllim bu mütəxəsisləri cəlb etməklə qeyd edilən görüşlərin fasilitasiyasını həyata keçirsin.
- Yaxşı olardı ki, müəllimlər psixoloqlarla konsultasiya keçsinlər (məktəbin psixoloqu, Mandatura Xidməti nəzdində mövcud psixoloji yardım psixoloqları, Nazirliyin intizamlararası dəstəsinin psixoloqları) ki, şagirdlər arasında stres əlamətlərini eyniləşdirə bilsinlər və bununla mübarizənin müəyyən strategiyalarına sahib olsunlar və ya lazım gəldiyində, şagirdi və ya valideyni müvafiq mütəxəssisə yönləndirsinlər.
- Vacibdir ki, məktəbin cədvəli, məktəb qaydaları və rutin haqqında müəllimin çatdırdığı məlumatla sinif şagirdləri və onların valideynləri birlikdə tanış olsunlar. Bu məlumat növbətiləri əhatə edə bilər: səhər yuxudan durma vaxtı, səhər rutini, məktəbə getmək vaxtı, məktəbə giriş rutini və prosedurları, müəllim kim olacaqdır (foto, telefon və ya internet görüş əvvəlcədən), sinifdə şagirdlərin sayı, sinif və məktəb qaydaları, həyətə çıxış, əllərin yuyulma prosedurları. Valideynin cəlb olunması xüsusilə ibtidai sinif və xüsusi təlimə ehtiyacı olan şagirdlər üçün vacibdir.

# Valideynlərin cəlb olunması və psixi-sosial dəstəyin əhəmiyyəti

Şagird məktəbə birinci dəfə getdikdə, valideynləri xüsusi həyəcan xarakterizə edir. Bu zaman valideyn bilmir ki, şagird müəllimə, dərs prosesinə, həmyaşıdlarına necə öyrəşəcəkdir, dərs proqramı ilə ayaqlaşa biləcəkdirmi və s. COVID 19 pandemiyasının səbəb olduğu vəziyyətə görə, sözügedən stres məsələlərinə uşağın fiziki və emosional təhlükəsizliyi əlavə olunur. Valideyn narahat olur ki, onun övladı məktəbdə fiziki və emosional cəhətdən nə qədər mühafizə olunur. Müvafiq olaraq, övladı yeni dərs ili üçün hazırlaşan hər bir valideynə müəyyən dəstək lazımdır ki, əvvəlcədən bir sıra məsələlərlə tanış olsun, dərs prosesi ilə bağlı lazımi gözlənti qursun və pandemiyaya görə yaranmış qeyri-adi qaydaların və tənzimləmələrin çərçivəsində fəaliyyət tərəfindən hazır olsun.

Məktəb administrasiyası valideynin daha çox cəlb olunması üçün seçilmiş tədris forması və strategiyaların ümumi qaydaları, dəyişdirilmiş rutin (Gürcüstan Səhiyyə Nazirliyi tərəfindən işlənib hazırlanmış tövsiyələrə və tənzimləmələrə istinad edir) haqqında məlumatla onu tanış edir. Vacibdir ki, gələcək şagird və ya ona qayğı göstərən şəxslər həm artıq mövcud, eləcə də gözlənilən dəyişikliklər haqqında lazımi məlumatlı olsunlar və bu da gündəlik həyatı daha proqnozlaşdırılmış edir və həm şagirdin ailə üzvlərinin, eləcə də məktəb personalının lazımi hazırlığını və səfərbərliyini formalaşdırır.

## *Valideynin dəstəyi ilə şagird məktəbə necə hazırlaşır?*

Həyatın bütün mərhələsində şagirdin inkişafı üçün ən önəmli komponentdən birini emosional firavanlıq təqdim edir. Dəstək, təhlükəsizlik, xoşbəxtlik hissinin olduğu halda, şagirdin motivasiyası olur ki, bu və ya digər fəallığa qoşulsun, özünü müxtəlif mühitdə təhlükəsiz hiss etsin, eksperimentlər keçirsin, yenilikləri öyrənməyə həvəsli və maraqlı olsun. Şagirddə təhlükəsizlik və yeni mühitə mənsubiyyət hissi olduğunda, özünü rahat hiss etdiyində və firavanlıq hissi olanda, həm müəllimlərə, eləcə də həmyaşıdlarına qarşı xoş davranır və təklif edilən fəallıqlara cəlb olunmasına hazır olduğunu göstərir.

Emosional firavanlıq, təhlükəsizlik və aidiyyat hissinin yaradılmasına məktəbə getməzdən öncə qayğı göstərilməlidir. Məktəbə və onun rutin həyatına olan ilkin əhval-ruhiyyə və hazırlıq nəinki şagirdin emosional firavanlığına dəstək verir, eləcə də onun tədris prosesinə cəlb olunmasında birbaşa öz əksini tapır. Şagird nə qədər çox hazırlıqlı olarsa, bağça rutinini, gözlənilən fəallıqları bilərsə, prosesə cəlb olunan şəxslərin kim olduğunu və ətraf mühitdən nəyi gözləyəcəyini bilərsə, bu halda yeni mühitə daha sürətlə və ağrısız adət edəcək, onda yeniliyin (mühit, insanlar) səbəb olduğu stres azalacaq və tədris prosesinə həvəslə qoşulacaqdır. COVID 19 şərtlərində şagirdin məlumatlandırılması daha önəmlidir ki, təhsil müəssisəsində onu hansı mühit, fəallıqlar, rutin və prosedurlar gözləyir. Bunun üçün məktəbin nümayəndəsi valideynə ətraflı məlumat verməli və şagirdi hazırlaşdırmaqda ona yardım etməlidir.

## Dərs prosesində maksimal şəkildə xoş emosional mühiti necə yaradaq?

Unutmamalıyıq ki, məktəbin məqsədi nəinki akademik bilik vermək, eləcə də koqnitiv, funksional və ilk öncə, şagirdin emosional firavanlığına və sosial, kommunikasiya qabiliyyətlərinə dəstəyin verilməsidir. Müvafiq olaraq, mövcud vəziyyətin səbəb olduğu fiziki məsafəyə baxmayaraq, məktəbin əsas məsələsi ondan ibarətdir ki, şagirdlər arasında sosial interaksiyanı və kommunikasiyanı qoruyub saxlasın və həvəsləndirsin. Qrupa aidiyyat hissinin artırılması üçün şagirdin həmyaşıdlarla sosial interaksiya qurması vacibdir. Aidiyyat hissi təməli və əsas duyğulardan biridir və konkret kontekstdə şagirdin emosional firavanlığına səbəb olur. Baza və orta pillələrin şagirdləri sosial interaksiya qurmağı çox arzulayırlar, onlar üçün həmyaşıdları ilə aktiv kommunikasiya xüsusilə önəmlidir; bu cəhətdən, məktəbin rolu təhlükəsiz interaksiya və kommunikasiya bacarıqlarının inkişafı olacaqdır, xüsusilə də məktəb çərçivəsində.

## *Müəllimlər üçün tövsiyələr:*

- İbtidai siniflərdə gündəlik rutini və qaydaları əks etdirən əyani vəsaitləri divara yapışdırın (məs.: içəri daxil olanda temperaturunu ölçürlər, sonra dezinfeksiya məhlulunu tökürlər, yeməkdən öncə və yeməkdən sonra əllərini yuyurlar və s.), çünki vizual yardımçı vasitələr şagirdə məlumatı mənimsəməkdə yardım edir. Sözügedən material daha çox yadda qalacaq, əgər şagirdlə birlikdə rəngli vərəqlərin, karandaşların və şəkillərin vasitəsilə onu hazırlayacaqsınız. Bu yolla şagirdin özü qaydaların işlənib-hazırlanmasında iştirakçı olacaq və bunları daha çox nəzərə alacaqdır. Divara yapışdırılmış yazılı formalı

qaydalardan yuxarı sinif şagirdləri üçün istifadə edə bilərsiniz, bunları da onlarla birlikdə tərtib edə bilərsiniz.
- Şagirdləri həvəsləndirin ki, verbal kommunikasiyanı qursunlar; kiçik qruplarda fəallıqlar hazırlayın ki, bunda da onların növbəyə riayət etməyi, başqasının mövqeyini nəzərə almağı, öz mövqelərini ifadə etməyi, qaydalara əməl etməyi öyrənmək imkanları olsun. Yuxarı sinif şagirdləri üçün kiçik qruplarda müxtəlif layihələrdən istifadə edin. Bu layihələr onlara pozitiv kommunikasiya yaratmaqda yardım edəcəkdir.
- Şagirdə emosiyalarını ifadə etmək imkanını verin. Əgər əllərini yumaqla və temperaturu ölçməklə bağlı mütəmadi suallar verirsə, onun sualını cavabsız qoymayın, eyni sualın tez-tez verilməsi çox həyəcana işarə edə bilər və sizin cavablar, əhval-ruhiyyə, emosional paylaşma və empatiklik bu zaman ona sakitləşdirici təsir göstərə bilər.
- Yuxarı sinif şagirdləri arasında baş qaldıran müxtəlif çətin davranış zamanı onlarla pozitiv kommunikasiya qurmağa çalışın, onları dinləyin. COVID-19-un səbəb olduğu həyəcanla bağlı anonim qutu düzəldə bilərsiniz ki, şagirdlər də bu qutuya öz qorxularını, streslərini, emosiyalarını atsınlar və bunlarla mübarizə mexanizmlərini də sinif birlikdə müzakirə edə bilər (qeyd edilən fəallığın həyata keçirilməsinə məsuliyyəti üzərinə məktəbin psixoloqu götürə bilər – belə birinin olduğu halda).
- Yuxarı sinif şagirdləri ilə “empatiya, duyğusallıq, müxtəlif vəziyyətdə dəstək” kimi məsələləri təhlil edin (məsələn, dərs prosesində şagirdlərdən birində COVID-19 və ya başqa növ virus tapılarsa).

## Şagirdin məktəbdə olduğunda yüksək temperaturu təsbit edilərsə (37$^0$ və ya daha yüksək)

Gürcüstanın səhiyyə tənzimləmələrinə uyğun olaraq, məktəbdə olan şagirddə hərarət təsbit edilərsə, müəllim onu izolyasiya otağına keçirməlidir. İzolyasiya zamanı növbətiləri nəzərə alın:

- Şagirdi sinifdən sakit hərəkətlərlə və söhbət tərzi ilə çıxarın
- Şagirdə izah edin ki, onun sinifdən çıxarılma səbəbi hərarətinin yenidən yoxlanılmasıdır. Sinifdə qalan şagirdlər tərəfindən suallar verildiyində eyni izahatı verirsiniz.
- Yuxarı sinif şagirdində temperatur müşahidə olunarsa, nəzərə alın ki, sinifdən çıxarılması təklifinə qarşı müqavimət göstərə, cavab qaytara, etiraz edə bilər və s. Səbrli olmalısınız, ona məktəbdə mövcud qaydaları, sinfi tərk etmə tələbini xatırladın, pozitiv və dəstəkverən olmağa çalışın (şagirddə təsbit edilən temperatur fonunda qorxu, həyəcan hissi yarana bilər).
- İzolyasiya otağında müəyyən vaxt olduqdan sonra, şagird otaqdan çıxmağı və ya məktəbdən evə getməyi tələb edə bilər – bu halda yenə də ona məktəbin və Gürcüstanın İşğal Edilmiş Ərazilərindən Qaçqınların, Əmək, Səhiyyə və Sosial Müdafiə Nazirliyi tərəfindən işlənib hazırlanmış qaydaları izah edin, onun vətəndaş öhdəliklərini xatırladın, empatik, azarkeş olun və sizinlə birlikdə valideynini gözləməyi xahiş edin.
- Çalışın ki, şagird haqqında məlumatı valideynə onsuz çatdırasınız, amma şagird valideynlə əlaqə saxlamağı və danışmağı xahiş edərsə, o zaman ona bu imkanı verin.
- Valideynə məlumat verərkən, sakitliyi qoruyub saxlayın.
- Şagirdlə birlikdə sakitcə valideyni gözləyin.

# XÜSUSİ TƏLİMƏ EHTİYACI OLAN ŞAGİRDLƏRİN TƏDRİS PROSESİNİN TƏŞKİLİ ÜÇÜN TÖVSİYƏLƏR

Məlumat kitabçasının qarşıdakı hissəsi ölkədə mövcud epidemioloji vəziyyət şərtlərində xüsusi təlimə ehtiyacı olan şagirdlərin dərs prosesinin effektiv və təhlükəsiz təşkili üçün əlavə tövsiyələri nəzərdən keçirir ki, bunları nəzərə almaq da məqsədəuyğundur.

Məlumat kitabçasında təhsil prosesinin təşkili və həyata keçirilməsinin əsas məsələləri analiz edilmişdir:

a) əyani tədrisə qayıdış halında;
b) distant tədris halında, bunun tamamilə elektron onlayn, asinxron və ya hibrid aparılan dərs prosesi olduğunda*.

Təhsilin verilən məqamda hansı forma ilə həyata keçirildiyi haqqında qərar ölkədə mövcud epidemioloji vəziyyəti nəzərə almaqla Gürcüstanın İşğal Edilmiş Ərazilərindən Qaçqınların, Əmək, Səhiyyə və Sosial Müdafiə Nazirliyinin tövsiyələrinə əsaslanır (Baxın, Gürcüstanın ümumtəhsil müəssisələrində dərs prosesinin distant aparılması və alınan nəticələrin qiymətləndirilmə qaydası).

## a) Əyani tədrisə qayıdış

Hal-hazırda Gürcüstanın ictimai məktəbləri əyani dərs prosesinə qayıdırlar. İctimai məktəblərin dərs mühiti və prosesində yeni tənzimləmələri və qaydaları bərqərar etməli olduqlarını nəzərə alsaq, o zaman tədrisin başlanılmasına qədər hazırlıq mərhələsi xüsusi əhəmiyyət kəsb edir.

Sözügedən mərhələnin tərkib hissəsi məktəbdə xüsusi təlimə ehtiyacı olan şagirdlərin ehtiyaclarının dərin analizi və əyani dərs prosesinin fərdi planlaşdırılması/təşkilidir.

Hər bir xüsusi təhsilə ehtiyacı olan şagirdin məsələsinin fərdi təhlili məqsədilə, məktəb müdiriyyəti cədvəl işləyib hazırlamalı və təhsil prosesinin başlanılmasına qədər ən azı bir həftə əvvəl qrupda işçi görüşlər təşkil etməlidir. Sözügedən görüşlərdə iştirak etməlidirlər: şagirdin sinif rəhbəri, fənn müəllimləri, xüsusi müəllim və ya psixoloq, valideyn və şagirdin dərs prosesinə cəlb olunmuş başqa mütəxəssislər.

Görüşlər həm üzbəüz, eləcə də distant, elektron platformalardan istifadə etməklə həyata keçirilə bilər (məs., valideynin dərs ilinin başlanılmasına qədər yerində olmadığı halda).

Özəlliklə də, yenicə təhsilə başlayan xüsusi təlimə ehtiyacı olan şagirdlərin dərs proseslərinin planlaşdırılması vacibdir. Valideynlərlə birlikdə birinci sinif şagirdlərinə qeyd edilən dərs ili üçün daha çox dəstək və hazırlıq lazım ola bilər. Təcrübəsiz olduqlarına görə, təhsil prosesi başlayana qədər, valideynləri bir çox suallar narahat edir – şagird yeni mühitə və həyatın yeni mərhələsinə necə öyrəşəcəkdir, hansı dəstəyi alacaqdır, onu kimlər dəstəkləyəcəkdir, onun üçün məktəb nə dərəcədə təhlükəsizdir və s.

* Gürcüstanın ümumtəhsil müəssisələrində dərs prosesinin distant aparılması və alınan nəticələrin qiymətləndirmə qaydası.

*Pandemiya şərtlərində məktəbdə effektiv tranzisiya məsələlərini ətraflı öyrənmək üçün "Mən məktəbə gedirəm – məktəbdə tranzisiya üçün necə hazırlaşım" məlumat kitabçası ilə tanış ola bilərsiniz*[*].

**Görüşlərin məqsədini təhsil prosesinin təhlükəsiz və şagirdə yönəldilərək başlanılması və həyata keçirilməsi məqsədilə, təhlükəsizlik məsələlərinin, şagirdin psixi-emosional vəziyyətinin, inkişaf tərəqqisinin təhlili və hərəkətin razılaşdırılmış planının işlənib hazırlanması təşkil edir.**

Diskussiya növbəti məsələlərə aid olacaqdır:

**Təhlükəsizlik məsələləri**

## Valideynlərin təhlükəsizliyin tənzimləmələri ilə tanışlığı[**]

Məqsədəuyğundur ki, birbaşa görüş zamanı, valideynlərə yeni əlavə tənzimləmələr haqqında ətraflı informasiya çatdırılsın və diskussiya rejimində bunlar üzərində iş aparılsın.

Məktəb müəyyən edilmiş tənzimləmələrin valideynlərə əlçatan olması üçün sözügedən tənzimləmələri valideyn üçün informasiya mətni şəklində adaptasiyasını təmin etməlidir. Üstünlük kitabçanın elektron variantının yayılmasına verilir. Valideynin elektron poçtunun olmadığı halda, ona çap edilmiş kitabça veriləcəkdir.

Görüşdə məktəb nümayəndələri nəinki informasiyanın ötürülməsinə, eləcə də valideyn üçün çatdırılan məlumatın aydın və qəbul edilən olmasının yoxlanılmasına yönəlməlidirlər. Vacibdir ki, valideynə ona aktual olan sualları vermək və ətraflı cavablar almaq imkanı verilsin. Valideynin verdiyi sualların məktəb nümayəndələrinin səlahiyyətindən kənara çıxdığı halda, məqsədəuyğun olardı ki, valideyn üçün maraqlı məsələləri proaktiv dəqiqləşdirən və təyin edilən vaxtda cavabları təqdim edən məktəb nümayəndəsi təyin edilsin.

## *Şagirdin sağlamlığı ilə bağlı məsələlərin təhlili*

Məqsədəuyğundur ki, məktəb tərəfindən şagirdin sağlamlıq vəziyyətinin nəzərə alınması ilə yüksək risk qrupuna aid olub-olmadığı; şagirdi müalicə edən həkim tərəfindən təhlükəsizliyin müdafiəsinin fövqəladə tövsiyələri müəyyən /edilib-edilmədiyi, hansılar məktəb tərəfindən nəzərə alınmalıdır; valideynin təhsil prosesində uşağın evdə/distant tədrisinə üstünlük verib-vermədiyi, qeyd edilənin təşkilinin necə mümkün olduğu, buna nəyin səbəb olduğu və s. yoxlanılsın.

Xüsusi təlimə ehtiyacı olan şagird üçün onun fərdi ehtiyaclarını nəzərə almaqla distant və ya evdə tədris modelinin tətbiqi müəyyən edilə bilər, – məktəbin əyani tədrisə yönəlməsinə baxmayaraq. Bu halda qərar şagirdin ehtiyaclarının və sağlamlıq vəziyyətinin kompleksli öyrənilməsinə istinad etməli və məktəb onu şagirdi müalicə edən həkimin tövsiyələri əsasında və inklüziv təhsilin intizamlararası dəstəsinin iştirakı ilə qəbul etməldir.

* http://inclusion.ge/res/docs/2020071518513480506.pdf

** Gürcüstanın İşğal edilmiş Ərazilərindən Qaçqınların, Əmək, Səhiyyə və Sosial Müdafiə Nazirliyinin tənzimləmələri – yeni koronavirusun (SARS-CoV-2) səbəb olduğu infeksiya ilə (COVID-19) bağlı ümumtəhsil müəssisələri üçün ümumi tövsiyələr.

## *Dəstəkləyici mütəxəssisin müəyyən edilməsi*

Təhsil prosesini planlaşdırdıqda, mütəxəssislər və valideynlər tərəfindən şagirdin imkanlarının qiymətləndirilməsi və tənzimləmələrə riayət etdikdə, uşağın həmyaşıdları ilə müqayisədə nə dərəcədə çox və ya fərqli dəstəyə ehtiyacı olduğunun müəyyən edilməsi məqsədəuyğundur.

Lazım gəldiyi halda, şagirdin təhlükəsiz məsafəyə, gigiyena prosedurlarına, davranış qaydalarına əməl etməsinə dəstək verəcək mütəxəssislərin eyniləşdirilməsi önəmlidir. Onlar şagirdin qeyd edilən prosedurlara əməl etməsinə monitorinq keçirə bilərlər.

Şagird üçün xüsusə müəllimə asistent təyin edilmişdirsə, həmin şəxs nəinki sinifdə (dərsdə), eləcə də ümumiyyətlə, məktəbdə olduğu müddətdə distant və gigiyena prosedurlarına əməl edilməsinə qayğını təmin edir.

Digər halda tövsiyə edilir ki, məktəb valideynlə birlikdə qərar qəbul etsin ki, bu məsuliyyəti kim götürəcəkdir – sinif rəhbəri, hər hansı bir fənn müəllimi və ya xüsusi müəllim/psixoloq. Məktəbdə bir neçə xüsusi müəlimin olduğu halda, qeyd edilən məsələlərin koordinasiyası məqsədilə onların konkret şagirdlə assosiativləşdirilməsi tövsiyə edillir. Eyni zamanda, məktəbdə çoxlu sayda xüsusi təlimə ehtiyacı olan şagirdlər vardırsa və onların əksəriyyəti intensiv dəstəyə ehtiyac duyurlarsa, bu halda, sözügedən məsələlərin tənzimlənməsi üçün məktəbin administrasiyası başqa müəllimlərin (və ya başqa şagirdin fərdi assistentinin) resursundan da istifadə edə bilər.

Eyni zamanda gigiyena prosedurlarını və onların tezliyini dəqiqləşdirmək məqsədilə, şagirdin köməkçi vasitələrinin (araba, əl çubuğu, yerimək üçün çərçivə, eynək, böyüdücü şüşə) əlavə dezinfeksiya edilməsi lazım gələ bilər.

Uşaqlardan bəzilərinə mühitlə daha intensiv fiziki əlaqə lazım gələ bilər (yerdəyişmə və ya görmə qabiliyyətinin çətinliyinə görə intensiv söykənmə və ya səthə taktil toxunma). Aşağıda nümunə şəklində cədvəl təqdim edilmişdir, hansına uyğun olaraq gigiyena prosedurlarına əməl edilməsinin qeyd forması hazırlana bilər ki, bu da müəllimə/xüsusi müəllimin assistentinə şagirdin şəxsi gigiyenasına əməl edilməsinə mütəşəkkil şəkil verəcəkdir.

| Şagird | Gigiyena prosedurlarının əməl edilməsinə kömək edən – cavabdeh şəxs – mövqe; ad/soyad | Qeyd |
|---|---|---|
| **A.B.** | | Çoxlu selik ifrazı müşahidə olunur, əlləri 20 dəqiqədə bir dəfə dezinfeksiya etmək lazımdır |
| **Q.D.** | | Əlil arabası ilə hərəkət edir, əl dəyən yerlərdə araba dezinfeksiya edilməlidir |
| **E.Q.** | | .... |

Əlbəttə ki, bu cür cədvəl işçi qrupun tərəfindən şagirdlərin ehtiyacları əyani göstərilən və resursların ağlabatan bölgüsü məqsədilə yaradılır. Lazımdır ki, cədvəl tam məxfi qalsın.

Valideynə şagirdə qeyd edilən dəstəyi göstərən şəxsin əlaqə məlumatı verilməlidir.

## Şagirdin yeni qaydalar haqqında məlumatlandırılması və hazırlığı

Məqsədəuyğundur ki, iş görüşlərində anlaşma əldə edilsin ki, yeni tənzimləmələr və davranış qaydaları haqqında hansı strategiya ilə, hansı forma ilə və kim tərəfindən şagirdin məlumatlandırılması və hazırlığı baş verəcəkdir.

Yeni qaydaları öyrətməkdən başqa şagirdə izah edilməlidir ki, onunla işləyən mütəxəssisin (xüsusi müəllim, xüsusi müəllimin assistenti və ya psixoloq) işi bir metrdən çox yaxınlaşmanı nəzərdə tutursa, o zaman həmin şəxs maskadan, əlləri ilə əlaqə saxlamalı olduğu halda isə, birdəfəlik əlcəklərdən istifadə edəcəkdir. (Baxın, yeni koronavirusun (SARS-CoV-2) səbəb olduğu infeksiya ilə (COVID-19) bağlı ümumtəhsil müəssisələri üçün ümumi tövsiyələr). Məlumatlandırma nəticəsində şagirddə qeyd edilən dəyişikliklərə qarşı açıqlıq olmalıdır (bu, müxtəlif fəallıqları həyata keçirməklə, vizual materialın istifadəsi ilə).

Şagirdin məlumatlandırılması üzrə məsuliyyəti valideynin özü, sinif rəhbəri və ya xüsusi müəllim/psixoloq götürə bilər. Əsas odur ki, məktəbdə bərqərar edilmiş yeni qaydalar haqqında şagird əvvəlcədən məlumat alsın və lazımi şəkildə məlumatlandırılsın.

- Şagirdə informasiyanın çatdırılması onun tərəfindən məlumatın qavranılması və dərk edilməsi xüsusiyyətlərinin nəzərə alınması ilə baş verməlidir;
- Yeni davranışın öyrənilməsi ev şərtlərində mümkündür və həyata keçiriləsi mühitdə bərkidilməlidir;
- Təhsil prosesinin başlanmasına qədər dezobaryerlə, məsafəni bildirən işarələrin eyniləşdirilməsi ilə, temperaturun ölçülməsi prosedurun tanışlığı və s. məqsədilə şagirdin məktəbə bir neçə dəfə viziti mümkün ola bilər;
- Tövsiyə edilir ki, məktəb şagird üçün münasib formada işlənilmiş təhlükəsizlik qaydaları haqqında məlumat kitabçasını işləyib hazırlasın ki, valideyni tanış etmək üçün şagirdə versin;

Bəzi halda tələbat yarana bilər ki, sözügedən məlumat kitabçası şagird üçün fərdi işlənilsin, məs., şəkillərin əvəzinə fotoşəkillərin istifadəsi, şriftin böyüdülməsi, braylda çap edilməsi və s.

### *Əlaqəli şəxsin eyniləşdirilməsi*

Məktəb tərəfindən təşkil edilmiş görüşlərdə valideyn tərəfindən məktəbdə şagirdin müəyyən simptomlarının baş qaldırdığı halda əlaqə saxlayacağı iki nəfər müəyyənləşdirilməlidir. İki nəfərin eyniləşdirilməsi ona görə lazımdır ki, valideyn bir şəxslə əlaqə saxlaya bilmədiyi halda, ikinci şəxslə əlaqə saxlasın.

## Distant tədris modellərinin və imkanlarının təhlili

Qeyd edilən görüşlərdə söhbəti onunla başlamaq olar ki, distant formaya keçməli olduğu halda, şagirdin təhsil prosesini necə təşkil etmək olar və ailə üzvlərinə rəqəmsal texnologiyaların istifadəsi, şagird üçün təhsil prosesinin təşkili, təlimatların çatdırılması, davranışın idarə edilməsi nöqteyi-nəzərindən treninq keçmək lazımdırmı və ya yox.

*Distant tədris prosesinin planlaşdırılması üçün analiz ediləsi məsələlər qarşıdakı kitabçanın növbəti fəslində verilir.*

İşgüzar görüşdə mütləq refleksiya həyata keçirilməlidir ki, ötən semestrin böhran vəziyyətində keçirilən təhsil prosesi ilə necə ayaqlaşıldı və həm şagirdin dərs nərticələrinin, eləcə də onun psixi-emosional vəziyyətinin analizi baş verməlidir.

İdeal halda, qeyd edilən məsələlər şagirdlə çalışan dəstə tərəfindən ötən ilin sonunda qiymətləndirilməli idi. Müvafiq olaraq, bu məsələlərin məktəb üçün məlum olduğu halda, hazırkı mərhələdə onlar üçün tətil prosesinin necə keçdiyini araşdırmaq önəmli olacaqdır ki, inkişaf dinamikası və psixi-emosional vəziyyət nöqteyi-nəzərindən, şagird müəyyən dəyişikliklər yaşamışdırmı və ya yox: əldə edilən biliyin gündəlik həyata transferi (funksional tətbiqi) baş tutmuşdurmu, yeni vərdiş-bacarıqlar mənimsənilmişdirmi və ya əksinə, müəyyən bacarıqların itirilməsi/unudulması baş vermişdirmi; şagirdin psixi-emosional vəziyyəti və davranışı necə idi və düzəliş oldumu və ya yox (bu sonuncunun böhran vəziyyətinə görə dəyişikliyə uğradığı halda) və hansı strategiyaların istifadəsi ilə düzəldi? Eyni zamanda valideyni dinləmək və onun fikri ilə paylaşmaq önəmlidir, – verilən anda şagirdə psixi-emosional dəstək və ya davranışının tənzimlənməsi lazımdırmı və ya yox. Eləcə də sözügedən məsələlərlə bağlı valideynə tövsiyələr lazımdırmı və ya yox.

Ehtiyacın eyniləşdirildiyi halda, məktəb şagirdi və valideyni dəstəkləndirmək üçün proaktiv işə başlamalıdır. Bunun üçün, ilk növbədə, məktəbin daxili resurslarının əsasında (psixoloq, xüsusi müəllim) problemi həll etməyə çalışmalıdır.

Məktəbin müvafiq peşəkar kadrı olmadığında və ya onların intervensiyası kifayət etmədiyində, yaxşı olardı ki, məktəbin vəsatəti ilə şagird və valideyn müvafiq kompetensiyaya malik intizamlararası dəstə üzvlərinə (hətta qeyd edilən dəstə üzvünün qeyd edilən ərazidə fəaliyyət göstərmədiyi halda da) və ya Müəllimlər Evinin əxlaq mütəxəssislərinə yönləndirilsinlər. Müvafiq olaraq, məktəbdə lazımi xidməti çatdıran təşkilatların məlumatlar bazası olmalıdır. Ailə şagirdin cəlb olunduğu sosial xidmətlərdən dəstək ala bilər.

Eyni zamanda növbəti mühiti nəzərə almaq lazımdır: əgər dərs ilində böhran vəziyyətinə görə, şagirdin fərdi dərs planında dəyişikliklər daxil edilmiş və onun üçün vəziyyətdən irəli gələrək əsas məsələ kimi yeni və müvəqqəti qısamüddətli məqsədlər müəyyən edilmişdirsə*, bu halda valideynlə birlikdə fərdi dərs planına qayıdış məsələsi mütəmadi təhlil edilməlidir.

Təbii ki, fərdi dərs planının tərtib edilməsi müvafiq standart prosedurlarına əməl edilməsi ilə həyata keçiriləcəkdir və bu da şagirdin keçdiyi fənn proqramları ilə münasibətdə dərin qiymətləndirilməsini, onun biliyinin aktual səviyyəsinin təyin edilməsini, fərdi dərs planı zərurəti haqqında qərarın qəbul edilməsini, planın tərtib edilməsini (uzun və qısamüddətli məqsədlərin dəqiqləşdirilməsini) və bu prosesdə valideynin perspektivinin nəzərə alınmasını bildirir.

## *Xüsusi təlimə ehtiyacı olan uşaq üçün tədris mühitinin, materialın və gigiyena əşyalarının təşkili*

Xüsusi təlimə ehtiyacı olan şagirdin bir və ya birdən çox kiçik qruplarda resurs otağında təşkil edilən təlim prosesinə cəlb olunduğu halda, məktəb müdiriyyəti və şagirdin fərdi dərs prosesinə cavabdeh şəxs qeyd edilən prosesdə uşağın istifadə etdiyi əşyalardan təhlükəsiz istifadə qaydalarını işləyib hazırlamalıdır ki, şagird dərs zamanı istifadə etsin (xüsusilə də həmin materialın və əşyaların dəfələrlə və kiçik qruplarda və ya fərdi işlərdə şagirdlərin birlikdə istifadə etdikləri halda).

Tövsiyə edilir ki, xüsusi mütəxəssis/psixoloq:

- resurs otağından və buradakı əşyalardan və materialdan istifadə edən şagirdlərin siyahısını tərtib etsin;
- konkret şagird üçün istifadə edilən material müəyyən edilməlidir (əlbəttə ki, material şagird üçün təyin edilmiş məqsədlərin və onların maraqlarının nəzərə alınması ilə müəyyən edilməlidir);

* Xüsusi təlimə ehtiyacı olan şagirdlərin distant tədrisə cəlb olunmasına dəstəyin verilməsi, Gürcüstan Təhsil, Elm, Mədəniyyət və İdman Nazirliyi.

- hər bir xüsusi təlimə ehtiyacı olan şagird üçün fərdi dolabça təyin edilməli və sözügedən əşyalar bura yerləşdirilməlidirlər; dolabçaya şagirdin adı yazılmalı, şəkli və ya simvol yapışdırılmalıdır ki, bunun vasitəsilə də şagird öz əşyalarının yerini eyniləşdirə bilsin;
- şagirdə onun əşyalarının harada saxlanıldığını və o cümlədən də, şəxsi əşyaları ilə faydalanmaq qaydalarını öyrətməlidir;
- verilən materialla bir neçə şagirdin faydalandığı halda:
  a) material şagirdlər arasında ağlabatan şəkildə bölünməlidir, eyni materialın müxtəlif şagirdlər tərəfindən istifadəsinin qarşısı alınmalıdır;
  b) paylaşılan əşyalar üçün ayrı dolabça müəyyən edilməli və hər istifadəsindən sonra əşyaların dezinfeksiyası təmin edilməlidir, əlbəttə ki, həmin əşyaların hazırlandığı material buna imkan verirsə; dezinfeksiya edilməsi mümkün olmayan material istifadədən çıxarılmalıdır (məs., yumşaq, parçadan hazırlanmış əyani vəsait) və ya yalnız fərdi şagird tərəfindən istifadə olunmalıdır (məs., rəngli kağızlar);
  c) istifadə edilən paylaşılan materialın dezinfeksiya üçün toplandığı və onların istifadəsindən sonra yerləşdirildiyi yer müəyyən edilməlidir; dezinfeksiya edildikdən sonra materialın öz yerinə qaytarılması mümkündür;
  ç) əyani kartlar (yaxşı olardı ki, laminə edilmiş) və davranış qaydaları ilə bağlı posterlər hazırlanmalı və əyani yerə yapışdırılmalıdırlar;
  d) şagirdlə ilk görüşlər sözügedən qaydalarla tanışlığa (laminə edilmiş kartların istifadəsi) və bu qaydaların öyrənilməsinə ayrılmalıdır;
  e) bir neçə şagirdə eyni zamanda lazım olan materialın siyahısı tərtib edilməli və materialın alınması üçün məktəb müdiriyyətinin adına müraciət edilməlidir.

Bununla belə:
- Resurs otaqlarının istifadəsinin ağlabatan cədvəli müəyyən edilməlidir (şagirdlərin növbələrinə uyğun olaraq, iş görülən səthlərin və materialın dezinfeksiya işlərinin aparılması üçün) və otağın havası dəyişdirilməlidir;
- Gündəlik dezinfeksiyanın qeydiyyatı vərəqi müəyyən edilməli və əyani yerdə yerləşdirilməli, dezinfeksiyanın həyata keçirilməsi şagirdlərin növbəsindən sonra həyata keçirilməlidir; dezinfeksiya üzrə cavadehlik xüsusi təlimə ehtiyacı olan uşaqla çalışan şəxsə həvalə edilməlidir; Baxın, Əlavə № _______ dezinfeksiya prosedurları üzrə məsuliyyət xüsusi müəllimin assistentinə (belə bir kadrın olduğu halda) həvalə edilə bilər;

Məqsədəuyğundur ki, sözügedən kadrın işinin təsvirində verilən bənd əlavə edilsin və başqa mütəxəssislərlə birlikdə dezinfeksiya prosedurları və qaydaları ilə bağlı təlimatlandırılsın (Bax, “Yeni koronavirusun (SARS-CoV-2) səbəb olduğu infeksiya ilə (COVID-19) bağlı ümumtəhsil müəssisələri üçün ümumi tövsiyələr”).

## (b) Distant tədrisin planlaşdırılması və həyata keçirilməsi

Distant tədris prosesi daha çox təşkilatçılığı, uzunmüddətli planlaşdırmanı və proseslərə refleksiyanı tələb edir.

Gürcüstanın ictimai məktəblərinin tədris prosesinə əyani forma ilə qayıtdıqlarına baxmayaraq, məqsədəuyğundur ki, onların müdiriyyətləri əyanidən distant və ya hibrid formaya keçid üçün icbari tədbirlərin həyata keçirilməsinə ardıcıllıqla başlasınlar.

Yaxşı olardı ki, dərs ili başlanan kimi, müdiriyyət distant formaya keçid planını işləyib hazırlamağa başlasın (məs., məktəb nümayəndələri əyani təlim prosesinin tənzimləmələrini öyrəndiklərindən sonra). Sözügedən planın əsasını xüsusi təlimə ehtiyacı olan uşaqların distant təlim prosesinə cəlb olunma imkanının və bununla bağlı problemlərin fərdi təhlili təşkil edir.

Xüsusi təlimə ehtiyacı olan uşaqların halında, fərdi müzakirə prosesində mütləq valideyn, müəllimlərin hamısı, xüsusi müəllim/psixoloq və məktəbdə bu uşağın təlim prosesinə cəlb olunmuş dəstəkləyici mütəxəssislər iştirak etməlidirlər.

Distant formaya keçid planının təhlilinə bir neçə qrup görüşü ayrıla bilər. Yaxşı olardı ki, bu görüş müəllimlər, valideynlər və inklüziv təhsili dəstəkləyən mütəxəssislər üçün əlverişli formatda keçirilsin – qarşı-qarşıya görüşlər şəklində (mövcud tənzimləmələrin qeyd edilən formatı məhdudlaşdırmadığı halda) və ya distant şəkildə və hər bir tərəf üçün münasib olan formatdan istifadə etməklə.

Qeyd edilən görüşlərin nəticəsində hər bir iştirakçı tərəf üçün öhdəsinə düşən funksiya-öhdəliklər və xüsusi təlimə ehtiyacı olan şagirdin distant tədris prosesində iştirakını daha effektiv edən strategiyalar aydın olmalıdırlar.

**Görüşlər nəticəsində dəqiqləşdiriləcəkdir:**
- şagirdin dərs cədvəli;
- dərs məqsədləri;
- təlim prosesində lazımi dəstək, prosesə cəlb olmuş mütəxəssislər və onların öhdəlikləri;
- valideynin rolu və onun tərəfindən təmin edilmiş dəstək forması;
- dərs prosesi üçün lazımi və ev şərtlərində əlçatan dərs resursları;
- şagirdin dərs prosesinə cəlb olunma imkanları (tədrisin bir və ya bir neçə forması seçilə bilər).

Xüsusi təlimə ehtiyacı olan şagirdin distant tədris prosesinin təşkili ilə bağlı qərarın qəbul edilməsi üçün vacibdir ki, şagird, valideyn və müəllimlər tərəfindən ötən ilin təcrübəsinə refleksiya göstərilsin. Bunun üçün – **Şagirdin distant tədris prosesinə olan hazırlığı** (Baxın, Əlavə №........) anketini rəhbər tutur, fərdi təcrübəni və valideynin əks- əlaqəsini nəzərə almaqla, ardıcıllıqla həmin əsas məsələləri dəqiqləşdirir, hansılara istinad edilərək şagird üçün uyğun distant tədris prosesi təşkil ediləcəkdir. Anketin inzibatiləşdirilməsinə xüsusi müəllim və ya psixoloq cavabdehdir.

Aşağıda təqdim edilən cədvəl xüsusi təlimə ehtyacı olan şagirdin distant tədris formalarını və ehtiyaclarını əks etdirir.

## *Xüsusi təlimə ehtyacı olan şagirdin distant tədris imkanları/formaları*

- ☐ Şagird sinxron təlim prosesində fəal iştirak edir (dəstəkləyici böyük olmadan)
- ☐ Sinxron təlim prosesində fəal iştirak etmək üçün tələbənin dəstəkləyici böyüyün olması lazımdır
- ☐ Şagird sinxron təlim prosesində yalnız passiv iştirak edir (böyüyün dəstəyinə baxmayaraq)
- ☐ Şagird müvafiq fənn müəlliminin apardığı təkbətək sinxron təlim prosesində müstəqil və fəal şəkildə (dəstəkləyici böyük olmadan) iştirak edir.
- ☐ Şagirdin təkbətək sinxron təlim prosesində fəal iştirak etməsi üçün dəstəkləyici böyüyün iştirakı lazımdır
- ☐ Şagird birbaşa əlaqə ilə dəstəkləyici böyüyün keçirdiyi asinxron təlim prosesində fəal iştirak edir.

Şagird üçün təlimin bir deyil, bir neçə formatı seçilə bilər və bu da müxtəlif fənlə münasibətdə dəyişə bilər. Məsələn, şagird bir dərsdə sinxron sinif yoldaşları ilə birlikdə iştirak edə bilər (məs., musiqi və rəsm), digər fənni isə (məs., riyaziyyatı) müəllim ilə birlikdə təkbətək görüşlər əsasında mənimsəyə bilər. Eləcə də istisna edilmir ki, eyni şagird bəzi fənn proqramını asinxron dərs modeli ilə və valideynin intensiv dəstəyi ilə keçsin.

Şagird üçün distant tədris formatının seçilməsi onun imkanlarının dərin analizi və dərs proqramının özünəməxsusluğunun nəzərə alınması ilə baş verə bilər. Şagirdin distant tədris formatı ayrı-ayrı hər bir dərs proqramı ilə (fənn ilə) münasibətdə təhlil edilə bilər.

Distant təlim formasını seçdikdə, həlledici olacaqdır:
- Şagirdin imkanları ki, distant formada (onlayn platforma vasitəsilə) müəllimlə və sinif yoldaşları ilə interaksiya qura bilsin; verilən təlimatlara və materiala reaksiya göstərə bilsin;
- Qeyd edilən prosesdə əlavə mütəxəssisin və ya ona dəstək verən böyüyün yardımını görsün;
- Bu və ya digər qabiliyyətin gücləndirilməsi və ya kamilləşdirilməsi məqsədilə, xüsusi müəllimlə və ya psixoloqla ilə təkbaşına məşğələnin davam etdirilməsini və ya əlavə məşğələni tələb etsin.

Xüsusi təlimə ehtiyacı olan şagird üçün distant təlimin hansı formatının seçilməyindən asılı olmayaraq, sinif yoldaşları ilə birlikdə şagirdin qrupda sinxron təlim prosesinə cəlb olunması əsas məsələ kimi müəyyən edilməlidir, təkbətək və valideynlə asinxron məşğələ isə tədrisin yeganə və aparıcı forması kimi deyil, əlavə, təzminatlı yanaşma kimi nəzərdən keçirilməlidir.

Eyni zamanda şagirdin dərs cədvəlini təşkil etdikdə, təkbətək və ya asinxron dərs prosesinin qrupda davam edən dərs prosesinə paralel planlaşdırıldığında, təzminatlı xidmətlərin şagirdin qrupda davam edən prosesdən təcrid olunmasına səbəb olmamasını nəzərə almaq lazımdır.

Əgər şagirdin imkanının nəzərə alınması ilə onun distant sinxron dərs prosesinə aktiv cəlb olunması mümkün olmursa və ya yalnız dəstəkverən böyüyün iştirakı ilə mümkün olursa (bu da bəzən valideynin məşğul olduğuna görə alınmır), bu halda yaxşı olardı ki, distant davam edən dərs proseslərində passiv iştirak etsin. Bu, onun psixi-emosional sabitliyi, sosial əlaqələrin ardıcıllığı və aidiyyat hissi üçün lazımdır.

## *Distant tədris prosesinin təşkili və həyata keçirilməsi prosesində valideynin rolu*

Distant tədris prosesini çatdırdıqda, valideynin iştirakı həlledici rol oynayır. Şagirdlərin mövcud vəziyyətdə akademik tərəqqiləri heç bir vaxt olmadığı kimi, valideynlərin cəlb olunmalarından asılıdır. Mövcid distant tədris prosesi valideynin cəlbolunma öhdəliklərini artırmışdır və bu da pandemiyaya qədər valideynlərin övladlarının dərs proseslərinə nəzarət və ya monitorinq məqsədilə həyata keçirdikləri öhdəliklərindən daha artıqdır.

Eyni zamanda, distant forma ilə tədris prosesinin effektiv təşkili valideyn və müəllim arasında mövcud əməkdaşlıqdan çox asılıdır. Müvafiq olaraq, məktəb nümayəndələri (müdiriyyət, sinif rəhbəri, xüsusi müəllim/psixoloq) valideynlərlə daha intensiv, müntəzəm və hərtərəfli vasitələrlə ünsiyyətdə olacaqlarını anlamalı və buna hazır olmalıdırlar.

Valideynin hansı forma ilə və ya intensivliklə övladının dərs prosesinə cəlb olunması məhz şagirdin imkanlarından, təhsil proqramının tələbləri və valideynin öhdəliyindən də asılıdır. Valideynin cəlb olunma məsələlərində sizə **“Şagirdin distant təlim prosesinə hazırlığı”** anketi yardım edəcəkdir (Bax, Əlavə N ----)

Qeyd edilən anketin əsasında növbətilər dəqiqləşdiriləcək:
- Valideynlərin ötən ilə, fərdi rollarına və effektivliyə əks-əlaqələri
- Ailədə əlçatan texnologiyalar və resurslar
- Valideynin rəqəmsal texnologiyaların istifadəsində bilgiləri
- Valideynin yükləndirilməsi və tədris prosesində aktiv iştirak imkanı (tədris prosesində iştirak üçün şagirdə bilvasitə dəstəyin lazım gəldiyi halda, aktualdır)

Valideyn tərəfindən dərs prosesinin koordinasiyası və monitorinqi kifayət edə bilər, amma bəzi halda ona dərs prosesində bilavasitə iştirak etmək və fəallığı həyata keçirmək də lazım ola bilər.

Hər bir halda, hazırlıq mərhələsində lazım gələcəkdir ki, məktəb müdiriyyəti valideynləri distant təhsil prosesinə keçid tənzimləmələri ilə tanış etsin, rəqəmsal texnologiyaların və distant fərdi dərs planının istifadəsində treninq təklif etsin və lazım gəldiyində, təlimatlandırsın.

Aşağıda təqdim edilən cədvəl distant tədris prosesinə valideynin cəlb olunma formalarını əks etdirir:

***Valideynin distant tədris prosesinin həyata keçirilmə prosesində rolu***

☐ Valideyn şagirdin sinxron və asinxron dərs prosesinə monitorinq edir.

☐ Valideyn qrupda və ya təkbətək davam edən sinxron dərs prosesində iştirak edir və şagirdi qeyd edilən prosesdə dəstəkləyir

- onun diqqətini dərs prosesinə yönləndirir
- müəllimin işarəsi ilə müvafiq dərs fəallığını təklif edir
- assitentliyin uyğun formalarına əməl etməklə işə yardım edir

☐ Valideyn müəllimin təlimatlarına istinad edərək, şagirdin asinxron dərs prosesini aparır/bilavasitə həyata keçirir

Valideynin distant dərs prosesində necə iştirak etməsindən asılı olmayaraq, onun aşağıdakı məsələlər barədə dəqiq bir anlayışa və biliyə sahib olması vacibdir:

- **ondan nə gözlənilir;**
- **onun övladı üçün hansı məqsədlər qarşıya qoyulmuşdur;**
- **hansı növdə fəallıqlar həyata keçirilməlidir;**
- **hansı təlimatlar verilməlidir;**
- **hansı materialın istifadəsi daha münasibdir;**
- **şagirdin nəyi yerinə yetirməsi arzu edilir.**

**Qeyd:** *arzu edilənin yerinə yetirilməsində şagirdin davranışı nəzərdə tutulur və bunu da çatdırılan materialdan və təlimatdan irəli gələrək aşkar etməlidir və ya çatdırılan materialdan və təlimatdan irəli gələrək hazırlanmalıdır.*

Vacibdir ki, valideyn tədris və müvafiq inkişaf məqsədlərinin anlaşma (qiymətləndirmə, yoxlanış) prosesinə aktiv cəlb olunsun; şagird üçün təklif edilən fəallıqların və müəyyənləşdirilmiş təhsil məqsədi arasında əlaqəni görməsi həlledici rol oynayır; tövsiyə edilmir ki, bu sonuncunu dərk etmədən, yalnız mexaniki olaraq şagirdi müəllimin müəyyən etdiyi fəallıqlara cəlb etsin. Qeyd edilən valideynin şagirdlə əlavə iş aparmalı olduğu halda, daha da aktualdır.

Müəllimin aktual məqsədin müvafiq müxtəlif fəallıqlarını əvvəlcədən müəyyən etməsi (məs., şagirdə cari bir həftə ərzində təklif edilməsi tövsiyə olunan fəallıqları yazır), bunları valideynlə paylaşmaları və distant görüş formatında hər bir fəallığı, onların əhəmiyyətini, tədris məqsədilə əlaqəsini, lazımi materialı, təlimatı, istənilən/gözlənilən yerinə yetirmənin, yardımın və fəallığın modifikasiya imkanlarını və s. xırdalıqla təhlil etməsi çox səmərəlidir.

Eyni zamanda, vacibdir ki, müəllim şagird tərəfindən fəallıqların faktiki yerinə yetirilməsinə dair ətraflı məlumat alsın, çünki yalnız qeyd edilən məlumata istinad edərək, şagirdin inkişaf dinamikası, növbəti inkişafetdirici fəallıqlar müəyyən edilə bilər. Müvafiq olaraq, övladına fəallıqları təqdim etdikdən sonra valideyn diqqətlə şagirdin fəallığı yerinə yetirməsini müşahidə etməli və prosesin gedişi ilə və alınan nəticələrlə

müəllim ilə paylaşmalıdır. Bunun üçün valideyn və müəllim üçün standartla müəyyən edilmişdən əlavə görüşlər lazım gələ bilər. Valideyn yazılı və ya audio- yaxud da videoyazıları həyata keçirə və bunları müəllimlə, xüsusi müəllimlə və ya psixoloqla müzakirə edə bilər.




Eyni zamanda müəllim dəqiq təsəvvür yaratmalıdır ki, valideyn-şagirdin interaksiyası necədir. Müvafiq olaraq məqsədəuyğundur ki, valideyn tərəfindən həyata keçirilmiş tədris prosesinə nəzər yetirsin və həm şagirdə, eləcə valideynə əks əlaqə versin (valideynə əks əlaqənin verilməsi distant formada dərsdən sonra tövsiyə edilir).

Valideynin tədris prosesində iştirakının intensivliyi və onun məsuliyyətinin dəqiq müəyyənləşdirilməsi çox önəmlidir. Olmaz ki, müəllim təlim prosesində məsuliyyəti bütövlükdə valideynə keçirsin və bu yolla öz öhdəliyi və cəlb olunmasını azaltsın. Vacibdir ki, müəllimlər valideyni tədris prosesinin əsas aparıcısı kimi deyil, dəstəkləyən kimi qəbul etsinlər.

Eləcə də valideynlərin məşğuliyyətinin analizi vacibdir – vaxtları və resursları varmı ki, lazımi intensivliklə və sistemlə dərs prosesində şagirdin iştirakını təmin etsinlər. Sözügedən halın obyektiv və qərəzsiz qiymətləndirilməsi çox vacibdir, çünki valideynin optimal cəlb olunması obyektiv səbəblərə görə (valideynin iş cədvəlinin məktəb cədvəli ilə bir araya gəlmədiyi halda) baş verməmişdirsə, o zaman onu günahlandırmaq olmaz, əksinə dərs prosesinin cəlb olunması və həyata keçirilməsinin başqa imkanları və formaları təhlil edilməlidir.

## Xüsusi müəllimin/psixoloqun distant tədris prosesinin təşkili və həyata keçirildiyi zaman rolu

Distant tədris prosesinin planlaşdırılma-həyata keçirilmə prosesində xüsusi müəllimin/psixoloqun rolu ehtiyatla müəyyən edilməlidir. Müntəzəm tədris prosesinə uyğun olaraq, müxtəlif uşaqla münasibətdə xüsusi müəllimlərin/psixoloqların rolu və öhdəlikləri dəyişə və dəqiqləşdirilə bilər. Təbii ki, sözügedəni uşağın ehtiyacları önəmli şəkildə müəyyənləşdirir.

Aşağıda təqdim edilən cədvəl xüsusi müəllimin/psixoloqun cəlb olunma formalarını əks etdirir:

***Xüsusi müəllimin/psixoloqun cəlb olunma formaları***

- ☐ Qrupda təhsil prosesini həyata keçirdikdə, müəllimə və xüsusi təlimə ehtiyacı olan şagirdə dəstəyin verilməsi;
- ☐ Müəllim tərəfindən müəyyən edilmiş məqsədlər və fəallıqlar üzrə təkbətək məşğələlər;
- ☐ Şagirdlə koqnitiv və funksional məqsədlərlə təkbətək məşğələlər;
- ☐ Şagird üçün dərs məqsədlərinin, fəallıqlarının, elektron dərs resursunun seçilməsi və təlimatların formalaşdırılması prosesində müəllimə dəstəyin verilməsi;
- ☐ Valideyn üçün dərs prosesinin planlaşdırılması-həyata keçirilməsi məsələlərində müəllimlə birlikdə və ya müstəqil tövsiyələrin və təlimatların verilməsi
- ☐ Şagirdin və valideynin asinxron dərs prosesinin müşahidə edilməsi (canlı rejimdə (live) həyata keçirilə bilər və ya lent yazılarının analizi əsasında mümkündür); valideynə əks əlaqənin verilməsi

Əgər məktəbdə xüsusi müəllimlə birlikdə psixoloq da çalışırsa, o zaman qeyd edilən fəallıqlar onun və psixoloqun arasında onların spesifik kompetensiyalarını nəzərə almaqla, bölünə bilər. Məktəbdə yalnız

psixoloqun olduğu halda, verilən işləri həyata keçirdikdə aktiv iştirak etməlidir. Lazım gəldiyi halda (məs., şagird akademik bacarıqların inkişafı üçün təkbətək məşğələyə, fənn proqramlarının adaptasiyasında fənn müəllimin dəstəyinə, valideyn evdə uşağın fənn məqsədləri üzrə iş üçün fənn proqramının fəallıqlar toplusuna ehtiyac duyursa, bunlar da psixoloqun səlahiyyətlərindən kənara çıxırsa), məktəbin müdiriyyəti əsaslı sübutlarla xüsusi müəllimin əlavə edilməsi ilə bağlı məsələni nəzərdən keçirməlidir.

Tədris prosesinin distant forma ilə aparıldığı şərtlərdə, xüsusi müəllim/psixoloq aydın və imkan daxilində təsbit edilmiş iş cədvəlini işləyib hazırlamalıdır və bu da onun xüsusi təlimə ehtiyacı olan şagirdlərin təhsil prosesində iştirakını tam əks etdirəcəkdir.

Eyni zamanda, qeyd edilən cədvəl vaxtı açıq şəkildə göstərməlidir:
- sinxron dərs prosesində xüsusi müəllim/psixoloq qrupa nə vaxt və kiminlə qoşulmuşdur;
- nə vaxt və kiminlə asinxron işləyir;
- valideynin, müəllimin konsultasiya prosesinə nə zaman cəlb olunmuşdur;
- tədris prosesini nə zaman planlaşdırır.

## *Tam distant tədris zamanı xüsusi müəllimin/psixoloqun iş yükünün müəyyənləşdirilməsi üçün tövsiyələr*

**Xüsusi müəllimin/psixoloqun gündəlik cədvəlinin nümunəsi**

| Vaxt | Şagird | Dərs | Tədris forması |
|---|---|---|---|
| 9:00–9:30 | A.B. | Gürcü dili | Sinxron, qrupda, xüsusi müəllim/psixoloq müşahidə edir/dəstək verir |
| 9:30–10:00 | Q.D. | Gürcü dili | Sinxron, qrupda, xüsusi müəllim/psixoloq müşahidə edir/dəstək verir |
| 10:00–10:30 | E.V. | Biologiya | Sinxron, qrupda, xüsusi müəllim/psixoloq müşahidə edir/dəstək verir |
| 11:00–11:30 | Z.T. | Riyaziyyat | Sinxron, qrupda, xüsusi müəllim/psixoloq müşahidə edir/dəstək verir |
| 11:30–12:00 | İ.K. | Təbiət | Sinxron, qrupda, xüsusi müəllim/psixoloq müşahidə edir/dəstək verir |
| 12:00–13:00 Tənəffüs | | | |
| 13:00-13:30 | A.B. | Xüsusi müəllimin/psixoloqun şagirdlə təkbətək işi | |
| 13:30–14:00 | Q.D. | Xüsusi müəllimin/psixoloqun şagirdlə təkbətək işi | |
| 14:00-14:30 | E.V. | Gürcü dili | Fənn müəlliminin şagirdlə təkbətək işi, xüsusi müəllim/psixoloq müşahidə edir |
| 14:30–15:00 | Z.T. | Gürcü dili | Fənn müəlliminin şagirdlə təkbətək işi, xüsusi müəllim/psixoloq müşahidə edir |
| 15:00–15:30 | İ.K. | Valideynin şagirdlə təkbətək işi, xüsusi müəllim/psixoloq müşahidə edir | |
| 15:30–16:00 | | | |
| 16:00–18:00 | Dərs prosesinin planlaşdırılması və valideynlərlə və müəllimlər fərdi konsultasiyalar | | |

Təqdim edilən cədvəl xüsusi müəllimin/psixoloqun bir iş gününün bölgüsünü əks etdirir və bu da onun orta iş yüklənməsinin nəzərə alınması ilə işlənib hazırlanmışdır (bir xüsusi müəllim/psixoloq həmkarı olmadan beş xüsusi təlimə ehtiyacı olan şagirdin dərs prosesinə koordinasiya etdiyi halda).

Bir xüsusi müəllimin/psixoloqun resursunun kifayət etmədiyi halda, xüsusi təhsilə ehtiyacı olan şagirdlərin dərs prosesinin əsaslı koordinasiyası üçün onun məktəbin müdiriyyətinə əlavə xüsusi müəllim/psixoloq və ya başqa mütəxəssis zərurəti haqqında əsaslı sübut təqdim etməsi və məktəb müdiriyyəti ilə birlikdə kadr əlavə edilməsini müzakirə etməsi məqsədəuyğundur.

Xüsusi müəllimin/psixoloqun fəaliyyəti növbəti əsas fəallıqları nəzərdə tutur:
- şagirdlər qrupunda aparılan dərs prosesinin müşahidə edilməsi, müəllimin sinxron tədris zamanı dəstəkləndirilməsi
- şagirdlə təkbətək iş
- fənn müəlliminin/valideynin şagirdlə təkbətək işinin dəstəkləndirilməsi
- valideynin və ya müəllimin konsultasiyası
- dərs prosesinin planlaşdırılması

Bunlardan hər birini ayrı-ayrılıqda təhlil edək:

- **Şagirdlər qrupunda aparılan dərs prosesinin müşahidəsi/müəllimin dəstəkləndirilməsi** – xüsusi müəllim/psixoloq müəllimin dərsi qrupda keçirdiyində, distant sinxron dərs prosesində iştirak edir.

  Sözügedən dərslərin günün birinci yarısında keçirildiyi halda, xüsusi müəllim/psixoloq qeyd edilən vaxtı tamamlayır və öz cədvəlini elə bölür ki, həftə ərzində xüsusi təlimə ehtiyacı olan şagirdin bütün dərslərində ən azından bir dəfə iştirak edə bilsin.

  Bu yolla müəllimdə/psixoloqda təsəvvür yaranır ki, şagird hansı fəndə çətinlik çəkir və harada ona dəstək vermək lazımdır.

  Bunun üçün xüsusi müəllimdə/psixoloqda şagirdlərin dərs cədvəli olmalıdır və qeyd edilənin əsasında dərs prosesinin iştirakının və müşahidəsinin fərdi cədvəlini tərtib etməlidirlər.

  Xüsusi müəllim/psixoloq dərs ilinin əvvəlində şagirdlərin dərs prosesini xüsusi intensivliklə müşahidə etməlidir və bütün dərslərdə hər şagirdin dərs prosesini müşahidə etdikdən sonra cədvəli dəyişə bilər – yalnız buna ehtiyacı olan şagirdlərin dərslərdə iştirakını müşahidə etməyi davam edir.

- **Təkbətək iş – xüsusi təhsilə ehtiyacı olan şagirdin fərdi məqsədi və fənn proqramından məqsəd üzrə**
  Bunun üçün xüsusi müəllim/psixoloq konkret şagird üçün fərdi vaxtı müəyyən edir. Şagird üçün **təkbətək** müəyyən edilmiş vaxtı uyğunlaşdırmaq vacibdir ki, qrupda sinxron gedən dərs prosesinə təsadüf etməsin.

  Müvafiq olaraq, yaxşı olardı ki, xüsusi müəllim/psixoloq şagirdlə sinxron dərs prosesi başa çatdıqdan sonra **təkbətək** işləsinlər.

  Biz sözügedən yüklənməni yalnız xüsusi təlimə ehtiyacı olan şagird üçün təhlil edə bilmərik, çünki xüsusi müəllimlə/psixoloqla qeyd edilən növ görüşlər başqa şagirdlərin müstəqil, ev tapşırıqları üzrə işə analoji olaraq müzakirə edilir və bu da günün ikinci yarısında planlaşdırılır.

  **Təkbətək** xüsusi müəllim/psixoloq hər bir şagirdlə gündə bir dəfə 30 dəqiqə ərzində işləyir.

Həmin nadir halda, əgər konkret xüsusi təlimə ehtiyacı olan şagird üçün qrupda sinxron davam edən dərs prosesində iştirak qeyri-relevantdır və günün birinci yarısında xüsusi müəllimin/psixoloqun asudə vaxtı vardırsa, həmin şagirdlə sinxron aparılan və sinifdə həyata keçirilən dərs prosesinə paralel olaraq görüşə bilər.

- **Təktəbək valideynlə və ya müəllimlə aparılan dərs prosesinin müşahidəsi; müəllimin, valideynin dəstəkləndirilməsi**

Qeyd edilən növdə məşğələlər də günün ikinci yarısında keçirilə bilər – ona görə ki, fənn müəllimi və ya valideyn tərəfindən aparılan fərdi məşğələ qrupda sinxron gedən dərs prosesi ilə üst-üstə düşməsin. Müvafiq olaraq, sözügedən növdə məşğələlər şagird üçün sinxron dərs prosesinin başa çatdığından sonra həyata keçiriləcəkdir.

Analoji olaraq, qeyd edilən yüklənməni yalnız xüsusi təlimə ehtiyacı olan şagird üçün təhlil edə bilmərik: bu, başqa şagirdlərlə müstəqil, ev tapşırıqları üzrə işin analoqudur və bu da günün ikinci yarısında həyata keçirilir. Xüsusilə də əgər bu növ məşğələlər qrupda sinxron davam edən dərs prosesinə qoşula bilməyən şagird üçün planlaşdırılmışdırsa, o halda həddən çox yüklənmə kimi qiymətləndirilməyəcək. Xüsusi təlimə ehtiyacı olan şagird müxtəlif fənn müəllimi ilə görüşə bilər. İbtidai pillə halında, müəllim bir ola bilər, amma fənn proqramları və iş məqsədləri dəyişə bilər.

Həmin nadir halda, əgər konkret xüsusi təlimə ehtiyacı olan şagird üçün qrupda sinxron davam edən dərs prosesində iştirak qeyri-relevantdırsa və günün uyğun parçasında həm xüsusi müəllimin, eləcə də fənn müəlliminin və ya valideynin boş vaxtları vardırsa, qeyd edilən növdə məşğələ günün birinci yarısında planlaşdırıla bilər, onun sinfinin sinxron davam edən dərs prosesinə paralel olaraq.

- **Valideynlərlə və fənn müəllimləri ilə fərdi konsultasiyalar**

Məqsədəuyğundur ki, xüsusi müəllim/psixoloq həftədə ən azı bir dəfə xüsusi təlimə ehtiyacı olan şagirdin valideyni və onun müəllimləri ilə konsultasiya keçirsin. Fərdi konsultasiyalar zamanı xüsusi müəllim valideynlə və ya müəllimlərlə birlikdə cari həftəyə (sonuncu görüş dövründən) refleksiyanı həyata keçirir və gələn həftənin (və ya görüşə qədər müddətin) işçi məqsədlərini izah edir, eyni zamanda valideynin özünün şagirdlə işlədiyində, yerinə yetiriləsi fəallıqlarla, onların məqsədi və fəallığının yerinə yetirilməsi ilə bağlı başqa məsələlərlə tanış edir.

Müvafiq olaraq xüsusi müəllim/psixoloq sözügedən fəallıq üçün günün sonunu müəyyən edə bilər.

Gün ərzində ən azı iki iki valideyn və iki müəllimlə konsultasiya mümkündür.

- **Dərs prosesinin planlaşdırılması**

Sözügedən xüsusi müəllimin/psixoloqun fəaliyyətinin ən önəmli hissəsini təqdim edir. Müvafiq olaraq, onun qeyd edilən fəalliyyəti üçün konkret vaxt ayırması məqsədəuyğundur. (Ola bilər ki, həftədə bir gün bir şagirdin dərs prosesinin refleksiyasına, onun növbəti dərs mərhələsinin planlaşdırılmasına, eləcə də şagirdin müəllimlə və valideynlə ünsiyyətinə ayrılsın). Konkret şagirdin ehtiyacından irəli gələrək, xüsusi müəllim/psixoloq müəyyən edir ki, hansı fənnin müəllimi ilə görüş əsas məsələni təşkil edir. Bunu müəllim tərəfindən xüsusi təlimə ehtiyacı olan şagirdlə aparılan fərdi və ya qrupda dərs prosesinin müşahidə nəticəsi həll edir.

Planlaşdırma prosesində xüsusi müəllim/psixoloq növbətini müəyyən edir:

- şagirdin inkişafının fərdi məqsədlərini, fəallıqlarını, materialı, hansının əsasında da özü şagirdlə işləməlidir;
- Şagirdin fərdi tədris məqsədlərini, fəallıqları, şagirdlə işləmək üçün fənn müəlliminə təklif edə biləcəyi materialı;

- Müəllim üçün tövsiyələri ki, tədris prosesini necə aparsın, şagirdin cəlb olunmasını və davranışını necə idarə etsin;
- Xüsusi müəllim/psixoloq qeyd edilən məsələləri təkbaşına deyil, fənn müəllimi ilə birlikdə işləyib hazırlaya bilər.
- Şagirdin inkişafının fərdi məqsədlərini, fəallıqları, övladı ilə işləmək üçün valideynə təklif edə biləcəyi materialı; valideyn üçün tövsiyələri (şagirdlə iş prosesini necə aparsın, cəlb olunmanı və davranışı; şagirdin psixi-emosional vəziyyətinə refleksiyanı və s.).

Əlbəttə ki, xüsusi müəllim/psixoloq hazırladığı planı və tövsiyələri yazılı və ətraflı şəkildə hər bir şagirdin inkişafının fərdi planında əks etdirməli və müvafiq tərəf üçün – müəllim və ya valideyn üçün onu əlçatan etməlidir.

Bütün deyilənlərdən irəli gələrək, xüsusi müəllimin/psixoloqun hər bir şagird üçün fərdi cədvəl işləyib hazırlaması tövsiyə edilir ki, bunda da onunla bağlı fəallıqları işarə edəcəkdir.

Verilən halda:

| | |
|---|---|
| (boz) | Qrupda şagirdin müşahidəsi, sinxron tədris zamanı müəllimin dəstəyi |
| (narıncı) | Təkbətək iş şagidlə |
| (yaşıl) | Fənn (Gürcü dili) müəlliminin şagirdlə təkbətək işinin dəstəkləndirilməsi |
| (sarı) | Valideynə konsultasiya verilməsi |

## *Şagirdin həftəlik cədvəli*

**Şagird: A.B.**

| Vaxt | Bazar ertəsi | Çərşənbə axşamı | Çərşənbə | Cümə axşamı | Cümə |
|---|---|---|---|---|---|
| 09:00-09:30 | Gürcü dili | Gürcü dili | Gürcü dili | Gürcü dili | Riyaziyyat |
| 09:30-10:00 | Riyaziyyat | Xarici dil | Riyaziyyat | Xarici dil | Gürcü dili |
| 10:00-10:30 | Biologiya | Riyaziyyat | Biologiya | Coğrafiya | Biologiya |
| 11:00-11:30 | İncəsənət | Tarix | İncəsənət | Tarix | Xarici dil |
| 11:30-12:00 | Xarici dil | Coğrafiya | Xarici dil | | Mülki təhsil |
| Tənəffüs | | | | | |
| 12:00-13:00 | Xüsusi müəllimlə/ psixoloqla təkbətək iş | Xüsusi müəllimlə/ psixoloqla təkbətək iş | | Təkbaşına iş fənn (Gürcü dili) müəllimi ilə | |
| 17:00-17:30 | | | Xüsusi müəllimin/ psixoloqun və müəllimin fərdi konsultasiyası valideynlə | | |

# Əlavə xidmətlərin çatdırılması zərurəti

Distant formaya keçənə qədər və ya bundan sonra şagirdin psixi-emosional dəstəyi və ya davranışının tənzimlənməsi məsələlərində valideynə məsləhətlərin verilməsi zərurəti müəyyənləşdirilə bilər və bu da fiziki məsafə şərtlərində kəskinləşdirilə bilər. Ola bilsin ki, şagirdin özü ilə də iş zərurəti yaransın.

Müvafiq olaraq, vacibdir ki, uşaqla işləyən xüsusi müəllim/psixoloq distant tədris modelinə keçənə qədər şagirdlə və valideynlə interaksiya nəticəsində şagirdin psixi-emosional ehtiyaclarını təyin etsin və lazımi tövsiyələrin, yaxud da həm fiziki izolyasiya şərtlərində, eləcə də bunun başa çatdığından sonra davranış tənzimləmələri haqqında məsləhətlər versin. Eyni zamanda, distant tədris prosesində şagirdlərin psixi-emosional vəziyyətinə refleksiya ardıcıl davam etdirilməlidir.

Müvafiq olaraq, xüsusi müəllim/psixoloq distant görüşlər zamanı şagirdi diqqətlə müşahidə etməlidir, onunla və onun valideyni ilə ünsiyyət qurmalıdır ki, dəstəyə ehtiyacın eyniləşdirilməsi vaxtında mümkün olsun.

Lazım gəldiyi halda, həm şagird, eləcə də valideyn müvafiq dəstək almalıdır və bu da məktəbin daxili resursu ilə və ya müvafiq mütəxəssisin dəvət edilməsi ilə (əgər məktəbin daxili kadrının müvafiq səriştəsinin olmadığı halda) həyata keçirilməlidir.

Bunun üçün məqsədəuyğundur ki, Təhsil Nazirliyinin inklüziv təhsil üzrə intizamlararası dəstə üzvləri arasında səriştələri olan mütəxəssislər eyniləşdirilsin ki, şagirdin psixi-emosional və davranış tənzimləmələri məsələlərini dərindən qiymətləndirsinlər ona və onun valideynlərinə müvafiq konsultasiya verə bilsinlər. Xüsusi müəllim qeyd edilən kadr haqqında məlumatlı olmalı və müvafiq dəstəyi almaq üçün ona müraciət edə bilməlidir (hətta qeyd edilən dəstə üzvünün qeyd edilən ərazidə fəaliyyət göstərmədiyi halda da). Eləcə də şagird və valideyn dəstəyi şagirdin cəlb olunduğu sosial servislərdən də qəbul edə bilərlər.

# Distant tədris prosesinin təşkili aləti

Distant tədris prosesinin təşkili üçün faydalı aləti distant interaktiv fərdi dərs planının sənədi təqdim edir ki, məktəb müdiriyyətinin, müəllimlərin, xüsusi müəllimin/psixoloqun və eləcə də valideynin buna əli çata bilsin.

Qeyd edilən sənəddə şagird üçün bütün fənlər üzrə müəyyən edilmiş dərs məqsədləri əyani və hər kəs üçün paylaşılan olmalıdır.

Paylaşılan sənədin vasitəsilə müəllimlərin və xüsusi müəllimlərin/psixoloqların imkanları olacaqdır ki, şagirdin dərs prosesini, məqsədlərini və tərəqqisini müşahidə etsinlər. Eyni zamanda fərdi planın hər dəfə yeniləşdirilməsi haqqında valideyni məlumatlandırmaq lazımdır. Elektron fərdi dərs sənədi valideynin şagirdin dərs prosesini bilavasitə həyata keçirməli olduğu halda daha vacib olur. Bunun üçün övladına çatdırmalı olduğu fəallıqları, təlimatlatı və dərs materialını əyani şəkildə görə bilməlidir. Sözügedən sənəd dərs fəallıqları və məqsədləri arasında əlaqəni aydın şəkildə əks etdirməlidir. Həmin sənədin vasitəsilə valdieyn yazılı təlimatlar qəbul etməlidir ki, övladı ilə necə işləsin. Sənəd eləcə də imkan verməlidir ki, valideyn konkret məqsəd və fəallıqla bağlı şərh yazsın, şagirdin işini təsvir etsin, sənədə şagirdin həyata keçirdiyi məhsulu/yerinə yetirilmiş tapşırığı əlavə etsin.

# Distant tədris modelinə keçid üçün hazırlıq

Aşağıda təqdim edilən cədvəl hazırlıq mərhələsini və fəallıqların vaxt bölgüsünü əks etdirir ki, bunları da məktəb xüsusi təlimə ehtiyacı olan şagirdlərin distant tədris modelinə keçirilməsi üçün həyata keçirməlidir.

Tövsiyə edilir ki, hazırlıq mərhələsi növbəti məsələlərə aid edilsin:

| Fəallıq |
|---|
| Valideyn üçün distant dərs modelinə keçid tənzimləmələri ilə tanışlıq |
| Valideynlərin əks əlaqəsi ilə paylaşma:<br>- şagirdin tərəqqisi;<br>- distant tədris zamanı şagirdin əlavə ehtiyacları;<br>- ailədə əlçatan texnologiyalar və resurslar;<br>- valideynin yüklənməsi;<br>- rəqəmsal texnologiyaların istifadəsində bilgilər. |
| Valideynlər üçün treninq<br>- Rəqəmsal texnologiyalar<br>- Distant interaktiv İKT |
| - Şagirdlərin ehtiyaclarının təyin edilməsi<br>- Tədris formatının müəyyənləşdirilməsi<br>- Dərs cədvəlinin işlənib hazırlanması<br>- Dərs planının işlənib hazırlanması, təhlili |
| Şagird üçün distant tədris modelinə keçid tənzimləmələri ilə tanışlıq |
| Şagirdin rəqəmsal texnologiyaların istifadəsində təlimatlandırılması |

Eyni zamanda, distant tədris prosesinin başlanğıc mərhələsində olan hazırlıq mərhələsi birdəfəlik proses kimi nəzərdən keçirilməməlidir. O, öz aktuallığını distant tədris müddəti ərzində qoruyub saxlayır. Bu halda, hər növbəti ayın (və ya iki ayın) hazırlıq mərhələsi kimi nəzərdən keçirilir və bu zaman cari proseslərə refleksiya verilir və prosesin dəyişdirilməsi/adaptasiyası və ya dəyişmədən davam etdirilməsi üzrə qərar qəbul edilir.

Bu zaman vacibdir ki, xüsusi müəllim/psixoloq və şagirdin dərs prosesinə cəlb olunmuş müəllimlər valideynlə əlaqə saxlasınlar və aktual məsələləri müzakirə etsinlər:

***Şagirdin tərəqqisi***

- ☐ əlavə ehtiyaclar – şagirdin psixi-emosional vəziyyəti, davranışının tənzimlənməsi, dəstəyə ehtiyac
- ☐ ailədə əlçatan resurslar
- ☐ valideynin yükləndirilməsi
- ☐ dərs cədvəlinin dəyişilməsi zərurəti
- ☐ dərs məqsədlərinin dəyişdirilməsi
- ☐ toplanmış suallar və s.

# ƏLAVƏLƏR

## Əlavə 1.
## Ümumtəhsil müəssisəsinin təmizlik protokolu

### Yeni koronavirus (COVID-19) epidemioloji partlayış dövründə iş üçün

**Normativ baza:** ________________________________________
**Cavabdeh şəxslər:** ____________________________________
**Təmizlik:**

- Hansı otaqlar hansı intensivliklə təmizlənirlər
- Hansı otaqların təmizlənməsi üçün hansı metoddan istifadə olunur (sulu qaydada təmizlik, tozun götürülməsi...)
- Hansı otaqlarda hansı səthlər təmizlənirlər
- Hansı otaqlarda hansı təmizlik/yuyucu vasitələrdən istifadə olunur
- Tullantıların idarə edilməsi necə baş verir (konteynerlə bağlı tələblər)

**Təmizlik işlərinə aid edilən inventar və vasitələr:**

- döşəmə silən çubuq – sulu təmizlik üçün;
- ikişöbəli vedrə: təmiz su /yuyucu vasitəli maye;
- süpürgə və xəkəndaz;
- əlcək və ehtiyat əlcəyi;
- müşənbə önlük sanitar qovşaqda iş üçün;
- döşəmə, şüşə və mebel silən bezlər;
- ayaqyolunun təmizlənməsi üçün bezlər;
- təmizləyici süngər, fırça, qabsürtən (yumşaq metal spiral);
- hava dezodoru;
- taxta mebel təmizləyicisi (lazım olduğu halda);
- dəri səthlərin təmizləyicisi (belə birinin olduğu halda);
- bezlərin yuyulması üçün aid edilən yuyucu toz;
- səthlərin sürtülməsi üçün toz və ya krem;
- döşəmənin təmizlənməsi və parıltı verilməsi üçün maye (taxta, metlax, linoelum və s. üçün);
- unitazın təmizlənməsi üçün maye;
- şüşə təmizləyən;
- nikel, latun və polad səthlərin təmizlənməsi üçün vasitə;
- trapların və kollektorların təmizlənməsi üçün vasitə;
- böyük və kiçik zibil paketləri;
- yığışdırılası inventarın təmizlənməsi üçün dezinfeksiya məhlulu (təmizlik prosesinin başa çatdırıldığından sonra).

**Süpürgəçinin geyimi** (fərdi müdafiə vasitələri):

- maska
- üz dəbilqəsi
- birdəfəlik xalat
- əlcək
- bağlı ayaqqabı

**Təmizlik işi üçün hazırlıq:**

Geyim mərhələləri və ardıcıllığı:

- əllərin dezinfeksiyası
- birdəfəlik mayekeçirməyən arxadan bağlanan xalatın geyinilməsi
- maskanın və üz dəbilqəsinin taxılması
- əlcəklər elə geyinilməlidir ki, xalatın manjetlərini örtsün

**Təmizlik işi bitdikdən sonra:**

- əlcəklərin soyunulması geri çevirmə prinsipi ilə
- xalatın soyunulması
- maskanın və üz dəbilqəsinin çıxarılması
- əllərin təkrar dezinfeksiyası



## Əlavə 2.
## Nümunəvi fəaliyyət planı

| Fəallıq | I. semestr | | | | | | | | | | | | | | Cavabdeh şəxs |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Həftə | | | | | | | | | | | | | | |
| | 1. | 2. | 3. | 4. | 5. | 6. | 7. | 8. | 9. | 10. | 11. | 12. | 13. | 14. | |
| **Məktəb cəmiyyəti üçün yeni tənzimləmələrlə tanışlıq** | | | | | | | | | | | | | | | Adı, soyadı |
| **Şagirdlər arasında təzminat ehtiyaclarının təyin edilməsi** | | | | | | | | | | | | | | | Adı, soyadı |
| **Təzminat planının işlənib hazırlanması, təhlili və MTP-nın dəyişikliyi** | | | | | | | | | | | | | | | Adı, soyadı |
| **Kompensasiya planının həyata keçirilməsi** | | | | | | | | | | | | | | | Adı, soyadı |
| **...** | | | | | | | | | | | | | | | Adı, soyadı |
| | | | | | | | | | | | | | | | Adı, soyadı |
| | | | | | | | | | | | | | | | Adı, soyadı |

# Əlavə 3.
# Tədrisin təşkili: müxtəlif variant.

**1. Birnövbəli məktəblər iki növbəyə keçməlidirlər və müxtəlif pillənin şagirdləri növbələrə əsasən gedib-gəlməlidirlər.**

| | Pillə/növbə | İbtidai I-IV | İbtidai V-VI | Baza | Orta |
|---|---|---|---|---|---|
| Variant I | **Səhər növbəsi** | **X** | **X** | | |
| | Gündüz növbəsi | | | X | X |
| Variant II | **Səhər növbəsi** | **X** | | | X |
| | Gündüz növbəsi | | X | X | |

**2. Müxtəlif pillənin şagirdləri günlərin növbələməsi ilə gedib-gəlməlidirlər, orta pillənin şagird-ləri isə distant tədris formatında daha çox vaxt keçirməlidirlər.**

| | Bazar ertəsi | Çərşənbə axşamı | Çərşənbə | Cümə axşamı | Cümə |
|---|---|---|---|---|---|
| İbtidai | **X** | **X** | **distant** | X | X |
| Baza | X | distant | X | **distant** | **X** |
| Orta | **X** | **distant** | distant | X | distant |

**3. Aşağıda təqdim edilən modelin istifadəsi birnövbəli və ikinövbəli məktəblər üçün mümkündür, nə vaxt ki, paralel siniflər müxtəlif günlərdə gedirlər.**

| Bazar | Bazar ertəsi | Çərşənbə axşamı | Çərşənbə | Cümə axşamı | Cümə |
|---|---|---|---|---|---|
| I | **VIIa** | **VIIa** | **VIIa** | VIIb | VIIb |
| II | VIIb | VIIb | VIIb | **VIIa** | **VIIa** |
| III | **VIIa** | **VIIa** | VIIa | VIIb | VIIb |
| IV | VIIb | VIIb | VIIb | VIIa | VIIa |

**4. Bu təklifdən yalnız birnövbəli məktəblər istifadə edə bilərlər, nə zaman ki, növbə də əlavə edilmişdir və siniflərin hamısı da hər gün getmirlər. Belə bir halda, şagirdlərin sayı daha da azalmışdır.**

| | Pillə/növbə | Bazar ertəsi | Çərşənbə axşamı | Çərşənbə | Cümə axşamı | Cümə |
|---|---|---|---|---|---|---|
| I həftə | Birinci növbə | I-IV | IV | IV | V-VI | VI |
| | İkinci növbə | VII-IX | VII-IX | VII-IX | X-XII | X-XII |
| II həftə | Birinci növbə | V-VI | V-VI | V-VI | I-IV | I-IV |
| | İkinci növbə | X-XII | X-XII | X-XII | VII-IX | VII-IX |
| III həftə | Birinci növbə | I-IV | IV | IV | V-VI | VI |
| | İkinci növbə | VII-IX | VII-IX | VII-IX | X-XII | X-XII |

# Əavə 4.
## Distant tədris prosesi üçün hazırlıq mərhələsi

| Fəallıq | Distant tədris prosesi üçün hazırlıq mərhələsi | | | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | 1. gün | 2. gün | 3. gün | 4. gün | 5. gün | 1. gün | 2. gün | 3. gün | 4. gün | 5. gün | 1. gün | 2. gün | 3. gün | 4. gün | 5. gün | Cavabdeh şəxs |
| **Valideynin distant tədris modelinə keçid tənzimləmələri ilə tanışlığı** | | | | | | | | | | | | | | | | |
| **Valideynlərin əks-əlaqəsi ilə paylaşma:**<br>- Şagirdin tərəqqisi<br>- Şagirdin distant tədris zamanı əlavə ehtiyacları<br>- Ailədə əlçatan texnologiyalar və resurslar<br>- Valideynin yüklənməsi<br>- Rəqəmsal texnologiyaların istifadəsində kompetensiyalar | | | | | | | | | | | | | | | | |
| **Valideynlərin təlimatlandırılmaları**<br>- Rəqəmsal texnologiyalar<br>- Distant interaktiv İKT | | | | | | | | | | | | | | | | |
| - Şagirdlərin ehtiyaclarının təyin edilməsi<br>- Tədris formatının müəyyən edilməsi<br>- Dərs cədvəlinin işlənib hazırlanması<br>- Dərs planının işlənib hazırlanması, müzakirəsi | | | | | | | | | | | | | | | | |
| Şagirdlərin distant tədris modelinə keçid tənzimləmələri ilə tanışlığı | | | | | | | | | | | | | | | | |
| Şagirdin rəqəmsal texnologiyaların istifadəsində təlimatlandırılmaları | | | | | | | | | | | | | | | | |

# Əlavə 5.
# Resurs otağında dezinfeksiyanın gündəlik qeydiyyat vərəqi

| Bazar ertəsi | | | | | | |
|---|---|---|---|---|---|---|
| **Şagirdin inisialları** | **Daxil olduğu vaxt** | **Çıxdığı vaxt** | **Şagird gigiyena prosedurlarını keçirdi** | **Təmizləndi** | **Cavabdeh şəxs** | **İmza** |
| **A.B.** | 09:00 | 09:30 | V | • şəxsi istifadə əşyaları<br>• birgə istifadə olunan əşyalar<br>• işlənilən səthlər, dəstəklər, kətil<br>• otağın havası dəyişdirildi<br>• başqa ______________ | Xüsisi müəllimin asistenti – V.S. | |
| **Q.D.** | 10:00 | 10:30 | V | • şəxsi istifadə əşyaları<br>• birgə istifadə olunan əşyalar<br>• işlənilən səthlər, dəstəklər, kətil<br>• otağın havası dəyişdirildi<br>• başqa ____________ | Xüsusi müəllim/ psixoloq – L. K. | |

# Əlavə 6.
# Anket: Şagirdin distant tədris prosesinə hazırlığı

Burada məktəb ehtimal cavablardan istifadə edə bilər, məsələn: yaxşı, orta, pis və ya 5-ballıq şkaladan istifadə oluna bilər.

| **Şagirdin distant tədris prosesinə hazırlığı**<br>*Məlumat valideynin, müəllimin və xüsusi müəllimin/psixoloqun tərəfindən toplanılır* | |
|---|---|
| Şagird distant görüşdə müəllimə və sinif yoldaşına necə reaksiya verir | |
| Şagird təlimatların distant çatdırılmasını necə qavrayır və necə reaksiya göstərir | |
| Şagird dərs materialının elektron çatdırılmasını necə qavrayır və necə reaksiya göstərir | |
| Şagird müəllimlə təkbaşına distant məşğələ zamanı nə dərəcədə interaksiyaya girir | |
| Şagird sinif yoldaşları ilə dərs zamanı nə dərəcədə interaksiyaya girir | |
| Şagirdin müəllimlə interaksiyası şagirdlər qrupunda olduğunda nə qədər fərqlənir | |
| Şagird ekran arxasında diqqəti yayınmadan nə qədər vaxt keçirə bilər | |
| Şagirdə distant tədris zamanı diqqətini cəmləşdirməyi uzatmaqda hansı strategiyalar yardım edir | |
| Şagirdə diqqətini cəmləşdirməyi bərpa etmək üçün istirahət etməsi nə qədər kömək edir | |
| Şagird sinif üçün müəyyən edilmiş distant dərslərə müstəqil cəlb olunacaq və həmiştirakçı olacaqdır | ☐ hə<br>☐ yox |
| Distant dərslərə cəlb olunmaq üçün şagirdə növbəti dərs lazım olacaqdır | ☐ valideynin dəstəyi / yanında olmağı<br>☐ xüsusi müəllimin/psixoloqun dərsdə şagirdlə birlikdə iştirakı<br>☐ Xüsusi müəllim/psixoloq tərəfindən dərsin aparılması (follow up) və dərs mövzusuna və şagirdin dərs məqsədinə uyğun olaraq şagirdlə təkbətək iş |
| **Distant tədris formatını nəzərə almaqla dərs məqsədlərinin dəqiqləşdirilməsi**<br>*Məlumat valideynin, müəllimin və xüsusi müəllimin/psixoloqun tərəfindən toplanılır* | |
| Şagirdin növbəti fənn proqramında fərdi dərs planı tərtib edilmişdi | 1. ____<br>2. ____<br>3. ____<br>4. ____<br>5. ____<br>6. ____ |

| | |
|---|---|
| Şagird növbəti fənn proqramında distant dərslərdə iştirakı davam etdirir<br><br>*Valideynin prioritetinin və müəllimlərin fikirlərinin nəzərə alınması ilə müəyyən edilir* | 1. ____<br>2. ____<br>3. ____<br>4. ____<br>5. ____<br>6. ____ |
| Şagird növbəti dərs proqramlarında tədrisin distant formasının nəzərə alınması ilə dərs məqsədlərini dəqiqləşdirməyə ehtiyac duyur | 1. ____<br>2. ____<br>3. ____<br>4. ____<br>5. ____<br>6. ____ |
| Şagirdin xüsusi müəllimlə/psixoloqla təkbətək işlədiyi dərs məqsədləri var idi | ☐ hə<br>☐ yox |
| Şagird xüsusi müəllimlə/psixoloqla distant təkbətək görüşləri davam etdirir | ☐ hə<br>☐ yox |
| Tədrisin distant formasını nəzərə almaqla şagirdin təkbətək dərs məqsədləri modifikasiya edilməlidir | ☐ hə<br>☐ yox |
| **Şagirdin distant tədris zamanı valideynin rolu və ailənin resursları** | |
| Valideyn üçün şagirdin məqsədləri məlumdur | ☐ hə<br>☐ yox |
| Valideyn şagirdin dərs məqsədləri və nailiyyətləri haqqında mütəmadi məlumat alır | ☐ hə<br>☐ yox |
| Valideyn üçün məlumatın çatdırılması növbəti formatın vasitəsilə baş verir | ☐ verbal olaraq müəllim, xüsusi müəllim/psixoloq tərəfindən<br>☐ yazılı |
| Valideyn şagirdin sinxron dərs prosesində iştirak edir | ☐ hə<br>☐ yox |
| Valideyn şagirdin asinxron dərs prosesində iştirak edir | ☐ hə<br>☐ yox |
| Ailədə dərs resursu mövcuddur ki, bu da şagirdin dərs məqsədləri üzrə işləmək imkanını verir | ☐ hə<br>☐ yox |

# İSTIFADƏ EDILƏN ƏDƏBIYYAT

1. Bergmann, J. and Sams, A., *Flip Your Classroom: Reach Every Student in Every Class Every Day*. 2012
2. Center for Global Development. Planning for School Reopening and Recovery After COVID-19. 2020
3. Centers for Disease Control and Prevention. Operating schools during COVID-19: CDC's Considerations. 2020
4. Education Endowment Foundation. COVID-19 Support Guide for Schools. 2020
5. International Task Force on Teachers for Education 2030. Supporting Teachers in Back-to-school Efforts: Guidance for Policy-makers. 2020
6. International Task Force on Teachers for Education 2030. Supporting Teachers in Back-to-school Efforts: A Toolkit for School Leaders. 2020
7. OECD. Supporting the continuation of teaching and learning during the COVID-19 Pandemic: Annotated resources for online learning. 2020
8. UK Department for Education. Guidance for full opening: schools. 2020
9. UNESCO. Framework for Reopening Schools. 2020
10. University of Washington. COVID-19 Literature Report Team. Summary of School Re-Opening Models and Implementation Approaches During the COVID 19 Pandemic. July, 6, 2020
11. Washington Office of Superintendent of Public Instruction. Reopening Washington Schools 2020: District Planning Guide. 2020
12. Washington Office of Superintendent of Public Instruction. Reopening Washington Schools 2020: Special Education Guidance. 2020
13. განათლების კოალიცია, დიფერენცირებული მიდგომის პოლიტიკა განათლებაში, 2015.
14. განათლების კოალიცია, რა უნდა გავითვალისწინოთ 2020-2021 აკადემიური წლისათვის: რეკომენდაციები Təhsil, Elm, Mədəniyyət və İdman Nazirliyiს, 2020.
15. ჩიქობავა მარიამ, საქართველოს განათლების სისტემა და პანდემიის გამოწვევები, ჟურნალი „სკოლის მართვა“, N2, 2020
16. მასწავლებელთა პროფესიული განვითარების ეროვნული ცენტრი, დამხმარე სახელმძღვანელო სკოლის დირექტორებისთვის, 2010

## WORLD VISION GÜRCÜSTAN

+995 32 215 75 15

D. Uznadze küçəsi 78, 0102, Tbilisi

www.wvi.org/Georgia

www.bavshvebistvis.org.ge

info_georgia@wvi.org

/WorldVisionGeorgia